# ZƏFƏR BAYRAMIMIZ MÜBARƏK!

Hər kəs ədalətli olacaq

ƏDALƏT

## Dövlət Bayrağı haqqında yeni standart qəbul edildi



**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu AZS 001-2006 ”Dövlət Bayrağı. Texniki şərtlər” dövlət standartının əvəzinə yenilənmiş AZS 001-2023 ”Dövlət Bayrağı. Texniki şərtlər” dövlət standartını qəbul edib.**

Adalet.az xəbər verir ki, bu barədə Dövlət Xidməti məlumat yayıb. Bildirilib ki, bu standart Dövlət Bayrağına şamil edilir və onun hazırlanmasına dair texniki tələbləri müəyyənləşdirir. Eyni zamanda, standartla Dövlət Bayrağının utilizasiya qaydaları da müəyyən olunur.

## XİN: "Ermənistan hələ də işğalı altındakı 8 Azərbaycan kəndini təhvil verməyib"



**”Ermənistan hələ də işğalı altındakı 8 Azərbaycan kəndini təhvil verməyib”.**

Adalet.az xəbər verir ki, bu fikir Azərbaycan Xarici İşlər Nazirliyinin 8 Noyabr - Zəfər Günü münasibətilə yaydığı bəyanatda əksini tapıb.

Bildirilib ki, Ermənistan yenə də sülh sazişi istiqamətində danışıqlara maneçilik törətmək, hərbi-siyasi təxribatları və mina təhdidini davam edərək sülh prosesini, Azərbaycan vətəndaşlarının həyatını, regiondakı bərpa və yenidənqurma işlərini təhdid altına almaqda davam etmək yolunu seçdi:

”Ermənistan tərəfi bununla yanaşı, öhdəliklərinə zidd olaraq, bölgədə sülh və təhlükəsizliyə əsas təhdid mənbəyi olan erməni silahlı qüvvələrini nəinki Azərbaycan ərazilərindən çıxarmadı, onlara maddi və maliyyə dəstəyini davam etdirdi, Azərbaycan ərazilərinə qanunsuz olaraq silah, hərbi texnika və mina ötürülməsi fəaliyyətindən əl çəkmədi. Ermənistan həmçinin hələ də işğal altında olan 8 Azərbaycan kəndini Azərbaycana təhvil vermədi”.

## Ərdoğan: “Türkiyə Qəzzadakı vəziyyətlə bağlı qarant olmağa hazırdır”



**”Ankara Qəzzadakı vəziyyətlə bağlı qarant ola bilər”. Bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Astanadan səfərdən qayıdarkən təyyarədə jurnalistlərin suallarını cavablandırdığı zaman deyib.**

O, Kipr üzrə qarant olan Yunanıstanı, Böyük Britaniyanı misal çəkib və qeyd edib ki, Türkiyənin Qəzzada qarant ölkə olması təbii haldır. ”Biz Türkiyə olaraq aparıcı rolu öz üzərimizə götürməliyik”, - deyə Rəcəb Tayyib Ərdoğan bildirib. Türkiyə prezidenti bunun tarixi, bu günü və gələcəyi praktiki olaraq formalaşdıracağını vurğulayıb. Ərdoğan, həmçinin bildirib ki, hadisələrin inkişafı vəziyyəti İsrailin zərərinə daha da dəyişdirə bilər.

## *Qarabağda ölən sülhməramlıların ailəsi bu qədər pul alacaq*

***Qarabağda həlak olan sülhməramlıların ailələrinə Rusiya Sülh Fondundan 1 milyon rubl məbləğində yardım veriləcək. Adalet.az xəbər verir ki, bu barədə RİA Novosti məlumat yayıb. Xatırladaq ki, rus sülhməramlılar 20 sentyabr 2023-cü ildə antiterror əməliyyatları zamanı təsadüfən açılan atəş nəticəsində həlak olmuşdu.***

## Nazirdən qaz limiti ilə bağlı açıqlama



**Qaz limiti kifayət qədər mürəkkəb məsələdir. Bizdə qazın qiyməti o qədər də yüksək deyil.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin Gənclər və idman, Əmək və sosial siyasət, Aqrar siyasət, Regional məsələlər və Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin birgə iclasında maliyyə naziri Samir Şərifov deyib. Nazir bildirib ki, sosial həssas əhali üçün müəyyən limit qoyulub: ”Həmin limit çərçivəsində qazın qiyməti daha ucuzdur. Limitdən yuxarı hissə isə bahadır. Bu, o qədər də sadə məsələ deyil. Biz bunu açıq etiraf etməliyik”, - deyə nazir bildirib.

## Şuşa və Xankəndidə yeni telekanal açıla bilər

**”Azərbaycan xalqının informasiya təhlükəsizliyi ilə bağlı səsimizin ucaldılması üçün Şuşa və ya Xankəndidə yeni teleməkan, yaxud informasiya istehsalı məkanı yaratsaq və bunu büdcədə nəzərə alsaq uyğun olar”.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin deputatı Hikmət Babaoğlu parlamentdə ”Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsində deyib.

Onun sözlərinə görə, yaxın gələcəkdə Xankəndidə tək hüquq sahəsi üzrə deyil, eləcə də tarix üzrə ixtisasların tədrisi edilə biləcək ali təhsil müəssisələrinin olması yaxşı olardı: ”Xocalı Azərbaycan mədəniyyətinin ən dərin qatıdır. Orada çoxsaylı arxeoloji işlər aparılmalıdır. Qarabağ ərazisində elə furqanlar var ki, onlar öyrənilməli və araşdırılmalıdır. Bunun üçün də yaxşı tarixçilər yetişdirilməlidir. Bu səbəbdən bütün bunlar üçün gələcəkdə dövlət büdcəsindən lazımi vəsaitin ayrılması yaxşı olar”.

Hər kəs ədalətli olacaq

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 43 (6036) 8 noyabr 2023-cü il | Qiyməti 40 qəpik

# XANKƏNDİNDƏ ZƏFƏR PARADI



## BU MAKRONU RAHAT BURAXIN, YAZIĞIN DƏRDİ ÖZÜNƏ BƏSDİ



**Qorbaçov hakimiyyətə gələndən sonra belə bir sərəncam vermişdi ki, repressiya dövründə mülkləri əlindən alınan adamlar əllərində sənədi varsa yenidən öz mülklərinə sahib ola bilərlər. Yadımdadı, uzaq keçmiş deyil, rəhmətlik Talış müəllimgilin dədə-baba mülklərini müsadirə edəndən sonra Ağdamda həmin binada Tibb texnikumu yerləşirdi, yataqxanası, həyəti-bacası, hələ bir ara Sürücülük kursu da ordaydı. Yəni demək istəyirəm ki, böyük bir mülk idi. Heç demə, Talış müəllim dədə-baba sənədlərini saxlayırmış, oğlu Niyazi də verdi məhkəməyə və uddu. Texnikumu çıxartdılar, mülkü qaytarıb verdilər Niyaziyə, daha doğrusu, Talış müəllimə.**

Tovuzda da bir bəy qızı atasının mülkünün davasını eləyirmiş. Həmin mülkü də söküb yerində Tovuz Rayon İcra Hakimiyyətinin, daha dəqiq desək, keçmiş Partiya Komitəsinin binasını tikmişmişlər. Day üz tutmadığı dövlət orqanı qalmayıbmış, icra hakimiyyətini də, prokuroru da, polisi də yığıbmış boğaza. Həmin vaxt Tovuz məhkəməsinin sədri işləyən Şahin Rüstəmov deyir onu göndərin mənim yanıma.

Katibə xəbər verir ki, bəs filankəs gəlib. Şaxtalı da bir havaymış, Şahin müəllim tez pencəyini çıxarır, köynəyinin yaxasını açır, qollarını qatlayır, durur otağın pəncərələrini də açır, gəlir oturur yerində. Gözünün birini də çəpləyir, katibəyə deyir buraxın içəri.

Qadın girir içəri, bir Şahin müəllimin halına baxır, çəp gözünə baxır, şaxtada açılmış pəncərələrə baxır, başını bulayıb deyir:

- Eh, ay bala, sənin öz dərdin özünə bəsdi.

O gedən olur, bir də mülk davası eləmir.

İndi Fransanın prezidenti Makronu mətbuat yıxıb-sürüyür. Siz də indi bu şəkilə baxın, yazığın dərdi özünə bəsdi.

## MEDİA və XRİTDX internetdə yayılmış saxta məlumatla bağlı açıqlama yaydı




**”Bir sıra sosial şəbəkə seqmentlərində saxta hesablardan edilən paylaşımlar vasitəsi ilə növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından guya yeni investisiya layihəsinin başlanmasına dair Azərbaycan xalqına ünvanlanmış videomüraciət yayılıb”.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) açıqlamasında bildirilib. Qeyd olunub ki, qeyd olunan videomüraciət heç bir reallığı əks etdirmir və ”deepfake” texnologiyaları ilə hazırlanmış saxta məlumatdır. ”Cəmiyyəti bir daha yalnız rəsmi mənbələrin verdiyi məlumatlara inanmağa çağıraraq xatırladırıq ki, Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı və sosial media hesabları mötəbər informasiya mənbəyi olaraq daim aktivdir və dövlət başçısının fəaliyyətini operativ formada işıqlandırmaqdadır.

Azərbaycan vətəndaşlarını, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumatlara söykənən kampaniyaların qlobal səviyyədə vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik”, - deyə məlumatda bildirilib.

## ŞAD XƏBƏR: Pensiyalar artır

**”Gələn il pensiyaların 11 faiz artacağı nəzərdə tutulur”. Adalet.az bunu Milli Məclisin Əmək və sosial siyasət və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclasında ”Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin zərfi”nin müzakirəsi zamanı Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib.**

Onun sözlərinə görə, cari və növbəti illərdə də orta aylıq pensiyanın, orta aylıq əməkhaqqıya nisbəti müvafiq olaraq, 46,8% və 49,3 % olmaqla Avropa sosial xartiyasının tələblərinə cavab verəcək.

## Yol polisindən sürücülərə müraciət



**Dövlət Yol Polisi İdarəsi qeyri-iş günlərində xidmətin təşkili ilə bağlı sürücülərə müraciət edib.**

Bu barədə Adalet.az-a idarədən məlumat verilib.

Bildirilib ki, qeyri-iş günlərində nəqliyyat vasitələri sahiblərinin və sürücülərin asudə vaxtlarının daha çox olması nəzərə alınaraq, nəqliyyat vasitələrinin texniki baxışdan keçirilməsi üçün paytaxtın Sabunçu və Qaradağ rayonları ərazisində yerləşən texniki müayinə mərkəzləri 24 saat, habelə nəqliyyat vasitələri ilə bağlı qeydiyyat hərəkətlərinin aparılması və təyin olunmuş imtahanların keçirilməsi məqsədilə, Baş Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat-imtahan idarəsi, eləcə də respublikanın digər şəhər və rayonlarındakı regional qeydiyyat-imtahan və texniki baxış şöbələri qeyri-iş günləri saat 09:00-dan 18:00-dək fasiləsiz olaraq fəaliyyət göstərəcək. Nəqliyyat vasitələrinin sahibləri və sürücülər asudə vaxtlarını və yaradılmış imkanları dəyərləndirərək istər qeydiyyat-imtahan, istərsə də texniki baxışla bağlı adi iş günlərdə olduğu kimi DYP-nin aidiyyəti qurumlarına müraciət edə bilərlər.

## İsrail HƏMAS-ın düşərgəsini ələ keçirdi

**İsrail Müdafiə ordusunun quru qoşunları , Qəzza bölgəsində yerləşən HƏMAS-ın hərbi düşərgəsini nəzarətə götürüb.**

Qeyd olunur ki, hərbi kompleksin ərazisində nəzarət postu, döyüşçülərin məşq etməsi üçün meydan, həmçinin yeraltı tunelləri var imiş.

Bildirilir ki, İsrail Müdafiə ordusu gün ərzində HƏMAS-ın Qəzza bölgəsində yerləşən 450 obyektinə hücum edib. Məlum olub ki, gecə boyu qırıcı təyyarələr terrorçuların istifadə etdiyi tunellərə, hərbi postlara avia zərbələr endirib.

## *Şuşada dəhşətli hadisə: 5 nəfər faciəvi şəkildə öldü*

**Şuşada 5 nəfərin ölümü ilə nəticələnən qəza baş verib.**

Adalet.az xəbər verir ki, hadisə rayonun Daşaltı kəndində qeydə alınıb.

Sürücü Elvin Abbasov idarə etdiyi ”Nissan Navara” markalı avtomobil ilə hərəkətdə olan zaman idarəetməni itirib.

Nəticədə avtomobil yoldan çıxaraq aşıb və avtomobildən yanğın baş verib. Nəticədə avtomobildə olan sərnişinlər Kamil Qaybalıyev, Rəşad Atakişiyev, Şahbaz İsayev, Eldəniz Həsənov, Hümbət Hümbətov hadisə yerində yanaraq ölüblər. Sürücü isə ağır yanıq xəsarətıəri ilə Füzuli rayon mərkəzi xəstəxanasına yerləşdirilib.

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupunun baş inspektoru, polis kapitanı Aslan Qiyaslı faktı təsdiqləyib. Bildirib ki, baş vermiş yol-nəqliyyat hadisəsi ilə əlaqədar Şuşa Rayon Polis Şöbəsində araşdırmalara başlanılıb. Hazırda iatintaq davam etdirilir.

**Qeyd edək ki qəzaya düşənlər işğaldan azad edilən ərazidə fəaliyyət göstərən yol tikinti şirkətlərinin birinin əməkdaşlarıdır.**

## FƏLƏSTİNLİ UŞAQ JURNALİSTƏ NƏ DEDİ?



Jurnalist üst-başı it günündə olan bir fələstinli uşağa sual verir:

**- Sən böyüyəndə kim olacaqsan?**

Fələstinli uşaq:

**- Bizi böyüməyə qoymurlar axı!**

## Qəzza zolağından 8 azərbaycanlı çıxarıldı



**Qəzza bölgəsində bir neçə gün əvvəl bir gün ərzində 8 nəfər azərbaycanlı təxliyyə olunub.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə deyib.

O qeyd edib ki, İsraildən vətəndaşların evakuasiyası nəzərdə tutulmur. ”Evakuasiya ilə bağlı müraciətlər daxil olmur. Qaynar xəttə müraciətlər cüzidir”, - deyə A. Hacızadə əlavə edib. Qeyd edək ki, təxminən 5 gün əvvəl 8 azərbaycanlının Qəzza zolağından çıxarılacağı ilə bağlı XİN Trend-in sorğusuna cavabında bildirmişdi.

Xatırladaq ki, Qəzza zolağının Sərhəd Mühafizəsi noyabrın 2-də Misirlə sərhəddəki ”Rəfah” keçid məntəqəsi vasitəsilə anklavı tərk edə biləcək təxminən 600 nəfərin adı olan siyahı dərc edib. Siyahıda dərc edilən 596 xarici vətəndaşın 400-ü ABŞ vətəndaşıdır. Siyahıda, həmçinin, Azərbaycan, Belçika, Bəhreyn, Niderland, Macarıstan, İsveçrə və Cənubi Koreya vətəndaşları da var.

Aqil ABBAS
aqilabbas@rambler.ru

## İlham Əliyevin şəhərləri



***1993-cü il! Yenicə müstəqilliyini qazanmış respublika dağılmaq, məhv olmaq təhlükəsi altındadır.***

***Anarxiya, qanunsuz silahlı birləşmələr, vətəndaş müharibəsi ərəfəsi. Belə bir ərəfədə xalqın təkidli xahişi ilə Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldi. Büdcədə pul yox, iqtisadiyyat çöküb, müharibə şəraiti, torpaqlarımız işğal altındadır.***

***Bu böyük dövlət adamı iki ilin içində dağılmaqda olan respublikanın əl-ayağını bir yerə yığa bildi. Bütün silahlı dəstələri zərərsizləşdirdi. Və sübut etdi ki, hakimiyyətə gəlməyin yolu yalnız seçkilərdir, hakimiyyətin mənbəyi xalqdır. İqtisadiyyatı yenidən qurmağa başladı, "Əsrin müqaviləsi"ni imzaladı, Azərbaycanı dünyanın diqqət mərkəzinə çevirdi.***

***Ulu Öndərin ən böyük arzusu torpaqlarımızı düşmən işğalından azad etmək idi. Ömür vəfa etmədi.***

***Bu müqəddəs vəzifə Onun siyasi varisi İlham Əliyevin üzərinə düşdü.***

**Bax:səh-2**

## GÜNÜN LƏTİFƏSİ

Bir gün Molla Nəsrəddin bir həkimin yanına gedib deyir:

**- Həkim, bir məni yoxla görüm dərdim nədir?**

Həkim Mollanın nəbzini yoxlayıb deyir:

**- Dərdiniz aclıqdır. əyləşin, bizimlə nahar eləyin, sovuşub gedər, qorxulu deyildir.**



Molla həkimin təklifini qəbul edərək oturub möhkəm yeyir, getmək istərkən həkimə deyir:

**- Həkimbaşı, bizim evdə bu xəstəliyə tutulmuş bir neçə adam vardır. İndi ki, siz belə tez mualicə edirsiniz, mən onları da sizin yanınıza göndərməyə məcburam.**

# Prezident xanımı ilə Kəlbəcər və Şuşada



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev noyabrın 7-də Kəlbəcər rayonunun Vəngli kəndində olublar.**

***

**Prezident İlham Əliyev Kəlbəcərdə ermənilərin azərbaycanlıların şəxsi avtomobillərinin nömrələrindən düzəltdiyi lövhənin sökülməsi ilə bağlı tapşırıq verib.**

Adalet.az xəbər verir ki, qərar Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev noyabrın 7-də Kəlbəcər rayonunun Vəngli kəndində olarkən verilib.

Qeyd edək ki, işğal dövründə ermənilər növbəti vandallıq aktı nümayiş etdirərək azərbaycanlıların şəxsi avtomobillərinin nömrələrindən lövhə düzəltmişdilər.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhərində peşə məktəbinin və kollecin binasına baxıblar.**

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin açılışında iştirak ediblər.**

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada Heydər Əliyev Fondu tərəfindən Mamayı məscidində aparılan bərpa işləri tanış olublar.**

***

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada İsa bulağında olublar.

# Prezident onlara general-mayor rütbəsi verdi

**Müdafiə Nazirliyinin hərbi qulluqçularına ”general-mayor” ali hərbi rütbəsinin verilib.**

Adalet.az xəbər verir ki, bu barədə Prezident İlham Əliyev sərəncam imzalayıb.

Sərəncamla Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ”general-mayor” ali hərbi rütbəsi verilib:

**polkovnik Fərid Əlibaba oğlu Əliyevə**
**polkovnik Namiq Süleyman oğlu Bayramova**
**polkovnik Müşfiq Xıdır oğlu Məmmədova**

# Prezident şəhid polisləri təltif etdi

**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev Silahlı Qüvvələrin hərbi qulluqçularının və Daxili İşlər Nazirliyinin əməkdaşlarının təltif edilməsi haqqında Sərəncam imzalayıb.**

Adalet.az-ın məlumatına görə, təltif olunanlar arasında bu ilin sentyabrın 19 şəhid olan polis əməkdaşları da var.

Polis serjantları - Şirinov Ramil Arif oğlu, Zamanov Xəzər Azər oğlu, Mahmudov Seymur Elsevər oğlu, Məmmədov Rasim Oktay oğlu, Əsgərov Ələsgər Zakir oğlu, Abdullayev Seyfi Fəqan oğlu və Camalzadə Asim Knyaz oğlu ölümündən sonra ”Vətən uğrunda” medalı ilə təltif olunublar.

Qeyd edək ki, sentyabrın 19-u DİN-in əməkdaşlarının olduğu ”Kamaz” markalı nəqliyyat vasitəsi həmin gün Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonundan keçən 58-ci kilometrliyində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi əməkdaşlarının öldürülməsi ilə nəticələnmiş terror hadisəsinin baş verdiyi yer istiqamətində hərəkət edərkən saat 04:30 radələrində Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşərək partlamış, törədilmiş terror aktı nəticəsində DİN-in əməkdaşları olan 05.02.1994-cü il təvəllüdlü Camalzadə Asim Knyaz oğlu, 08.07.1987-ci il təvəllüdlü Şirinov Ramil Arif oğlu, 12.07.1991-ci il təvəllüdlü Mahmudov Seymur Elsevər oğlu və 21.07.1998-ci il təvəllüdlü Zamanov Xəzər Azər oğlu hadisə yerində həlak olublar.

Bundan başqa, sentyabrın 19-da saat 01:00 radələrində Füzuli rayonu ərazisində ağır yol-nəqliyyat hadisəsi nəticəsində polis serjantları Ələsgər Əsgərov, Seyfi Abdullayev və Rasim Məmmədov şəhid olmuşdular.

## *Füzuli, Laçın və Zəngilanda hərbçilərin Zəfər yürüşləri keçiriləcək*

**8 Noyabr - Zəfər Günü ilə əlaqədar paytaxtın müxtəlif küçə və prospektlərində, eləcə də Gəncə, Bərdə, Füzuli, Laçın şəhərlərində və Zəngilan rayonunda müəyyən edilən marşrutlar üzrə hərbi orkestrlərin müşayiəti ilə hərbi qulluqçuların yürüşləri təşkil olunacaq.**

Adalet.az xəbər verir ki, bu barədə Müdafiə Nazirliyindən bildirilib.

Hərbi qulluqçular hərbi orkestrlərin müşayiəti ilə noyabrın 8-i saat 10:00-dan 12:00-dək Bakı şəhərində aşağıdakı marşrutlar üzrə yürüş edəcəklər:

- Heydər Əliyev Sarayı - Bülbül prospekti - Nizami Kino Mərkəzi - Neftçilər prospekti - Azadlıq meydanı - ”AMAY” Ticarət Mərkəzi;
- Şəhidlər Xiyabanı - ”Alov Qüllələri” Kompleksi - ”İçərişəhər” metrosu - İstiqlaliyyət küçəsi - Azneft dairəsi - Bəhram Gur heykəli;
- Q.Musabəyov parkı - Əbdürrəhim Bəy Haqverdiyev küçəsi - Hüseyn Cavid prospekti - Hüseyn Cavid parkı - Parlament prospekti - Şəhidlər Xiyabanı;
- ”Olimpik Star” İdman və Əyləncə Mərkəzi - Səməd Vurğun küçəsi - Zabitlər parkı - Bakı Dövlət Sirki - Heydər Əliyev sarayı - İ. Nəsimi heykəli - Neftçilər prospekti.

# DÜNYANI HEYRƏTƏ GƏTİRƏN ZƏFƏRİMİZ!

**Ərazi bütövlüyümüzün bərpa olunması bütün dövrlərdə Prezident İlham Əliyevin dövlət siyasətinin mütləq prioriteti olmuşdur.**

Ancaq dünya siyasəti, daha doğrusu, onun Azərbaycana yönəlik ikili standartı müharibəni qaçılmaz edirdi. Baxmayaraq ki, ölkə rəhbəri ən ali tribunalardan birmənalı şəkildə Azərbaycanın öz ərazi bütövlüyünü sülh danışıqları ilə , sülh yolu ilə bərpa etmək istəyini xüsusi vurğulayırdı, lakin Azərbaycana qarşı düşmənçilik və etnik dözümsüzlük siyasəti 200 ildən çox davam edirdi. Belə ki, 1988-ci ildə başlayan Qarabağ hadisələri, erməni ideoloqlarının ”dənizdən dənizə Ermənistan” adlı sərsəm ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələnmişdir.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi azərbaycanlıları doğma yurd-yuvalarından didərgin salmaqla yanaşı, ölkəmizin iqtisadiyyatına və mədəni irsinə də ağır zərbə vurmuşdur. Bir milyondan çox azərbaycanlı 30 il ərzində qaçqın və məcburi köçkün həyatı sürməyə məcbur olmuşdur. Ermənistan bu müddət ərzində işğal altında saxladığı Azərbaycan ərazilərini acınacaqlı vəziyyətə salmış, şəhər və kəndlərdə infrastrukturu tamamilə məhv etmiş, Azərbaycana milyardlarla dollar dəyərində maddi ziyan vurmuşdur.

Ermənistan tərəfinin 2020-ci il 27 sentyabr tarixində törətdiyi növbəti təxribat artıq Azərbaycan xalqının səbir kasasını daşdırd. Belə ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən, Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən isə Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Sarıcalı kəndi yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutuldu.




Məhz xalqımızın 30 ilə yaxın gözlədiyi ”İrəli” əmri də həmin tarixdə verildi. Yəni Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verildi.

Böyük Qələbəmiz də elə həmin o tarixi əmirlə də gerçəkliyə çevrildi. Döyüşdüyümüz 44 gün ərzində hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, işğala son qoyulsun və tarixi ədalət zəfər çalsın. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. ”Dəmir yumruq” əməliyyatının ilk saatlarında cəbhə xəttindən sevindirici xəbərlərin ardə-arası kəsilmədi.

Beləlliklə dünya bizim Tarixi Qələbəmizin təqviminin şahidinə çevrildi.

27 sentyabr: Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri. Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri. Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər.

3 oktyabr: Tərtər rayonunun Suqovuşan və Talış kəndləri. Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri; Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi.

4 oktyabr: Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu və Cəfərabad kəndləri.

5 oktyabr: Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri.

9 oktyabr: Xocavənd rayonunun Ağoğlan (Hadrut) qəsəbəsi və Sur kəndi. Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri. Füzuli rayonunun Yuxarı Güzlək, Gorazıllı kəndləri. Tərtər rayonunun Çaylı kəndi.

14 oktyabr: Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri. Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri.

15 oktyabr: Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri. Füzuli rayonunun Arış kəndi. Cəbrayıl rayonunun Doşulu kəndi.

16 oktyabr: Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri.

17 oktyabr: Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri.

18 oktyabr: Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı.

19 oktyabr: Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri.

20 oktyabr: Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri. Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri. Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri. Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri.

21 oktyabr: Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri. Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri. Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri.

22 oktyabr: Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dələkli kəndləri və Ağbənd qəsəbəsi. Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri. Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri.

23 oktyabr: Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri. Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri. Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri. Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri.

25-26 oktyabr: Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri. Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri. Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri.

28 oktyabr: Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri. Füzuli rayonunun Mandılı kəndi. Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri. Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri.

30 oktyabr: Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri. Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri. Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri.

2 noyabr: Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri. Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri. Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri.

4 noyabr: Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri. Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri. Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri.

7 noyabr: Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar kəndləri. Cəbrayıl rayonunun Yuxarı Məzrə, Yanarhac kəndləri. Qubadlı rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri. Zəngilan rayonunun Beşdəli kəndi. Xocalı rayonunun Qarabulaq, Moşxmaat kəndləri. Xocavənd rayonunun Ataqut, Tsakuri kəndləri.

8 noyabr: ŞUŞA şəhəri.

9 noyabr: Füzuli rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq kəndləri. Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Şuşakənd, Muxtar, Daşaltı kəndləri. Xocavənd rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanas?en, Şəhər kəndləri. Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər kəndləri. Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli kəndləri. Zəngilan rayonunun Keçikli, Ördəkli, Sobu, Qaragöz, İsgəndərbəyli kəndləri, Bartaz qəsəbəsi. Laçın rayonunun Güləbürd, Səfiyan, Türklər kəndləri.

10 noyabr: Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatına əsasən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub.

20 noyabr- Ağdam;25 noyabr- Kəlbəcər;1 dekabr- Laçın.

44 günün Zəfəri təkcə Azərbaycanı deyil, onun dostlarını da sevindirdi. Bizimlə bir cərgədə mdayanan və haqqımızı müdafiə edən qardaş Türkiyə, Pakistan və digər həmfikirlərimiz imkan verdi ki, artıq dünyaya bildirək ki, Biz öz ərazi bütövlüyümüzü bərpa etmişi!. Ölkə prezidentinin həçmin günlərdə vurğuladığı bu fikir bizim sabah olan böyün inamımızın ifadəsi idi: ”Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq... Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik.”

Gözümüzün önünə möhtəşəm Zəfər paradını gətiririk. Vətən müharibəsində Azərbaycanın qələbəsi şərəfinə 2020-ci il dekabrın 10-da Bakının Azadlıq Meydanında keçirilmiş Zəfər paradında 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı türk əsgər və zabitləri iştirak etmişdir. Paradı Azərbaycan Respublikasının Prezidenti,Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevvə fəxri qonaq qismində dəvət olunmuş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qəbul etmişdir.

Yeri gəlmişkən xatırlada ki, həmin 44 gündə biz diplomatik cəbhədə də böyük uğurlar qazandıq. Prezident İlham Əliyev müharibə dövründə dünyanın ən böyük media qurumlarına 30-dan çox müsahibə verdi, münaqişə ilə bağlı əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı. İnformasiya savaşının əsas konturlarını təşkil edən bu müsahibələr milli mətbuatımızın fəaliyyətinə istiqamət verdi. Müzəffər Ali Baş Komandanın müharibə ilə bağlı müsahibələri XXI əsr üçün yeni üslub, yeni model nitq strategiyası hesab edildi..

Bu gün Azərbaycan xalqı tamamilə dağıdılmış 10 min kvadratkilometr ərazidə yeni həyat qurur. Azad edilmiş ərazilərə səfərləri ilə Prezident İlham Əliyev öz sevincini xalqı ilə bölüşməklə yanaşı, həmin əraziləri tez bir zamanda bərpa etmək, dirçəltmək əzmində olduğunu əyani nümayiş etdirmişdir. Azad edilmiş şəhərlərimizdə, kəndlərimizdə artıq geniş inşaat işləri gedir.

Azad edilmiş bütün şəhərlərdə İşğal və Zəfər muzeyləri inşa ediləcək, və faktiki olaraq artıq Füzulidə, Zəngilanda hava limanları istifadəyə verilmi, Laçın, Zəngilan, Füzuli sakinlərinin müəyyən hissəsi doğma ocağa qayıtmış, eləcə də Ağdam da, Cəbrayılda, Qubadlıda böyük tikinti işlərinə start verilmişdir, özülləri qoyulmuşdur. Şuşa yeni həyatın gözəlliklərini yaşamaqdadır.

**Zəfərimizi daha da möhkəmlədən və əbədiləşdirən 24 saatlıq antiterror əməliyyatı Xankəndində bayrağımızın dalğalanması ilə nəticələndi, bütövlükdə keçmiş Dağlıq Qarabağ ərazisinin hər bir nöqtəsində bu gün Azərbaycan qanunları fəaliyyət göstərir. Dövlətimizin strukturları bu yerlərdə birmənalı olaraq fəaliyyətə başlamışdır. Bu da o deməkdir ki, Azərbaycan özünün keçmiş sovetlər birliyi zamanı mövcud olan ərazisində torpağının da, milli dəyərlərinin də, sözünün də, əməlinin də əsl sahibidir. Bu gerçəkliyi təsdiq edən ”Dəmir Yumruq” və bir də Müzəffər Ordumuzdur! Xankəndində keçiriləcək növbəti Zəfər Paradı da Xalqla prezidentin və Ordunun birliyinin təntənəsi olacaqdır. Bu təntənə tarixin yaddaşına yazılacaqdır!**

**Sübhan Mahmudov**

<u>*AQİL ABBAS*</u>

# İlham Əliyevin şəhərləri

*1993-cü il! Yenicə müstəqilliyini qazanmış respublika dağılmaq, məhv olmaq təhlükəsi altındadır.*

*Anarxiya, qanunsuz silahlı birləşmələr, vətəndaş müharibəsi ərəfəsi. Belə bir ərəfədə xalqın təkidli xahişi ilə Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldi. Büdcədə pul yox, iqtisadiyyat çöküb, müharibə şəraiti, torpaqlarımız işğal altındadır.*

*Bu böyük dövlət adamı iki ilin içində dağılmaqda olan respublikanın əl-ayağını bir yerə yığa bildi. Bütün silahlı dəstələri zərərsizləşdirdi. Və sübut etdi ki, hakimiyyətə gəlməyin yolu yalnız seçkilərdir, hakimiyyətin mənbəyi xalqdır. İqtisadiyyatı yenidən qurmağa başladı, "Əsrin müqaviləsi"ni imzaladı, Azərbaycanı dünyanın diqqət mərkəzinə çevirdi.*

*Ulu Öndərin ən böyük arzusu torpaqlarımızı düşmən işğalından azad etmək idi. Ömür vəfa etmədi.*

*Bu müqəddəs vəzifə Onun siyasi varisi İlham Əliyevin üzərinə düşdü.*

*Heydər Əliyevdən sonra hakimiyyətə gələn İlham Əliyev 17 il bütün döyüşlərə (oxu: görüşlərə) tək gedirdi. Ermənilər isə türklər demiş, heç vaxt təkər-təkər gəlmirdilər. Ermənistanın arxasında duran qüvvələr fikirləşirdilər ki, bu gənc (hakimiyyətə gələndə 43 yaşı vardı) lideri yerində oturda biləcəklər, Qarabağı Azərbaycandan qoparıb Ermənistana peşkəş edəcəklər. Müxtəlif layihələrlə gəlirdilər, müxtəlif təkliflərlə və sairə və ilaxır. Fikirləşirdilər ki, gəncdir, təcrübəsizdir, Heydər Əliyev kimi dünyada tanınan bir siyasətçi deyil.*

*Amma unudurdular ki, o, Heydər Əliyevin oğludur, Heydər Əliyev məktəbi keçib. Dünyanın öndə gedən diplomatik institutlarından birini əla qiymətlərlə bitirib.*

*Yadıma bir hadisə düşdü. Alparslan Türkeş dünyasını dəyişəndə Milliyyətçi Hərəkat Partiyasında Türkeşin oğlu Toğrul Türkeşi sədr seçmək istəyəndə önünə bir şərt qoydular ki, o, ülkü ocaqlarında təhsil almayıb, o zaman Toğrul bəy gülüb demişdi:*

*- Ülkü ocaqlarında mənim atamın yazdığı kitablardan dərs keçirlər. Bu ocaqlarda təhsil alanlar həftədə iki dəfə mənim atamın yazdığı kitablardan iki-üç saat təlim-tərbiyə alırlar. Necə olur ki, onlar ülkücü sayılır, amma hər gün iyirmi dörd saat atamın ideyaları ilə böyüyən mənim qarşıma belə şərt qoyursunuz.*

*Bir daha xüsusilə vurğulayıram ki, onlar unudurdular 43 yaşınadək Heydər Əliyevin təlim-tərbiyəsini, siyasi görüşlərini, əqidəsini, vətənpərvərliyini, milli məfkurəsini gündə 24 saat mənimsəyən və artıq yetişmiş, müdrikləşmiş İlham Əliyevlə qarşı-qarşıyadırlar.*

*İlham Əliyev qarşısına bir məqsəd qoymuşdu, Atasının ona etdiyi vəsiyyəti - torpaqlarımızı Ermənistanın işğalından xilas etmək, müstəqilliyini əbədi etmək vəsiyyətini həyata keçirmək üçün gecə-gündüz çalışır, mübarizə aparırdı.*

*Ölkənin iqtisadiyyatını qurur, dünyanın aparıcı dövlətləri ilə iqtisadi əlaqələr yaradır, Azərbaycanı tək regionda deyil, dünyada söz sahibinə çevirir, Müdafiə Sənayesi Nazirliyi yaradır, yeni ordu formalaşdırır, ordunun maddi-texniki bazasını möhkəmləndirir. Qarşısında bir amal var: güclü iqtisadiyyat, güclü dövlət, güclü ordu və ağıllı siyasət.*

*Birinci Qarabağ savaşında Allahın avtomat patronunu, ən sadə döyüş silahlarını xaricdən alan Azərbaycan indi nəinki öz ordusunu ən müasir silah-sursatlarla, raketlərlə, PUA-larla, dronlarla, ağır artilleriya ilə təmin edir, eləcə də dünyanın 30-a qədər dövlətinə silah-sursat satır.*

*Bəli, Prezident İlham Əliyev reklamsız öz işiylə məşğul idi və heç bir danışıqlarda da bir addım geri çəkilmirdi. Bir sözlə, Ermənistan və havadarları bir daş idilərsə, Qayaya rast gəlmişdilər. Onlar "nöqtə" idilər, amma "Nida" ilə qarşılaşmışdılar.*

*Hər şeyin bir zamana ehtiyacı vardı. Prezident deyirdi: "Mən nəyi, nə vaxt və necə etməyi yaxşı bilirəm".*

*Vaxt gəldi, dediyini dedi, elədiyini də elədi. 44 günün içində, belə demək mümkünsə, ildırım sürəti ilə Azərbaycanın 30 ilə yaxın bir dövrdə işğal altında olan bütün torpaqlarını (təxminən 19 min kvadratkilometr) öz sərkərdəlik məharəti ilə azad etdi.*

*Hələ uzun illər bundan əvvəl deyirdi ki, gün gələcək müqəddəs Azərbaycan bayrağı işğal altında olan bütün torpaqlarımızda dalğalanacaq. O gün gəldi! Məhz onun sərkərdəliyi ilə ordumuzun müzəffər əsgərləri o bayrağı bütün Qarabağ boyu dalğalandırdılar.*

*Son beş əsrdə Azərbaycan ilk dəfəydi ki, Onun komandanlığı altında itirdiyi torpaqlara sahiblənirdi.*

*Bu 44 günlük müharibə bütün dünyanı, daha dəqiq desək, ermənilərin arxasında duran böyük dövlətləri təkcə çaşdırmamışdı, həm də sarsıtmışdı. Ermənistan da, arxasında duran dövlətlər də qarşılarında qüdrətli bir Azərbaycan, qüdrətli bir Sərkərdə gördülər.*

*Prezident İlham Əliyev özü də təkcə döyüşdə qalib gəlmədi, diplomatiyada da qalib gəldi. Məhz uğurlu xarici siyasəti nəticəsində. Özünün çevik diplomatiyası ilə dünyanın bir sıra söz sahibi olan ölkələri Azərbaycanın yanında oldular, haqq səsinə səs verdilər.*

*İlham Əliyev təkcə ata vəsiyyətini yerinə yetirmədi, O, Azərbaycan xalqının arzusunu, istəyini həyata keçirdi. Bir milyon qaçqın və məcburi köçkünün 30 ildə həsrətlə gözlədiyi qələbə müjdəsini də verdi. Azərbaycan xalqının qürurunu özünə qaytardı!*

*Artıq bir ildən çoxdur ki, işğaldan azad olmuş şəhər və kəndlərimizdə quruculuq işləri gedir. Bilirsiniz, bu quruculuq işində ən çətin olanı nədir? Biri var hər şeyi sıfırdan başlayasan, biri də var minusdan başlayasan. Mənfur düşmən şəhər və kəndlərimizi elə bir xarabazara çeviriblər ki, o xarabazarlığı təmizləmək, yerində şəhər və kəndlər salmaq ikiqat maddi vəsait tələb edir. Təkcə Ağdamı xarabazarlıqdan təmizləmək üçün bəlkə də minlərlə maşın və texnika lazımdır. Şəhərdə hələ tikililəri demirəm, infrastrukturu yenidən qurmaq üçün milyardlarla manat pul lazımdır. Və Azərbaycan heç bir dövlətdən borc almadan bütün şəhər və kəndlərimizi yenidən qurur.*

*Müstəqillik qazanan gündən müharibələrdə, sonra da müharibə şəraitində yaşayan, 44 günlük Vətən müharibəsi aparan bir dövlət üçün bu çox ağırdı.*

*Yenə də ikiüzlü siyasətlə üz-üzəyik. Avropa İttifaqı heç bir kəndi-kəsəyi dağılmamış, evi-eşiyi yağmalanmamış Ermənistana 2,6 milyard dollar yardım ayırır, Azərbaycana isə 140 milyon dollar. Eybi yox, bu xalq Möhtərəm Prezidentin rəhbərliyi ilə bu sınaqdan da, bu çətinlikdən də uğurla çıxacaq.*

*Necə deyərlər, Möhtərəm Prezident İlham Əliyev əlini bu ağırlığın altına qoyub və bunun da öhdəsindən gələcək. Təbii ki, xalqımızla bir yerdə.*

*Şair Məmməd Araz yazır:*

*Bir daşın qulpundan yapışsa hərə,*
*Nə imiş bir kəndin şəhər olmağı?*

*İndi biz də hərəmiz bir daşın qulpundan yapışsaq Ağdamı, Füzulini, Kəlbəcəri və digər şəhər və kəndlərimizi abad eləmək nə çətin bir işdir?*

*Pyotr bataqlıqda şəhər saldı, indi onun adıyla adlanır Peterburq.*

*Əmir Teymur türk dünyasına iki böyük şəhər bağışladı - Səmərqənd və Buxara. Üstündən 500 il keçir, bu şəhərlərə Əmir Teymur şəhərləri deyirlər.*

*Dünyada şəhərləri yandıran, yer üzündən silən padşahlar olublar. Amma onların adı nə tarixdə qalıb, qalıbsa nifrətlə anılır, Neron kimi.*

*Qurub-yaradanlar yaşayır, üstündən yüz illər, min illər keçsə də.*

*İlham Əliyev köçəryanların, sərkisyanların, ohanyanların, nə bilim hansı yanların dağıtdığı şəhərləri yenidən tikir.*

*Bu şəhərlər təbii ki, öz adıyla yaşayacaq : Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın, Kəlbəcər, Şuşa, Xocavənd. Amma illər, yüz illər keçəcək, bu şəhərlər tarixdə İlham Əliyevin şəhərləri kimi qalacaq.*

*Təkcə Ağdamı misal gətirim. Yüz minlik bir şəhər salınır. Dünyada tayı-bərabəri olmayan bir şəhər. Baş planla hamımız tanışıq. Mən Baş planla tanış olandan sonra bunu Ağdamda görüşdə Möhtərəm Prezidentə də dedim. Şəhərin bu Baş planı müharibədən sonra işlənmiş bir plan deyildi. Belə bir müdhiş planı hazırlamaq üçün uzun illər lazım idi. Deməli, Möhtərəm Prezident hələ müharibədən çox-çox əvvəl Qarabağda yenidən inşa olunacaq şəhər və kəndlərin layihələrini hazırlatmış, dəfələrlə memarların üstündə yenidən işləməsini tövsiyə etmiş və ən nəhayət, son qərara gəlmişdir. Layihələr o qədər dəqiqliklə, incəliklə işlənib ki, bu dörd-beş ayın məhsulu deyil.*

*Deməli, Möhtərəm Prezident torpaqlarımızın azad olunacağını və nə vaxt azad olunacağını, özünün dediyi kimi, çox gözəl bilirmiş.*

*30 ildir Şuşaya bayraq sancmağımıza inanmayanlara da xatırlatmaq istəyirəm ki, lap tezliklə Azərbaycan bayrağı Xankəndidə, Xocalıda, Əsgəranda və Ağdərədə də dalğalanacaq.*

*Hər şeyin bir zamana ehtiyacı var, zaman da bizim xeyirimizə işləyir. Bu zamanı da bizim xeyirimizə işlədən Ali Baş Komandan, Möhtərəm Prezident İlham Əliyevdir.*

*Möhtərəm Prezident İlham Əliyevin 60 yaşı tamam olur. Ona nə arzulayım?! Tanrı ona hər şey verib: boy-buxun, yaraşıq, Sərkərdəlik qabiliyyəti, Xalq sevgisi, 44 günlük müharibədə onu bir an da tək buraxmayan ömür-gün yoldaşı, qüdrətli dövlət, dünyada qəbul olunan müdrik bir siyasətçi. Tarixə adı qızıl hərflərlə yazılacaq qüdrətli bir Sərkərdə.*

*Mən Möhtərəm Prezidentə nə arzulayım?! Tanrı o günü İlham Əliyevə, Azərbaycan xalqına qismət eləsin ki, yenidən tikdiyi İlham Əliyevin şəhərlərinin sakinlərinin doğma yurd-yuvalarına dönəcəyi gün açılış lentlərini kəsməyi qismət eləsin. Ağdamda, Kəlbəcərdə, Laçında və sairə şəhərlərimizdə ad gününü öz ev-eşiyinə köçmüş qaçqınlarla birgə keçirtməyi, çay süfrəsi arxasında oturmağı, onlarla birgə Qarabağ plovu yeməyi arzulayıram.*

*Qismət olsa, mən də orada olmaq istərdim.*

*Möhtərəm Prezident, ad gününüzü ürəkdən təbrik edirəm. Sizə uzun ömür, cansağlığı və ömür-gün yoldaşınız, xalqın sevimlisi Mehriban xanım Əliyeva ilə birlikdə Azərbaycan naminə daha böyük uğurlara imza atmağınızı arzulayıram.*

*Tanrı Sizi qorusun!*

**"Azərbaycan" qəzeti,**
**24 dekabr 2021**

# "Sən kimsən, kimi kimin torpağından qovasan?" - Aygün Attardan sərt etiraz

**”Günlərdir ki, Azərbaycana qarşı ən ağır təhqirlərlə dolu təkəbbürlü insanların postlarını görürəm. Mən sizi sorğu-sual etmirəm, amma kobudluğun, həyasızlığın da həddi var”.**



Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə Azərbaycan Dostluq Əməkdaşlıq və Həmrəylik Fondunun prezidenti Prof. Dr. Aygün Attar deyib.

Aygün Attar Türkiyə-Azərbaycan qardaşlığından (ifrat ”solçulardan” tutmuş, din pərdəsi altında ən ”sağ təəssübkeşlərə” qədər) narahat olan təbəqəyə cavab verib. O, mikrofonlar önündə ”Azərbaycanlıların ölkəmdə olmasını istəmirik” deyənlərə etiraz edərək, ”Sən kimsən, kimi kimin torpağından qovarsan?” deyə təpki verib: ”Türküstanın milli mücahidlərindən Mustafa Çokayın dediyi kimi, ”Hər türkün iki vətəni var: Birincisi doğulduğu yer, ikincisi Türkiyə”. Ona görə də dünyadakı hər bir türkün vətəni Türkiyədir”. A.Attar qeyd edib ki, müharibədə günahsız körpələrin öldürülməsi, Qərbin Qəzzada baş verənlərə ikiüzlü susqunluğu əksəriyyəti maraqlandırmır: ”Azərbaycana iyrənc nəfəslə hücum edən rəzil zehniyyətlər, sizin probleminiz türklükdədir, Qəzza bəhanədir. Qəzzada şəhid olan müqəddəs ruhları Azərbaycana qarşı kin və nifrətinizə alət etməyin, utanın.

Sizin narahatlığınız Türkiyə ilə Azərbaycan arasında münasibətləri korlamaqdan və Azərbaycana qarşı ictimai narazılıq yaratmaqdan ibarətdir” deyən professor ancaq onların heç bir uğur qazana bilməyəcəklərini bildirib.

””Ürəyimiz Azərbaycandır, qəlbimiz Türkiyədir” deyənlərin sırasındayıq! Biz birlikdə daha güclüyük!”, - deyə Aygün Attar vurğulayıb.



Rüstəm Hacıyev

## "Siz bu müharibəni uda bilməzsiniz"

*"Valday" beynəlxalq diskusiya klubunun vitse-prezidenti Nelson Vonq bəyan edib ki, Çin öz suverenliyini və ərazi bütövlüyünü qorumağa hazırdır.*

*Vonq qeyd edib ki, Çin rəhbərliyi Tayvanla bağll öz qəti mövqeyini müəyyənləşdirib və milli birləşmənin güc tədbiq etmədən, sülh yolu ilə həllinin tərəfdarıdır.*

*Tayvan münaqişəsinin güc yolu ilə həlli ssenarisinə ehtiyac yarandığı halda Çinin reaksiyası necə ola bilər sualını cavablandıran Nelson Vonq bildirib ki, hərbi güc və kursun dəyişilməsi üçün üç qırmızı xətt var. "Birincisi: adanı vətənimizdən qoparmaq üçün xarici müdaxilə, ikincisi: Tayvan separatistləri çox irəli gedərək, de-fakto adanı müstəqil dövlətə çevirmək cəhdi, üçüncüsü: separatist qüvvələr referendum keçirmıklə suverenlik əldə etməsi".*

*Politoloqun fikirincə, bu üç faktordan birinin həyata keçirilməsi, güc tədbiq etmək üçün yetərli sayılacaq və bu müharibə Çinin öz ərazi bütövlüyünün müdafiəsi kimi qiymətləndiriləcək.*

*Nelson Vonq ABŞ-a da xəbərdarlıq edib: "Ayılın! Siz heç vaxt bu müharibəni uda bilməzsiniz, bunu yadınızdan çıxarın. Siz gəlməyə cürət edirsuniz? Siz istəyirsiniz ki, biz əzələ nümayış etdirək?"*

*Bildiyiniz kimi, ABŞ Tayvanın ən yaxın tərəfdaşıdır. Hazırda ABŞ prezidenti Co Batdenin təklifiylə Konqress Tayvana, müdafiə məqsədiylə 370 milyon dollar hərbi yardım ayrılması məsəlisiə baxmalıdır.*

# Sahibə Qafarova Xorvatiyanın Baş naziri ilə görüşdü

**Noyabrın 6-da Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Bu barədə Adalet.az -a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, görüşdə Milli Məclisin sədri, ölkələrimizi birləşdirən dostluq münasibətləri və qarşılıqlı faydalı əməkdaşlıqdan danışıb, son illər ərzində ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini və strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini deyib, ikitərəfli münasibətlərin dərinləşməsində ali və yüksək səviyyəli qarşılıqlı səfərlərin, görüşlərin əhəmiyyəti vurğulayıb, hər iki ölkə başçısının səfərlərinin əhəmiyyətini qeyd edib.

Söhbətdə müxtəlif sahələrdə əlaqələrlə yanaşı, humanitar sahədə də əməkdaşlığın əhəmiyyətinə toxunun parlamentin spikeri, Azərbaycan və Xorvatiya xalqları arasında təhsil, elm, mədəniyyət sahələrində əməkdaşlığın davam etdirilməsinin, qarşılıqlı əsasda mədəni tədbirlərin keçirilməsi kimi fəaliyyətlərin dəstəklənməsinin xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına xidmət etdiyini qeyd edib.



Görüşdə parlamentlərarası əlaqələrdən danışan spiker Sahibə Qafarova, bu ilin may ayında Milli Məclisin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak etmək üçün ölkəmizə səfər edən Xorvatiya parlamentinin sədr müavini Davorko Vidoviçlə keçirdiyi görüşü məmnuniyyətlə xatırlayıb. O, mövcud parlamentlərarası əlaqələri Azərbaycan ilə Xorvatiya arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amil kimi qiymətləndirib.

Söhbət zamanı, ikitərəfli münasibətlərin inkişafında hər iki ölkə parlamentlərində fəaliyyət göstərən dostluq qruplarının rolu vurğulanıb, müntəzəm təmasların, dialoq və fikir mübadiləsinin mövcud əlaqələrin dərinləşdirilməsində xüsusi rolu qeyd olunub.

Görüşdə 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonrakı dövrdə regionda mövcud olan vəziyyət, cari ilin sentyabrında Azərbaycanın həyata keçirdiyi lokal antiterror tədbirləri, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən irimiqyaslı bərpa və quruculuq işləri barədə danışılıb.

S.Qafarova deyib ki, Ermənistan 30 il ərzində Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayıb. Ölkəmiz 30 il dünyada mövcud olan ikili standartlardan əziyyət çəkib, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına son qoyulması, torpaqlarımızın qeyd-şərtsiz işğaldan azad olunması ilə bağlı beynəlxalq təşkilatların qərar və qətnamələri icra olunmayıb. 2020-ci ildə Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin edib, öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edib.

Milli Məclisin sədri diqqətə çatdırıb ki, Azərbaycan sülh istəyir və sülhün əldə olunması bütün regionda sabitlik və təhlükəsizliyi təmin edəcək.

Azərbaycan parlamentində olmaqdan məmnunluğunu bildirən Baş nazir Andrey Plenkoviç, ölkəmizə səfərinin məqsədləri və keçirdiyi görüşlər barədə məlumat verib. Qonaq Xorvatiya ilə Azərbaycan arasında qarşılıqlı səfərlərin önəmini dəqqətə çatdıraraq, bu səfəri çərçivəsində bir çox məsələlər haqqında müzakirələr apardığını bildirib.

**Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.**

**Nicat**

*Aqil ABBAS*

## MÜDAFİƏ, YOXSA YEYİNTİ NAZİRLİYİ?

**143 milyon manat! Bunu bir "Kamaz"a yükləsən yolda polis saxlayar ki, artıq yük götürmüsən. Bu pula Ağdamda və ya Füzulidə 143 yaşayış binası tikmək olar, minlərlə qaçqını sevindirmək olar.**

**Amma bina-filan tikib-eləməyiblər, Müdafiə Nazirliyinin 3-4 polkovniki mənimsəyib. Əgər polkovniklər 143 milyon pulu mənimsəyiblərsə, görün generallar nə qədər mənimsəyib və mənimsəyir? Özü də hansı pulu? Dövlətin əhalinin sosial məsələlərindən kəsib zəfərimiz üçün Müdafiə Nazirliyinin büdcəsinə ayırdığı pulu.**

**İndi məhkəmələri gedir, deyəsən 40 milyonu qaytarıb ödəyiblər.**

**Məsələ nədi? Bir belə pulu mənimsəyiblər, necə olub ki, Müdafiə Nazirliyinin müvafiq strukturlarının bundan xəbəri olmayıb? Müdafiə Nazirliyində yoxlama aparılmırmı?**

**Niyə məhz Dövlət Təhlükəsizlik Xidməti işə qarışandan sonra bu yeyintinin üstü açılıb? Təkcə pulu mənimsəyənləri yox, müəyyən rüşvət məbləğində bu yeyintiyə göz yumanlar da məsuliyyətə cəlb olunmalıdır.**

**Yeri gəlmişkən, vaxtilə bir müdafiə naziri vardı Məmmədrəfi Məmmədov, Müdafiə Nazirliyinə məxsus bir traktoru bir təyyarəsi ilə Moskvaya aparıb bağında işlədirdi. Yəqin ki, sonra da əli aşağı düşdüyündən satmışdı.**

**Universitetdə 5-ci kursa keçəndə zabit rütbəsi almaq üçün bizi aparıb tökmüşdülər Neftçalada bir hərbi hissəyə. 1974-cü il idi, hərbi hissədə 80-dən yuxarı tank və zirehli texnika vardı, bizi hər həftə məcbur edirdilər ki, onları silib təmizləyək. Hamısı par-par parıldayırdı. Günlərin bir günü həyəcan siqnalı verdilər, ən uzaq gedən tank, ya zirehli texnika 10 kilometr getmişdi, eləsi vardı heç yerindən tərpənməmişdi. Məlum oldu ki, hərbi hissənin komandanlığı yanacağı satıb yeyib, hətta bəzi zirehli texnikaların akkumlyatorlarını da çıxarıb satıbmış. Tökülüşüb gəldilər, bu işdə əli olan yüksək rütbəli nə qədər komandir vardı yığıb-yığışdırıb apardılar, hərəsinə 10-15 il iş verdilər.**

**Böyük Vətən Müharibəsi illərində kənddə yaşlı kişilər müharibəyə getdiyindən işçi qıtlığı vardı. Məktəblərdə yuxarı siniflərdə oxuyan istedadlı uşaqları seçib kolxozlarda idarə işlərinə cəlb edirdilər. Mənim atam da 7-ci sinifdə oxuyurmuş, gətirib kolxozda hesabdar qoymuşdular. Atam deyirdi işdən çıxanda anbardan ciblərimə buğda yığsaydım ailənin bir günlük çörəyi edərdi. Atamın böyük qardaşı da müharibədə vuruşurmuş, babam deyirdi ki, əgər anbardan bircə ovuc da taxıl götürsən gözlərini çıxardaram, o taxıl əsgərlər üçündü. Təkcə mənim babam belə fikirləşmirmiş, bütün kənd belə fikirləşirmiş. Taxıl xırmanda tay-tayıymış, amma heç bir kəs əlini atıb ordan bir ovuc götürməzdi ki, əsgərlərimizindi.**

**İndi də müharibə dövrüdü, Müdafiə Nazirliyinin polkovnikləri əsgərlərin 143 milyon manat pulunu oğurlayıb. Dəhşətdi!**

**Yazını bir hədislə tamamlamaq istəyirəm. Həzrət Əli xəlifə olanda evində iki şam saxlayırmış, biri özünün, biri dövlətin. Ailə yığışanda öz şamını yandırarmış, yanına dövlət işi üçün gələnlər olanda isə dövlət şamını.**

## "Ermənilər iddia edir ki, Azərbaycan Zəngəzura hücum edəcək"



**Erməni mediası və sosial şəbəkələrin ermən seqmentində hazırda ən aktual müzakirə odur ki, Azərbaycan Ermənistana hücum edib Zəngəzuru alacaq. Xüsusən Azərbaycan - Türkiyə birgə hərbi təlimi ermənilərdə böyük qıcıq yaradıb və bu təlimi "işğala hazırlıq" kimi qiymətləndirirlər.**

Məsələ ilə bağlı hərbi ekspert Ədalət Verdiyev Adalet.az-a açıqlamasında bildirdi ki, Azərbaycanın işğalda qalan 8 kəndini (Qazaxın 7, Naxçıvanın 1) azad etməmək üçün Ermənistan müxtəlif bəhanələr uydurmağa davam edir. Eyni zamanda Azərbaycandan ərazi idda etməsi də Azərbaycanı müəyyən addımlar atmağa vadar edə bilər. Buna baxmayaraq hazırda Azərbaycan- Ermənistan sərhəddində hətta atəşkəsin pozulmasına dair rəsmi məlumatlar mövcud deyil. Bəlkə də biz son illərin ən sabit və atəşkəsin pozulmadığı günlərini yaşayırıq. Amma Ermənistan mediasında guya Zəngəzur istiqamətində Azərbaycanın hansısa əməliyyatlar keçirəcəyi ilə bağlı yazılan məlumatlar əsasızdır. Həmin iddiaları əsaslandıracaq foto, video və təsdiqləyici fəaliyyətlər nə Azərbaycan , nə də Ermənistan mediasında yayılmayıb".

Ekspert Azərbaycanın təlim keçirməsi ilə bağlı erməni mediasının yaydığı xəbərlərə də toxunub. O bildirir ki, Azərbaycan digər ölkələr kimi təlim keçirmək hüququ var. Bu hüquqdan Ermənistan da istifadə edir. Azərbaycanın Türkiyə ilə birgə təlim keçirməsini xüsusilə şişirdən erməni mediasına bildirilməlidir ki, Azərbaycan istənilən ölkə ilə hərbi təlimlər keçirir. Bu o demək deyil ki, Azərbaycan hansısa əməliyyata və ya savaşa hazırlaşır . Təlimlər hər zaman olub və gələcəkdə də olacaq.

Ə. Verdiyev sonda qeyd edib ki, bu tip xəbərlərlə dünyanın diqqətini öz üzərinə çəkmək istəyən Ermənistan mediasının bu da növbəti oyunbazlığıdır.

Qeyd edək ki, ötən ay Prezident İlham Əliyevin AB Şurasının rəhbəri Şarl Mişellə telefon danışığında Azərbaycanın 8 kəndinin hələ də Ermənistanın işğalı altında olması barədə sözləri Ermənistanda da ciddi müzakirə edilir.

Bəzi siyasilər Azərbaycanın Ermənistan tərəfindən tanınan 86,6 min kv.km ərazisinə anklavların da daxil olduğunu bildirərək, 8 kəndin qaytarılmasına Ermənistan hökumətinin razılaşdığını iddia edir.

**Əntiqə Rəşid**

## Professor: "Televiziya bir vitrindi, amma təəssüf ki, bu gün..."



**"Televiziya və radio işçilərinin peşə gününün qeyd olunması əslində bir növ bu sahənin hesabatıdır və həm də müəyyən dərəcədə o teleradio verilişləri ilə bağlı problemlərə diqqət yetirilməsi üçün əsas yaradır"**

Bunu Adalet.az-a açıqlamasında professor Qulu Məhərrəmli deyib. Q.Məhərrəmli Azərbaycan Televiziyası və Radiosu Günündə bu sahədəki problemləri də sadalayıb: "Doxsan yeddi ilə əvvəl Azərbaycanda Bakı radiosu müntəzəm yayıma başlayıb. Əvvəl gün ərzində iki saat, həftədə 2-3 dəfə, daha sonra gündəlik yayıma keçilib. İlk dövrlərdə əhali radionu bir möcüzə kimi qarşılayırdı, çünki küçələrdə quraşdırılmış radio qurğular, ordan çıxan səs və verilən məlumatlar insanlara çox qəribə gəlirdi. Yəni bu qeyri-adi texnoloji hadisə hesab olunurdu. Amma Sovet hökuməti o texnoloji hadisədən çox məharətlə, çevik təbliğat maşını kimi istifadə elədi. Radio xüsusən İkinci Dünya Müharibəsində xalqın, kütlələrin səfərbər olmasında, qələbənin qazanılmasında çox ciddi rol oynadı. Ona görə də müharibədən sonra mayın 7-i hər il Radio Günü kimi qeyd olunmağa başladı. 1950-ci ilin ortalarında radio televiziyayla rəqabət şəklində fəaliyyət göstərdi. Amma sonra televiziya təbii ki, önə keçdi. Ağ-qara televiziya və 70-ci illərin əvvəllərindən rəngli televiziya sistemi işə düşdü. Getdikcə, həm radionun, həm televiziyanın ictimai həyata təsiri gücləndi. Ona görə də Sovet hökuməti idealoji sistemi əsasən Marsizm ideallarını bu kanallar vasitəsilə yaymaqla məşğul idi. Əlbəttə ki, bu təbliğatın fonunda həm də bir zərif xətt kimi televiziya və radio bu xalqın mədəniyyətinin təbliğinə, yeni mədəniyyətin yarannmasına ciddi şəkildə təsir edirdi. Daha sonra Azərbaycan musiqi mədəniyyətinin, ədəbi dilinin təbliğində bu vasitələr misilsiz rol oynayıb və bu onun tarixi xidmətləri siyahısındadır.

Televiziya ümumiyyətlə bir vitrindir, yəni cəmiyyət nə yaxşı varsa, bu vitrində əks elətirməlidir. Amma təəssüf ki, bu gün tamaşaçıları kütləvi şəkildə narazı salan problemlər içərisində artıq bəzi televiziya kanallarının, onların verilişlərinin milli dəyərlərə qarşı yönəlməsi, ümumiyyətlə mentalitetə uyğun olmayan mövzuların süni şəkildə gündəmə çıxarılması, bayağı verilişlərin kəmiyyət etibarıyla artması tamaşaçıları narazı salır. Aparıcılardan ciddi narazılıq var, peşəkarlığın aşağı düşməsi, problemlərin çoxalması, mötəbərliyin, auditoriyanın itməsi, bütün bunlar hamısı bu günki televiziyanın ciddi problemləridir. Amma bu problemləri əlbəttə ki, aradan qaldırmaq üçün iki ciddi problem aradan qalxmalıdır. Bunun birincisi odur ki, yüksək səviyyəli peşəkarlıq təmin olunmalıdır, ikincisi isə televiziyaların, xüsusən özəl televiziyaların maliyyə məsələləri ciddi şəkildə həll olunmalıdır. Bunun da həlli yolu sərbəst reklam bazarından keçir. Ona görə bu bazar tədricən inkişaf etməlidir, böyüməlidir. Sosial reklamların, çarxların xüsusi çəkisi artmalıdır. Televiziyalara tələblər paralel olaraq artmalıdır ki, o sözün həqiqi mənasında bu xalqın, onun mədəniyyətinin güzgüsünə çevrilə bilsin"-deyə Məhərrəmli bildirib.

**Vasif Əlihüseyn**

## Politoloq: "Rusiyanın Qarabağada sülhməramlı qüvvə saxlamasına..."

**"Rusiya sülhməramlılarına məxsus hərbi silah-sursat və texnikanın müəyyən hissəsi Qarabağdan çıxarılaraq Rusiyaya göndərilir. Bunu rotasiya adıyla çıxarırlar və geriyə qayıdacağı ilə bağlı hər hansı bir məlumat yoxdur".**

Bunu Adalet.az-a açıqlamasında politoloq Samir Hümbətov deyib. Politoloq daha sonra bunları əlavə edib: "Hər vəziyyətdə təbii ki, burda artıq Rusiya sülhməramlılarının mövcudluğuna ehtiyac qalmadığı görsənməkdədir. Çünki əgər Rusiya sülhməramlıları burdakı erməni əhaliylə azərbaycanlılar arasında gərinliyin aradan qaldırılması məsələsini nəzərdə tutursa, onlar artıq burda yoxdur. Düşünürəm ki, Rusiyanın Qarabağda sülhməramlı qüvvə saxlamasına da ehtiyac yoxdur. Yəqin ki, pərdəarxası danışıqlar var və onların əsasında hər şey aydın olacaq. Amma indi sülhməramlılar tamamilə ərazilərdən çıxacaqmı, yoxsa bir qismi qalacaqmı, çox güman ki, bu danışıqlar prosesinin nəticəsindən sonra məlum olacaq. Amma hər vəziyyətdə sülhməramlıların orda olmasına ehtiyac yoxdur. Yenə də dövlət bunu danışıqlar əsasında həyata keçirir və yəqin ki, bəzi razılaşmalar da var".

Qeyd edək ki, rusiyalı siyasətçi, Yaxın Şərq üzrə ekspert Stanislav Tarasov Rusiyanın Qarabağdan silah-sursatını çıxardığını bildirib.

**Vasif Əlihüseyn**

## Jozep Borrel: "Münaqişənin həlli iflasa uğradı"

**Avropa İttifaqı diplomatiyasının rəhbəri Jozep Borrel bəyan edib ki, Fələstin-İsrail münaqişəsinin həll olunması cəhdi iflasa uğradı.**

Borrelin sözlərinə görə, Yaxın Şərqdə İsrail-Fələstin münaqişəsinin danışıqlar yolu ilə barışığına, tərəflərin ambisiyaları mane olub. Vəziyyətin faciəvi hala gətirilməsi həm siyasi, həm də mənəvi iflasa gətirib çıxarıb. Hər iki münaqişə tərəfi bunun acısını çəkəcək.

**Rüstəm Hacıyev**

## Paşinyanın ölkədən çıxartmağa çalışdığı Rusiya niyə burada konsulluq açır?

**Xəbər verdiyimiz kimi 44 günlük müharibədə qalibiyyətimiz ermənipərəst dövlətlərin həzm edə bilmədiyi bir durum yaratdı. Xüsusən İran təntənəli şəkildə Qafanda konsulluq açdı. 13 iyun tarixində Türkiyə Cümhurbaşqanı Rəcəb Təyyub Ərdoğan Bakı səfərində Şuşada Türkiyənin konsulluğunun açılmasından danışandan Rusiya Qafanda konsulluq açmaq yönündə fəallığını artırdı.Yəni, Rusiya qərar qətiləşdirdi. ötən ildən Qafanda bərqərar olmuş farslar, rusların bu addımını alqışladılar.**

Maraqlı odur ki, Ermənistan Qafqazda Rusiyanı sıxışdırmağa çalışdıqca, onun Qafqaz siyasətinə qarşı qərarlar qəbul etdikcə Rusiya daha çox güzəştə getməyə, Paşinyanın kaprizlərini udmağa məcbur olur. Bütün siyasət adamları, beynəlxalq ictimaiyyət düşünürdü ki, Ermənistanın baş naziri Nikol Paşinyan KTMT -nin hərbi təlimlərindən imtina edərək, bu haqda sənədə imza atmadıqdan sonra Putin onu bərk cəzalandıracaq. Ən azından 2022-ci ilin yanvarında Qazaxıstanı cəzalandırdığı kimi, qoşunu yeridib, günahsız insanları kütləvi şəkildə öldürəcək, həbs edəcək. Qəribəsi də o oldu ki, Putin ehtimal edilən heç bir hərəkətə yol vermədi. Hətta Rusiyanın əbədi və əzəli düşməni ABŞ-ın 85 nəfərdən ibarət xüsusi desant dəstəsi və Fransanın 59 xüsusi təyinatlısı təlim məqsədi ilə Paşinyan tərəfindən Ermənistana dəvət ediləndə də hər kəs nəfəsini tutaraq yenə Rusiyanın cəza tədbirinin ləngiməyəcəyini gösləyirdi...



Necə deyərlər, sən saydığını say, gör Rusiya nə sayır... Rusiya hökuməti Ermənistanın Qafan şəhərində baş konsulluğunun açılması ilə bağlı razılaşmanı təsdiqləyib.Adalet.az xəbər verir ki, bu barədə sərəncamı Rusiya Federasiyasının Baş naziri Mixail Mişustin imzalayıb. Rusiyanın Qafandakı baş konsulluğu Ermənistanda sayca ikinci olacaq.

Eyni zamanda, Rusiya Federasiyası Xarici İşlər Nazirliyinə nota mübadiləsi aparmaq tapşırılıb. Zəruri hallarda nota layihəsinə əsas xarakterli olmayan dəyişikliklərin edilməsinə icazə verilir. Qeyd edək ki, oktyabrın sonunda Ermənistan xarici işlər naziri Ararat Mirzoyan bildirmişdi ki, Moskva "Qafanda konsulluq açmaq istəyini ifadə edib" və İrəvan bununla razılaşıb. Qafan Azərbaycanla həmsərhəd ərazidə, Zəngəzur bölgəsində (Sünik) yerləşir.

Qeyd edək ki, Rusiya Türkiyənin Qafqaza ayaq açmasına bütün dövrlərdə mane olduğu sirr deyil. Putinin Ərdoğanla arası nə qədər mehriban olsa da, bütün Rusiya liderləri kimi Putin də I Pyotrun "vəsiyyətnamə"sinə riayət edərək Qafqaza türklərin ayağının dəyməsinə razı deyil. Hətta bunu bütün üsullarla dayandırmağı özünə məqsəd qoyub. Qafanda konsulluq açmaq da eyni məqsədə xidmət etməkdir.

***P.S.** Gözləyək görək, Rusiya Ermənistana nə vaxta qədər güzəştə gedəcək...*

**Əntiqə Rəşid**

## Azərbaycana qarşı döyüşən, "revanşist" deputat qandallandı



**44 günlük müharibədən məğlub çıxan ermənilər səbəbkar olaraq özlərinin səhv strategiyasını deyil Ermənistan hakimiyyətini tənqid edir, söyürlər. Bu "təhqir və tənqid" prosesinə tək sadə vətəndaşlar deyil həm də yüksək səlahiyyət sahibi olmuş siyasətçilər də qoşulur.**

Onlardan biri də Ermənistan parlamentinin keçmiş deputatı Araqats Axoyandır. O, 44 günlük savaşdan sonra öz sosial şəbəkə hesabında belə bir paylaşım etmişdi:" Ermənistanda fəaliyyətdə olan hakimiyyətin nə şərəfi var, nə də ləyaqəti var. Təkcə başda lideri olmaqla Ermənistanın siyasi qüvvəsi yox, həm də bütün erməni xalqı lağa qoyuldu və qoyulur, çünki onun özünəhörmətini yerə vurdular".

Keçmiş erməni deputatın sözlərinə görə, hərbi əməliyyatlar zamanı Ermənistan hakimiyyəti 42-yə yaxın "döyüş xaçı" medalı ilə təltif edib, bununla da medalı dəyərsizləşdirib.

Adalet.az xəbər verir ki, 44 günlük müharibədə Ermənistan ordusunun sıralarına qatılaraq Azərbaycana qarşı döyüşən keçmiş deputat Axoyan baş nazirin ünvanına ağza alınmayacaq təhqirlərdən başqa , sosial şəbəkədə zorakılığa çağırışla bağlı status paylaşıb . Bu səbəbdən o Ermənistan daxili işlər nazirliyi tərəfindən saxlanılıb. Beləki, Axoyan noyabrın 6-da həbs edilib və ona qarşı ittiham irəli sürülüb. Həmin gün onun barəsində həbs-qətimkan tədbirinin tətbiqi ilə bağlı İrəvan şəhər birinci instansiya cinayət məhkəməsinə vəsatət verilib və məhkəmə tərəfindən bir ay müddətinə qismən təmin edilib.

Qeyd edək ki, "Çiçəklənən Ermənistan" partiyasın üzvü olan keçmiş deputat son 3 ildə Azərbaycana qarşı revanşist çağırışlar edib, erməniləri partizan dəstələri yaradaraq türkləri (azərbaycanlıları -red-Ə.R.) zərərsizləşdirməyə çağırıb.

**Əntiqə Rəşid**

# ""Zəngəzur" erməni sözüdür" - deyən Ayrapetyana tarixçidən mükəmməl cavab

**Ermənistanın tarix elmləri namizədi, Azərbaycanşünas alim, ekspert, 7-ci çağırış Milli Məclisin deputatı Tatev Ayrapetyan Azərbaycan tərəfinin tez-tez səsləndirdiyi "Bizim Zəngəzur " sözünə narahatçılığını ifadə edib.**

Adalet.az xəbər verir ki, o özünün Telegram kanalında bu haqda yazıb:"Azərbaycan tərəfi tarixi təhrif edir, Sünikə verdiyi Zəngəzur adını türk sözü kimi təqdim etməyə çalışır, reallıq tamam başqadır.

"Dzaqadzor / Dzaqedzor erməni yer adı iki yerli erməni sözündən ibarətdir: dzaq "quş, cücə" və dzor, yəni etimoloji cəhətdən "cücələr, quşlar dərəsi" (müq. Dzaqavank). Quş adlarından ibarət olan yer adlarının bu nümunəsinə Sünikdə, Qarabağda və digər erməni ərazilərində dəfələrlə rast gəlinir, müqəddəs Ağavnadzor, Tsitsernavank, Kakavaberd, Kakavaqbyur, Havatağ və s.

Buna görə də Dzaqedzor ( Zəngəzur) yer adının erməni mənşəli olması heç bir şübhə doğurmur. Zəngəzurun türkcə təfsiri tamamilə əsassızdır. Bu, Azərbaycanın Sünik bölgəsinə və suveren Ermənistanın digər ərazilərinə təcavüzlərinə bəraət qazandırmaq üçün cinayətkar və təhlükəli cəhd kimi qiymətləndirilməlidir"

Nə yaxşı ki, AMEA Tarix İnstitutunun böyük elmi işçisi Ramin Əlizadə hələ 2-3 ay əvvəl sanki Tatevin belə bir paylaşım edəcəyini bilib və Azərtac-a çox dolğun açıqlama, erməni aləmə mükəmməl cavab verib. Tarixçi alim diqqətə çatdırıb ki, etibarlı tarixi mənbələr nəinki Qarabağ, hətta indiki Ermənistan ərazisi, eləcə də İrəvan, Dərələyəz, Vedi, Ağbaba, Şörəyel, Pəmbək, Gərnibasar, Zəngibasar, Dərəçiçək və Zəngəzur torpaqları Azərbaycan türkünün ata yurdu olduğunu təsdiq edir: "Məşhur italyan coğrafiyaçısı Cakomo Qastaldinin 1559-1561-ci illərdə hazırladığı "Ön Asiya xəritəsində" (La Descrittione Della Prima Parte Dell' Asia - "Asiyanın ilk bölümünün təsviri") Göyçə gölü ətrafında erməni və ya hay adlı etnosdan bəhs edilmir. İlk dəfə bu xəritədə Göyçə gölünün və Zəngəzurun adı çəkilib.

Göyçə gölünün adı ermənilərin qondarma Sevan adı kimi yox, Azərbaycan türkcəsində olduğu kimi Göyçə gölü, Zəngəzur adı isə qədim mənbələrdə olduğu kimi Zaka (Saka, yəni "Sak türklərinin yurdu") şəklində qeyd olunub. Zəngəzur adı Sak türk boyunun adından qaynaqlanır və bir çox mənbələrdə bu ad Zanqi və ya Zəngi kimi çəkilib. 1571-ci ildə brabant coğrafiyaçısı Abraham Orteliusun Avropanı və Qərbi Asiyanı təsvir edən xəritəsində bütün Şərqi Anadolu və Azərbaycanın qərb torpaqları türk boylarının yurdu (Turcomani) adlandırılıb".

Ramin Əlizadə diqqətə çatdırıb ki, Qarabağın və Zəngəzurun yerli əhalisi olan azərbaycanlılar son bir əsrdə çar Rusiyasının bölgəyə köçürdüyü ermənilər tərəfindən soyqırımına məruz qalıb. Ermənilər burada yüzlərlə tarixi-mədəni abidəmizi məhv edib, yer-yurd adlarımızı qondarma adlarla əvəzləyiblər. Heç bir tarixi mənbədə mövcud olmayan Dağlıq Qarabağ termini ilk dəfə 1921-ci il iyulun 4-də Rusiya Kommunist Bolşeviklər Partiyasının Mərkəzi Komitəsinin Qafqaz Bürosunun iclasında ortaya atılıb. Qarabağın yerli əhalisi olan azərbaycanlılar arasında heç bir referendum keçirilmədən, hüquqi cəhətdən qeyri-qanuni olaraq 1923-cü il iyulun 7-də "Dağlıq Qarabağ Muxtar Vilayəti" yaradıldı.





Tarixçi qeyd edib ki, hələ keçən əsrin 20-ci illərində Sovet Rusiyasının fəal təzyiqi ilə Azərbaycanın tarixi torpaqları hissə-hissə bölünərək Ermənistana verildi.

Həmin dövrdə Zəngəzurun qərb hissəsi - Gorus, Qafan, Qarakilsə və Meğri rayonları Azərbaycan SSR-dən alınaraq Ermənistan SSRİ-nin tərkibinə qatıldı. XX əsrin əvvəllərində Zəngəzurda 40-a yaxın məscid və mədrəsə vardı. Sovet hökuməti qurulduğu andan onun ilk tədbirlərindən biri də müsəlman abidələrini məhv etmək oldu. Məscidlər tövlələrə və taxıl anbarlarına çevrildi. 1920-30-cu illərdə Zəngəzurda onlarla tarixi və mədəni abidə məhv edildi. Zəngəzurun Azərbaycan türkünə aid yüzlərlə yer-yurd adı dəyişdirildi. 1940-cı il martın 2-də Qarakilsə rayonunun adı ermənilər tərəfindən dəyişdirilərək qondarma Sisian adı kimi rəsmiləşdirildi. Azərbaycan türkünün tarixi vətən torpağı olan Zəngəzurun ardınca Göyçəyə, Dərələyəzə, Vediyə, Ağbabaya, Şörəyelə, Gərnibasara, Zəngibasara, Dərəçiçəyə və İrəvana qayıtmasına çox az qaldı", - deyə tarixçi alim Ramin Əlizadə vurğulayıb.

Qeyd edək ki, Zəngəzurun ermənilərə verilməsi Fransanın paytaxtı Parisdə nəşr olunan "L'?uvre" qəzetinin 1920-ci il 14 iyul tarixli nömrəsində də yer alıb. Bu tarixi faktı Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu feysbuk hesabında paylaşmışdı.

Qəzetin 1920-cil il 14 iyul buraxılışındakı "Ruslarla ermənilər arasında razılaşma" başlıqlı məqalədə Azərbaycana məxsus bu ərazinin adı da Sünik yox, məhz Zəngəzur kimi qeyd edilib:"1920-ci il iyulun 1-də Sovet Rusiyasının Ermənistanla əldə etdiyi razılaşmaya əsasən, Azərbaycanın Zəngəzur bölgəsi ermənilərə verilib, bununla razılaşmayan yerli əhali olan tatarlar (azərbaycanlılar) isə ermənilərlə döyüşməkdə davam edirlər",- deyə yazıda qeyd edilib.

***P.S.** Tatev Ayrapetyan erməniçiliyindən əl çəkib diqqətlə, həm tarixçilərin, həm də qədim mənbələrin baxış bucağından baxsa Zəngəzurun kimə aid olduğunu dəqiq öyrənər. Əslində Zəngəzurun kimə aid olduğunu o da. bütün dünya erməniləri də dəqiq bilir, yalnızca erməni xisləti və xəstəliyi gözlərini elə kor edib ki, öz uydurulmuş "tarixlərindən başqa heç nə görmür.*

**Əntiqə Rəşid**



**_Habil Əhmədov_**
**_Abşeron Rayon_**
**_Məhkəməsinin hakimi_**

# Zəfər Günü – Şanlı tariximiz

**Çoxəsrli tariximiz millətimizin şanlı döyüş yolu ilə zəngindir. Tarix boyu yadelli işğalçılara qarşı uzunmüddətli mübarizənin gedişində Azərbaycan xalqı öz dövlətçiliyini, öz ərazi birliyini yaradıb. Şübhəsiz ki, bu birlik lidersiz, sərkərdəsiz mümkün ola bilməzdi. Azərbaycan tarixində həm siyasi, həm də mədəni və elmi sahələrdə parlaq şəxsiyyətlər çox olmuşdur.**

Bu dahi şəxsiyyətlərin mənəvi və praktik irsi bəzən ölkəmiz və xalqımız üçün yolgöstərən ulduz olmuşdur. Belə şəxsiyyətlərdən biri olan Şah İsmayıl millətimizin şüurunda Azərbaycan torpaqlarını birləşdirmiş, mərkəzləşdirilmiş Azərbaycan dövlətini yaratmış dahi sərkərdədir. Lakin təəssüflər olsun ki, Şah İsmayıldan sonra vahid dövlətdə birləşən vətənimiz, torpaqlarımız zamanla işğala məruz qaldı, bölündü, itirildi. Yalnız 5 əsrdən sonra 21-ci əsrdə müstəqil Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz işğal altında olan torpaqlarımızı azad etdi, uzun müddətdən sonra ilk dəfə olaraq, itirmədik, əksinə torpaqlarımızı geri aldıq. Azərbaycanın 44 günlük Vətən müharibəsi zamanı möhtəşəm qələbə qazanması, uzun illərdən bəri Ermənistanın işğalı altında olan tarixi torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpa edilməsi, heç şübhəsiz, xalqımızın çoxəsrlik dövlətçilik tarixinin ən şərəfli səhifələrindən biridir.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuz illik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı. Ölkəmizin bu tarixi nailiyyəti təsadüfi xarakter daşımır və ötən müddət ərzində həm ordu quruculuğu sahəsində, həm diplomatiya cəbhəsində görülən işlərin, eyni zamanda beynəlxalq informasiya müstəvisində Azərbaycan reallıqlarının sistemli və məqsədyönlü şəkildə təbliğinin nəticəsidir. Azərbaycanın bu qürurverici və əzəmətli qələbəsinin müəllifi xalqımızın ulu öndəri Heydər Əliyevin layiqli davamçısı ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevdir.

Müasir texnologiyalara yiyələnən, son nəsil silahlara sahib olan Azərbaycan Ordusu tarixi, əzəli torpaqlarımızı işğaldan azad etmək uğrunda beynəlxalq hüquq çərçivəsində legitim döyüşlər apardı və Böyük Zəfərimizi xalqımızın tarixinə həkk etdi. Azərbaycan sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsini hərbi-siyasi yolla 44 günə bitirdi. Bu əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi. Dövlətçiliyimizin ən şərəfli səhifələrini yazan bu Zəfərlə Azərbaycan faşist ideologiyasından bəhrələnən Ermənistanın 30 illik işğalına son qoydu.

Ağdamı, Kəlbəcəri və Laçını işğaldan azad etdi və dünyada qalib xalq, məğlubedilməz dövlət kimi özünü yenidən təsdiqlədi.

2020-ci ilin 8 Noyabr tarixi - doğma Qarabağın, onun dilbər guşəsi olan Şuşa şəhərinin azad edilməsi və Vətən müharibəsinin tarixi qələbə ilə başa çatması hər bir Azərbaycan vətəndaşının qəlbində böyük qürur və iftixar hissi yaratmışdır. Ulu Öndərin vəsiyyətini layiqincə yerinə yetirən Ali Baş Komandanımız Şuşanın azad olunması xəbərini müqəddəs məkanımız olan Şəhidlər xiyabanında xalqa müraciətində bəyan etdi.

Prezidentin həmin müraciəti zamanı dediyi sözlər illərin həsrətinin bitdiyi an, Zəfər tariximizə vurulan möhür oldu. Prezident İlham Əliyev xalqa müraciətində demişdir:

"Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun "dünya azərbaycanlıları!"

**Qürurverici haldır ki, bu gün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında müstəqil dövlətimiz özünün qüdrətini bütün dünyaya nümayiş etdirir və əminliklə demək olar ki, gələcək nəsillər də bu şanlı tariximizlə fəxr edəcəkdir.**

# Hüquqşünas Baş nazirə "satqın" dedi, haqqında cinayət işi açıldı

**Ermənistanın Baş naziri Nikol Paşinyanın dövlətidarəetməsinə qarşı istefalar, narazılıqlar artmaqdadır.**



Hüquq müdafiəçisi Avetik İşxanyan da şikayətçilər sırasına qatılıb. O, dünən axşam öz Facebook səhifəsində paylaşım edib:

"Nəhayət!

Bir az əvvəl müstəntiq mənə zəng edərək bildirdi ki, mənə qarşı Cinayət Məcəlləsinin 330-cu maddəsi (zorakılığa çağırış) ilə ittiham irəli sürülüb. Sentyabrın 19-da yazdığım status ittihamın əsası olub. Statusa qətiyyən peşman deyiləm, hətta onun olduqca yumşaq olduğunu düşünürəm.

Satqınlara qarşı çox daha qəti və sərt danışmaq, hərəkət etmək lazımdır Yazıya qətiyyən peşman deyiləm, hətta bunu daha yumşaq hesab edirlər. Biz satqınlara qarşı çox daha qəti və sərt danışıb, hərəkət etməliyik.

Bu gün ittiham olunmayıb, əksinə, adaptasiya olub vətən itkisi ilə barışmısınızsa sizə ayıb olsun. Stalin dövründə iki babamı, bir nənəmi güllələdilər, Brejnev dövründə KQB atamı aparıb dindirdilər.

Nəhayət, müstəqil adlanan, əslində yazıq Ermənistanda dövlət başçısının göstərişi ilə mənə də ittiham irəli sürülüb".

Qeyd edək ki, hüquq müdafiəçisi Avetik İşxanyan hər zaman Nikol hakimiyyətinə qarşı olub.

O bu ilin yazında belə bir müsahibə vermişdi "Beləliklə, Ermənistan sözdə baş nazir, diktator və xəyanətkar Nikol Paşinyanın şəxsində ABŞ Prezidenti Cozef Baydenin təşəbbüsü ilə onlayn rejimdə keçirilən ikinci demokratiya sammitinə dəvət olunub. Buradan belə bir nəticə hasil olur ki, seçkiləri saxtalaşdıran, məhkəmələri məhv edən siyasi təqiblər həyata keçirən, qətllər də daxil olmaqla öz tərəfdarlarının cinayətlərini örtbasdır edən diktator baş nazirin hökuməti "demokratik" hesab olunur.

Mən hələ bu baş nazirin xəyanətləri haqqında danışmıram. Faktiki olaraq, demokratiyanın carçısı sayılan ABŞ yuxarıda sadalanan özbaşınalıqları müdafiə edir və onları demokratik dəyərlər sayır. Lakin əsl həqiqətdə, bu dəvətlə demokratiya anlayışına kölgə salınır.

**Bu səbəbdən sizin sammitinizə və demokratiyanıza tüpürmək istəyirəm".**

**Əntiqə Rəşid**

# _Xocalı sakini:_ "Ermənilərin gözümə vurduğu dərmana görə kor olmuşam..."

**"Madat Babayanı və digər Xocalı terrorçularının hamısını biz Əsgəranda əsirlikdə olanda ora gəliblər. Amma çoxunun adını unutmuşam, onda hamısı cavan idi və indi aradan otuz ildən çox vaxt keçib. Vaqif Xaçatryanın adını tez-tez çəkirdilər və həm də azərbaycanlı adı olduğu üçün yadımda qalırdı"**



Bunu Adalet.az-a açıqlamasında Xocalı faciəsi zamanı əsir düşən, gitara ifaçısı Valeh Hüseynov deyib. V.Hüseynov ermənilərin ona verdiyi işgəncələrdən sonra gözlərinin kor olduğunu bildirib:

"Qariq, Manvel adlı ermənilər var idi və onların adını xatırlayıram. Xocalıda itkin düşən insanlarımız çoxdur. İki əmim qızı ailəsiylə birlikdə itkin düşüb. Gözümün biri tam kor oldu, o biri gözüm isə 10 faiz görür. Ona görə Xocalıya getməyə tələsirəm ki, heç olmasa o yerləri görüm. Bilirəm ki, kor olacam. Erməni əsirliyində olanda iki dəfə gözlərimə sprey vurdular. Hər dəfə onu vuranda bir neçə saat özümə gələ bilmirdim. Sonra gözlərim yaşarırdı, amma problemi hiss etmirdim. Son 10 ildir ki, gözlərimdəki xəstəliklə mübarizə aparıram. Gözlərimdən və ürəyimdən ağır əməliyyatlar keçirdim, amma heç bir xeyri olmadı. Təki millətimiz var olsun, o torpaqlarımız işğaldan azad edilib və əsas məsələ budur.

Desələr ki, "Xocalıya qayıdırsınız", bu mənim ömrümün ən xoş xəbəri olar. Ora bizim dədə-baba yurdumuz, doğulduğumuz yerdir. Bu boyda şəhidlərimiz olub. Ali Baş Komandanın, Ordumuzun, şəhid və qazilərimizin çəkdiyi əziyyətlərin sayəsində o yerlər azad edilib".

Qeyd edək ki, Xocalı faciəsi zamanı Valeh Hüseynovun həyat yoldaşı da ermənilər tərəfindən güllələnib.

**Vasif Əlihüseyn**

# Müharibə başlayandan BMT-nin 79 əməkdaşı ölüb



**BMT-nin Qəzza zolağındakı 48 obyekti müharibə başlayandan bəri müxtəlif növ zərərlərə məruz qalıb.**

Adalet.az bildirir ki, bu barədə dünya təşkilatının Yaxın Şərqdəki Fələstinli Qaçqınlara Yardım Agentliyi (UNRWA) bildirib. Qeyd olunub ki, 1,5 milyon qəzzalı köçkünün təxminən yarısı agentliyin idarə etdiyi obyektlərdə yerləşdirilib.

"İsrail rəhbərliyi təxliyə əmrini verməzdən öncə, 12 oktyabr tarixindəki vəziyyətə görə, şimalda və Qəzza bölgəsində 57 məktəbdə təxminən 160 min insan olub. UNRWA müvəqqəti məcburi köçkünlərə yardım və ya müdafiə təmin etmək üçün bu sığınacaqlara daxil ola bilmir və buna görə də onların ehtiyacları və şərtləri barədə məlumatı yoxdur", - diqqətə çatdırılıb. Agentliyin məlumatına görə, son iki gündə UNRWA-nın beş əməkdaşı ölüb. Oktyabrın 7-dən bu yana ümumilikdə 79 əməkdaş həlak olub, ən azı 24 nəfər yaralanıb.

**"Qəzzalıların əksəriyyəti kimi bizim əməkdaşlarımız da qohumlarını, dostlarını, qonşularını itirib, ailələri ilə birlikdə didərgin düşüblər. Bununla belə, onlar humanitar yardım göstərmək üçün yorulmadan çalışmaqda davam edirlər", - açıqlamada nəql edilib.**

## _Donuz qanıyla yaşlanmanın qarşısını almaq mümkün olacaq_

**Tədqiqatçılar araşdırmalar nəticəsində donuz qanında olan birləşmələrdən hazırlanmış terapevtik maddənin siçovullarda yaşlanmanın qarşısını ala biləcəyini irəli sürüblər.**

Adalet.az xəbər verir ki, "GeroScience" elmi jurnalında bu yaxınlarda dərc edilən yeni araşdırmaya görə cavan donuzun qanından istifadə edilərək hazırlanmış E5 adlı yaşlanma əleyhinə terapevtik maddə qocalmış siçovullara vurulub. "Independent Turkish"in məlumatına görə, Los Ancelesdəki Kaliforniya Universitetindən (UCLA) olan tədqiqatçılar, mürəkkəb nanohissəciklərdən və donuzlardan əldə edilən gənc plazmadan ibarət E5-in siçovulların bioloji saatlarını orta hesabla 70 faiz tərsinə çevirə biləcəyini bildiriblər. Alimlər iddia edirlər ki, əgər bu nəticələr insanlara ötürülə bilsə, 80 yaşlı insan 26 yaşına qayıda bilər. Tədqiqatda elm adamları müxtəlif siçovul toxumalarına tətbiq edilən donuz qanı müalicəsinin qanın, ürəyin və qaraciyərin bioloji yaşını da dəyişdirdiyini aşkar ediblər.

**Vasif Əlihüseyn**

# _Xalq şairi:_ "Ailələrin çoxu ona görə dağılır ki, kişilər..."

**"Bu sualı Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə verin.**

**Milli Məclisdə bununla bağlı komitə var və onlar desin ki, Azərbaycanda niyə bu qədər ailələr dağılır. Qanunların boşluğundanmı, sosial problemlərdənmi, adamların afiristliyindənmi irəli gəlir?! Aidiyyatı qurumlar bu məsələlərə cavab versin"**



Bunu Adalet.az-a açıqlamasında Xalq şairi Vahid Əziz deyib. Xalq şairi ailələrdəki problemləri də sadalayıb:

"Palatka toylarında evlənən az boşanardı, amma indi səadət toylarında evlənirlər və boşanmaların da sayı artıb. Burda telekanalların da payı var, niyə o kanallar ailə məsələlərini, boşanmanı ictimailəşdirirlər? Gərək bunlar təbliğ olunmasın.

Mənim ulu babam var idi, onun doqquz oğlu, doqquz gəlini və doqquz iti olub. Onlar Dərələyəz mahalında yaşayıblar. Hamısı ailə qurub bir həyətdə yaşayıblar. Amma heç vaxt bir-biriləri ilə söz-söhbətləri olmayıb. Bir tərbiyə, qayda-qanun olub. Doqquz oğlunun heç biri isə evlənənə qədər arvadlarının üzünü görməyiblər. Hamısını kişi gedib bəyənib və gətirib onlara arvad eləyib. Bu olub 150-200 il bundan qabaq. Amma indi hər şey dəyişib.

Televiziya kanalları bu məsələləri təbliğ edirlərsə, onda bunlar həm də yetimçiliyi təbliğ edirlər. Atası-anası ola-ola uşaq yetim qalır. Uşaq da böyük tərbiyəsi görməyəndə tərbiyəsiz bir adam olur. Televiziya kanalları bunu edirlərsə, onda "5-ci kolon"a xidmət edirlər. Cəmiyyətdə yetimlərin böyüməsi çox xətalıdır. Rusiya və Ukraynada artıq yarım milyona qədər yetim uşaq var. Onların axırı nə olacaq?! Əgər bir ölkədə yarım milyon insan yetimdirsə, onlar böyüyəndən sonra doxsan faizi potensial cinayətkar olacaq. Bu isə cəmiyyətin məhvi deməkdir. Müharibələrin ən böyük fəsadı odur ki, ölkədə yetimlər böyüyür.

İdologiya ilə məşğul olmaq lazımdır. Amma elə özümüz deyib-özümüz eşidirik. Bizim qanunlarımıza görə əgər ərlə arvad boşanırsa, bütün əmlakları iki hissəyə bölünür. Uşaqlar isə anasıyla qalır. Bu uşaqlar isə ərlə arvadın birlikdə qazandıqları canlı əmlakdır. Əgər ərlə arvadın bütün əmlakları bölünürsə, bəs onda uşaqların payı hanı?!

Ailələrin çoxu ona görə dağılır ki, kişilər yeyib-içib gedib özünə qıraqda məşuqə tapır. Uşaqları isə arvadın üstünə atır. Amma Türkiyədə qadın ərinin məşuqə saxladığını sübut etsə, ərini cəzalandırırlar və bütün əmlak qadının adına keçir. Azərbaycanda ailə və uşaq problemləriylə bağlı qanunlarda böyük boşluqlar var və heç kim də bununla məşğul olmur. Azərbaycanda qələbə çaldıq, beynəlxalq siyasətimiz və xarici siyasətimiz uğurludur. Amma Azərbaycan üçün çox vacib olan əxlaqın kökünü formalaşdıran ideologiyamız zəifdir"-deyə Vahid Əziz bildirib.

**Vasif Əlihüseyn**

# Biraz müştəri yığan kimi niyə zayını çıxarırsınız?

**Elmlərdə yaxşı bir dönər yeri açmışdılar. Birini 3 manata verirdilər, tələbələrə isə ayran da üstündə. 1 ay idi acan kimi qaçırdım bu dönərçiyə.**

**Bugün də gəlmişəm.**

**- İki dənə basdırma dönər.**

**- Basdırma yok.**

**- Var idi axı?!**

**- Biz yeni götürdük burayı. Basdırma vermiyoruz. Sade döner 2,50 qəpik, ayran da bizden.**

**- Hmm. Yaxşı, iki dənə sadə.**

**Dönəri hazırladılar. İşlədən adam idi mənlə danışan. Pul haqq-hesabını özü edir. Acı bibərləri gördüm, dedim, paketləmə, burada yeyəcəm.**

**Dönər hazır oldu. Yeri işlədən adam dönəri, sonra isə ayranın ağzını açıb uzatdı mənə. Dedim, nə gözəl, halaldı.**

**Bura qədər hər şey əla gedirdi. Dönəri yedim, amma dönər o deyil. Əti az, sosu çox, adamın ağzı-burnu mayonez, sos olur.**

**Nə isə, güləşə-güləşə, 17 dənə salfetka istifadə edə-edə dönəri bibərlə, ayranla qarnıma təpdim. Pul vermişəm də. Sağollaşanda dedim, amma dönəriniz o deyil.**

**Sözümün canı nədir?**

**Bir obyekt açılır, əvvəlcə qəşəng tutuzdurur, sonra isə nə baş verirsə, ya başqa adam götürür oranı, ya da xidmətin zayı çıxır. 50 qəpik ucuz, ayranı hədiyyə edib göz yamayırlar. Soxurlar camaata. Soxmurlar e, itələyirlər. Niyə də?**

**Çox adam da ya ağzının dadının fərqində deyil, təki təpməyə bir şey olsun, ya da nə bilim.**

**İndi biri bu boyda söhbətin üstünə gəlib azacaq ki, dönər ziyanlı qidadır, yeməyin.**

**Emin**

## _Zakir Fəxri: "Televiziyaların verdiyi bu verilişlər insanları cinayətə..."_



**"Mən Azərbaycan Televiziyalarında əsasən dövlət kanallarına və xəbərləri proqramına baxıram. Qalan heç bir kanala baxmıram. Yəni televiziyalarımız biabırçı haldadır. Bir sözlə, küçəni, üç-dörd nəfər parkda qeybət edən arvadı televiziyaya aparıblar"**

Bunu Adalet.az-a açıqlamasında şair Zakir Fəxri deyib. Z.Fəxri bu təbliğatı aparmağın özünün cinayət olduğunu bildirib:

"Danışıq mədəniyyətləri yoxdur, ağızlarına gələni danışırlar. Bu bir təbliğatdır, ekran güzgüdür. İndi mürəkkəb, təhsilin zəif olan, kitabın oxunmayan bir dövründə insanlarımız da bu verilişlərə baxır. Camaat yüngül şeylərə çox meyillidir. O boyda nəhəng, xanəndələr qıraqda qalıb, bunlar kiminsə brilliant üzük almasından danışırlar. Toyu telekanallara gətiriblər. Mənəviyyatdan, insanı düşündürən bir şeydən, dünyanın dağılıb getməyindən, bu boyda Qarabağın möhtəşəm qələbəsindən danışan yoxdur. Bilmirəm başları çıxmır, yoxsa marağında deyillər?

Bütün dünya tökülüb Qəzzanı dağıdır. Hər şey sabah hamının başına gələ bilər. Bunun üçün ayıq-sayıq olmaq lazımdır. Vətənpərvərlik adlı şey sıfır olub gedib. Televiziyaların verdiyi bu verilişlər insanları cinayətə yönəldən şeylərdi.

Qabaq senzuralar var idi, abrısız şeyləri ekranda danışmağa qoymurdular. Bu gün efirlərdə gülməli-gülməli şeylərdən danışırlar. Yalandan səhnə qururlar ki, filankəs tapıldı, o burdan çıxdı. Belə şeyləri mətbuata gətirməzlər, ailə içinin sirri ailədə qalar"-deyə Zakir Fəxri bildirib.

## _Psixoloq qadın qətllərindən danışdı..._

**"Ümumiyyətlə, sosial şəbəkələrin qadın qətlləriylə bağlı hadisələri yayması, bundan dolayı hələ də ölkəmizin bəzi bölgələrində namus üstündə hansısa hadisə törətmək və ya bəzi mental dəyərləri göz önündə tutub bu hərəkəti etməyin əleyhinəyik. Bu hadisələr çox qınanılası bir hadisədir"**

Bunu Adalet.az-a açıqlamasında psixoloq Zeynəb Əyyubova qadın qətlləriylə bağlı danışarkən deyib. Psixoloq bu hadisələrin qarşının alınmasının vacibliyini vurğulayıb:

"Bu gün Azərbaycan inkişaf etdiyi, irəli getdiyi bir tarixdə hələ də belə şeylərə görə qətllərin olması artıq qınanılmalıdır. Bu hadisələrin qarşısının alınması üçün kompleks təbliğatlar aparılmalıdır. Dövlət qurumları hərəkətə keçməlidir, psixoloqların rayonlarda seminarları təşkil olunmalıdır.

Hətta bəzi tədbirlərə insanların icbari şəkildə dəvət olunması və bu tədbirlərdə maariflənmə xarakteri olaraq insanların şüuraltısına düzgün dəyərləri yerləşdirmək lazımdır.

Oğlan uşaqları böyüyərkən ona diqqət yetirmək lazımdır ki, onları qəribə psixologiyada böyüdüb, kişi, qardaş sözü kimi düşüncələrlə uçuruma aparmaq lazım deyil. Düzdü, qardaş, ata böyükdü, amma heç kəs heç bir səhvə görə heç bir insanın həyatına ziyan vura bilməz"-deyə psixoloq bildirib.

Qeyd edək ki, bu gün Masallıda ata qızını qətlə yetirib. Hadisənin ailə münaqişəsi zəminində baş verdiyi bildirilir".

**Vasif Əlihüseyn**

# Tacirənin əzizlərini güllələmiş qatil Madat Babayan – Bəlkə onun cəzasını Tacirə özü versin...?

**Təxminən 20 il əvvəl Xocalı sakini Tacirə Hüseynovadan o dəhşətli gecənin xatirələri ilə bağlı müsahibə alırdım. O qanlı fevralın şahidlərindən olan Tacirə xanım ermənilərin namərdliyini, çaqqal xislətli olduğundan yana-yana danışmışdı:"Həyat yoldaşım Rəşid Hüseynov 26 fevral 1992-ci ildə Xocalı soyqırımı zamanı şəhid olub. Rəşidin, atasının və anasının meyidləri 2 mart 1992-ci ildə Ağdamdan gətirilərək Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olunub. Amma elə ailələr var idi ki, bütün üzvləri şəhid oldu, qapıları bağlı qaldı. Bizim ailə də həmin ailələrdən biri idi. Bizim ailədən atam, qardaşım, qardaşımın körpə qızı, ailəsi - həyat yoldaşı, qayınatam, qayınanam, əmimin 16 yaşlı oğlu itkin düşdü. Əmim Zaman və oğlu əsir düşüb. Əsirlikdə oğlu görüb ki, atasını ermənilər döyürlər, amma heç nə deyə bilməyib. Hardansa biliblər ki, bu kişinin oğludur və onu ermənilər əsirlərin arasında harasa aparıblar. Bu gün də 16 yaşlı əmim oğlundan xəbər yoxdur. Əmim əsirlikdən azad ediləndən sonra oğlunun yoxluğuna dözə bilməyib dünyasını dəyişdi. Qardaşım Tahirə arxadan dörd güllə vurublar".**







Bayaq xəbərlərdən oxudum ki, 1992-ci ilin fevral ayında Xocalı faciəsinin törədilməsində iştirakçı olmuş, Madat Arakel oğlu Babayan həbs edilib. Erməni qatil Madat Babayan Xocalı sakinlərini pusquya salaraq qoca, qadın, uşaq demədən güllələbaran etdiklərini, daha sonra meyidlərin üzərində təhqiredici hərəkətlər törətdiklərini və 3 yük avtomobil mülki sakinin nəşini ...

Onlar Əsgəran rayonuna tərəf qaçmaq istəyən, əksəriyyəti qadın, uşaq və qocalar olmuş 150 nəfərdən çox əliyalın şəxs idi. Qatil Babayan o çarəsiz halda öldürülən insanları Qarqarçayın sol sahilində qazılan yerə tökərək basdırdıqlarını etiraf edib.

Bundan əlavə, Madat Babayan əsir götürülmüş və qanunsuz olaraq Qozlukörpü kənd məktəbində saxlanılmış, amansız rəftar və işgəncələr nəticəsində ölmüş azərbaycanlıların meyitlərini Qozlukörpü kəndində şəxsən dəfn etdiyi yerləri də göstərib. Təklif edirəm, Tacirə xanım bu qati tərəfindən mühasirəyə salınaraq güllələnən atası Qaçayın, qardaşı Tahirin, qardaşı qızı körpə Lalənin, Tahirin həyat yoldaşı Zərifənin, Tacirənin həyat yoldaşı Hüseynov Rəşidin, Rəşidin ata-anasının cəzasını özü öz əlləri ilə versin...

Özümü bir anlıq Tacirə xanımın yerinə qoydum! Allah, bu ermənilərə hansı cəzanı verirsənsə, özün ver! Bizim əllərimizi bu murdarların qanına batırma.... Doğrudanda bir anlıq Tacirə olmaq adamın içini, ürəyini cızıltı ilə yandırır, tüstüsünü təpəsindən çıxarır...

Bu insanlığa sığmayan erməni cinayətlərini dünyaya elə ermənilərin öz dilindən yayılmalır.

***P.S.* Kaş ki, qanunların elə bir tərəfi də olaydı ki, Madat Babayanın əzizlərini də Tacirə elə Babayanın gözü qarşısında güllələyə biləydi. 31 ildir sevdiklərinin acısını yaşayıb, öz həyatını yaşayan bilməyən bütün Xocalı sakinləri cəlladlarını öz əlləri ilə cəzaladıraydı... kaş ki...**

**Əntiqə Rəşid**

## _Obama: Qəzzaya görə hamımız günahkarıq_




**Fələstin-İsrail münaqişəsinə hər kəs bu və ya digər dərəcədə şərikdir.**

Adalet.az xəbər verir ki, bu sözləri ABŞ-ın keçmiş prezidenti Barak Obama "Pod Save America" nəşrinə müsahibəsində deyib. "HƏMAS-ın etdikləri dəhşətli idi və bunun üçün heç bir bəhanə yoxdur. İşğalın və fələstinlilərin başına gələnlərin dözülməz olduğu da doğrudur", - deyə Obama bildirib. O, mülki şəxslərin fələstinli yaraqlıların hücumu ilə heç bir əlaqəsinin olmadığını vurğulayıb. Sabiq prezident əlavə edib ki, Yaxın Şərqdəki münaqişənin həlli üçün bütün həqiqət tanınmalıdır: "Heç kimin əli təmiz deyil, hamımız bu və ya digər şəkildə şərikik".

## _Professor "artsaxı düşməndən azad edək" deyəndə qızdırmalı olub_



**Ermənistan bütünlüklə "artsaxın ləğvi ilə barışsa da deyəsən hələki, iranşünas alim Vardan Voskanyan bu itki ilə barışmaq fikrində deyil. Hər gün özünün sosial şəbəkə profilində qızdırmalı xəstələr kimi sayıqlamalar paylaşır.**

Adalet.az xəbər verir ki, o, ötən günkü paylaşımında yazıb ki, Ermənistanın hər qarışından əcdadlarımızın yaratdığı, onların ruhu, qanı, təri ilə bəslənən zəngin sivilizasiya gəlir: " Məhz onların sayəsində Ermənistanın hər bir parçası özü qədər qədim sivilizasiyaya məxsus olduğu məlumdur. Bura elə bir ərazidir ki, onu barbar ünsürlərə vermək olmaz".

Axşam satlarında isə başqa bir paylaşımında yenidən qızdırma ona üstün gəlir və yenidən sərsəmləyir: Əslində, bu, bizim vəzifəmizi dəyişmir: "artsax"ı yenidən düşmən işğalından "azad etməyə" hazırlaşmalıyıq. Bunun üçün plan və yol xəritəsini formalaşdırsaq, ordumuz Xankəndi yenidən hərbi paradla keçəcək.

O vaxta qədər düşmən ümummilli rüsvayçılığımızdan ləzzət almağa davam edəcək".

Qeyd edək ki, ermənilərin "ziyalı"sı, professoru Vardan Voskanyan hər bir çıxış və açıqlamasında iddia edirdi ki, münaqişə və müharibə Qafqazda əbədi qalacaq:" Ermənistan ictimaiyyəti bir sadə həqiqəti aydın şəkildə dərk etməlidir ki, biz bunu nə qədər istəsək də, regionda sülh dövrü olmayacaq".

**Biz də bu yerdə V. Voskanyanla razıyıq. Nə qədər ki, işğal, terror, dinc insanları kütləvi şəkildə məhv etmək Ermənistanın dövlət xətti olacaq Qafqaz heç vaxt münaqişəsiz olmayacaq.**

**Əntiqə Rəşid**

# Tariximizin ən parlaq səhifəsi...

**Respublikamızın Prezidenti cənab İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz Qələbənin əbədiləşdirilməsi məqsədilə noyabrın 8-i ölkəmizdə Zəfər Günü elan edilmişdir. Artıq həmin Zəfərdən üç ilə yaxın bir müddət ötür. Azərbaycan bu Zəfərə siyasi müstəqilliyini möhkəmlətməklə, iqtisadi müstəqilliyini qorumaqla hazırlaşdı. İqtisadi gücünü daim artırmağa çalışdı ki, 20 faiz torpaqlarımız işğaldan tezliklə qurtarılsın, ölkəmizin dövlət sərhədlərinin bərpası məsələsi çox da uzaq nəsillərə miras qalmasın. Ulu öndər Heydər Əliyev siyasətinin də prioriteti bu idi, onun siyasi varisi Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli siyasətin də başlıca prinsipi bundan ibarət idi.**

Təbii ki, əsas diqqət ordu quruculuğu istiqamətində olmalıydı və oldu. Azərbaycan dövlət büdcəsini hər il formalaşdırarkən, böyük həcmdə vəsait məhz hərbi sahəyə ayrıldı. Bu düzgün siyasətin nəticəsində Milli Ordunun şəxsi heyətinin peşəkarlığı artırıldı; Azərbaycan silah istehsal edən müxtəlif ölkələrdən çeşidli müasir hərbi texnika aldı; üstəlik, öz hərbi sənayesini də qurdu, beləliklə, ordusunu torpaqları işğaldan qurtara bilən möhkəm bir güc halına gətirdi. Azərbaycan bu müqəddəs vəzifə üçün təkcə iqtisadiyyata, orduya diqqət ayırmadı, həm də diplomatik müstəvidə fəal çalışdı. Ölkəmizin beynəlxalq təşkilatlarla əməkdaşlığı münaqişənin həlli üçün zəmin yaratdı. Azərbaycan münaqişə boyunca bütün aparıcı beynəlxalq qurumlarla əməkdaşlıq etdi, onların yüksək tribunalarından haqq səsini ucaltdı və münaqişənin həlli üçün hüquqi bazanı hazırladı.

BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar qətnamələr qəbul etdi. Avropa İttifaqı ilə paraflanmış sənəddə sərhədlərimizin toxunulmazlığına, suverenliyimizə və ölkəmizin ərazi bütövlüyünə dəstək göstərildi. Bütün bunlar münaqişənin həlli üçün hüquqi əsaslar idi. Azərbaycan Ordusunun döyüş taktikası dünya hərb tarixində bir yenilik hesab olunur və bütün dünyanın hərbi strateqləri tərəfindən araşdırılır. Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusu öz hərbi qüdrətini 44 gün ərzində kürreyi-ərzə sübut elədi,düşmən üzərində parlaq bir qələbə qazandı. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində rəşadətli Azərbaycan Ordusu tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsi, o cümlədən Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Bu da ordumuzun gücünü, özünəməxsus bacarıq və səriştəsini, yenilməzliyini və cəsurluğunu simvolizə etdi. 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsidir. Xalqımız öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini və əzmkarlığını nümayiş etdirdi, alnımızdakı 30 illik ləkəni təmizlədi. Müharibədə qazandığı qələbə ilə öz gücünü bütün dünyaya sübut edən Azərbaycan artıq dünyada böyük nüfuz və söz sahibidir..

Bu gün Azərbaycanın regionda yaratdığı yeni reallıqlar beynəlxalq birlik tərəfindən qəbul olunur və dəstəklənir. Azərbaycanın qazandığı ədalətli qələbənin bölgədə yaratdığı reallıq regionda davamlı sülhün, təhlükəsizliyin təmin olunmasına xidmət edir və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır. Bütün bu uğurların başında dayanan cənab İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə də böyük strateqdir.O informasiya müharibəsində Azərbaycanın haqq səsini gecə-gündüz dünyaya çatdırdı, bütün təzyiqlərə sinə gərdi, xalqımızın mübarizlik simvolu oldu. Onun 17 ildə həyata keçirdiyi uğurlu siyasət Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüzün birmənalı olaraq təsdiq edildi.Məhz bu böyük siyasi düşüncəyə sahib olan insanın şücaəti, yorulmazlığı, davamlı mübarizəsi mümkünsüz görünən məsələləri mümkün etdi.Biz həm də qüdrətli ordumuz və Ali Baş Komandanımızın gücü ilə bəşəriyyətə haqqı, ədaləti böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin - Azərbaycan dövlətinin var olduğunu sübut etdik.




Bu ədaləti 44 gün ərzində yazan Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları, bütün Türkiyə xalqı bir yumruq kimi birləşərək təkcə Ermənistanın yox, bütövlükdə haqsızlığın üzərinə yürüdü və sübut etdi ki, haqqın ədalətin, ərazi bütövlüyümüzün bərpası uğurunda vuruşuruq. Əsas gücümüz Şuşanın işğaldan azad edilməsi zamanı ortaya çıxdı. Tarixi Qələbənin zirvəsi isə 8 noyabr idi. Şuşanın azadlıq tarixi! Şuşanın azadlığı həm də müharibənin sonunu gətirdi və Zəfərin qəti tarixini müəyyənləşdirdi. Şuşanın azad olunması düşmən üçün kapitulyasiya, Azərbaycan üçün yekun Qələbə idi. Üçtərəfli 10 noyabr Bəyanatı imzalandı, bununla da münaqişənin hərbi fazası başa çatdı, proses sülh danışıqları mərhələsinə keçdi.

Bu Bəyanatın müddəalarına uyğun olaraq 20 noyabrda Ağdam, 25 noyabrda Kəlbəcər, 1 dekabrda Laçın şəhid vermədən düşməndən döyüşsüz geri alındı. Nəhayət, 2022-ci ilin avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi Qələbəmizin məntiqi davamı oldu. Dünya məhz onda Azərbaycanın necə bir peşəkar orduya, necə bir cəsarətli sərkərdəyə malik olduğunu gördü. Şuşanın işğaldan azad olunması çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Bu əməliyyatı bizim qəhrəman oğullarımız dağlardan, meşələrdən, cığırlardan keçərək yalnız yüngül silahlarla silahlanmış şəkildə azad etdilər.

Şuşanın işğaldan azad edilməsi bizim ən şanlı qələbəmiz idi. Bəli, Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsi göstərdi. Düşmənin 30 il ərzində qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, müzəffər ordumuzun tətbiq etdiyi savaş strategiyası müasir hərb tarixinə yeni örnək oldu.

Belə vəziyyətdə Ermənistanın qarşısında yalnız iki yoldan birini seçmək qalırdı. Ya Ermənistan ordusu döyüş meydanında son nəfərinə qədər məhv ediləcəkdi, ya da "ağ bayraq" qaldırıb, biabırçı hərbi məğlubiyyətini etiraf edəcəkdi. Ermənistan hakimiyyəti reallığı nəhayət ki, qəbul etdi və noyabrın 10-da "ağ bayraq" qaldırdı, kapitulyasiya bəyannaməsini imzaladı. 30 il gözlədiyimiz o möhtəşəm tarix gəlib çatdı! 8 noyabr 2020-ci il - Qarabağa qovuşduq. Böyük Qələbə Günü! Şanlı tariximizə daxil olan Zəfər günü!. Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən noyabrın 10-da imzalanan üçtərəfli bəyanat Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsini təsdiq edən gündür. Üçtərəfli bəyanata əsasən Dağlıq Qarabağın heç bir xüsusi statusu olmayacaq. Dağlıq Qarabağ Muxtar Vilayəti də tarixə qovuşdu. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə bəyanat imzaladılar.

Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında darmadağın edilən Ermənistanın Azərbaycan Prezidentinin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı. Ərazi bütövlüyümüz təmin olundu, artıq Dağlıq Qarabağa heç bir statusdan söhbət gedə bilməzdi. Daha sonra məkrli niyyətlərindən əl çəkməyən erməni terror qrupları silahlı təxribatlar törətməyə davam etdilər. Ona görə də bu il Azərbaycan ordusu sentyabrın 19-da Qarabağ regionunda "lokal xarakterli antiterror tədbirlərinə" başladı. Hərbi əməlyyatları 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli bəyanatın müddəalarının təmin olunmaması və Azərbaycan konstitusiya quruluşunun bərpa edilməsi məqsədi ilə başladıldı. Azərbaycan Müdafiə Nazirliyinin apardığı tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarıldı..Terrorçular məhv edildi. Şanlı Qələbəmizdən sonra ölkəmizdə yeni dövr başlayıb.

**Hazırda işğaldan azad edilmiş ərazilərimizdə infrastruktur layihələri uğurla icra olunur. Həyata keçirilən abadlıq-quruculuq işləri onu deməyə əsas verir ki, erməni vəhşiliyinin qurbanı olan şəhərlərimiz, qəsəbələrimiz və tarixi abidələrimiz tezliklə bərpa olunacaq, azad Qarabağımıza yeni nəfəs gələcək. Xalqımız ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canını fəda edən, bizə bu Zəfəri yaşadan Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacaq. Onların əziz xatirəsi hər zaman bizim qəlbimizdə yaşayacaq. ZƏFƏR GÜNÜN MÜBARƏK OLSUN AZƏRBAYCANIM!!!**

**Gülnarə Allahverdiyeva**
**ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi**

***Asif Talıboğlu***

# DÜNYANIN BU ÜZÜ



**Fikirləşdim ki, "DÜNYANIN O ÜZÜ"nə boylanmamışdan öncə bu üzünə nəzər salım...**

**...Nəzər saldım və gözümə ilk dəyən Əməkdar jurnalist Faiq Qismətoğlunun "DÜNYANIN O ÜZÜ" kitabı oldu...**

**...Şəhid haqqında yazılıb bu kitab. Daha doğrusu, bir şəhidə ürəklərdə abidə ucaldıldı.**

**O şəhid Füzuli rayonunun Böyük Bəhmənli kəndində sadə, zəhmətkeş bir kəndli ailəsində dünyaya göz açmışdı, böyümüşdü və əli silah tutanda Vətənin müdafiəsinə qalxmışdı.**




**Və şəhid Süleymanov Elçin Tehran oğlu haqqında yazılmız mükəmməl bir kitab kimi dəyərləndirdiyim bu kitabın təqdimetmə mərasimində iştirak edərkən bir daha əmin oldum ki, müəllif Faiq Qismətoğlu bu kitabı ərsəyə gətirmək üçün nə qədər məhrumiyyətlərə, nə qədər çətinliklərə, ürək ağrısına dözməli olub.**

**Faiq Fismətoğlunu coşqu ilə, dərin minnətdarlıqla qarşılayan Böyük Bəhmənli camaatının mərasimdə iştirak edən böyük əksəriyyətinin göz yaşardan, qəlb ağrıdan, dodaq titrədən çıxışı daxilən məni qürurlandırırdı...**

**Hər sözündə, hər sətrində bir nisgil, bir həsrət, bir yanğı hiss edilən "DÜNYANIN O ÜZÜ" kitabı şəhid Elçin Süleymanovun 29 illik ömrünün bütün anlarına işıq salıb.**

**Bir-birindən şirin, bir birindən kövrək xatirələr bu kitabın ən böyük məziyyətlərindən biridir.**

**İstedadlı qələm sahibi, hər sözün üstündə yarpaq kimi əsən həmkarım, yaxın dostum və sirdaşım, gözəl yazar, Əməkdar jurnalist Faiq Qismətoğlu yaradıcılığının zirvəsi hesab etdiyim bu kitab haqqında saatlarla, günlərlə danışmaq, yazmaq olar. Çünki "DÜNYANIN O ÜZÜ" kitabında yazılanlar bütövlükdə vətənpərvərlik hissinə, Vətən sevgisinə, qeyrət rəmzinə bələnib...**

**...Və Elçin Tehran oğlu Süleymanovun şəxsində 44 günlük Vətən müharibəsi Şəhidlərinə qoyulmuş bir əbədi abidədir.**

**Mən "DÜNYANIN O ÜZÜ" kitabını oxuyarkən müəllifdən fərqli olaraq, dünyanın o üzünə boylanmadım. Şəhid Elçin Süleymanovu o dünyada yox, yaşadığımız gerçək dünyamızda axtardım və tapdım...**

**Bilirsiniz harda?**

**...Şəhidimiz Elçinin atası Tehran kişinin, anası Xalidə ananın, ömür-gün yoldaşı Aminə xanımın və şəhidin yadigarı, məsum bir qızcığazın gözlərində...**

# Fiziki və psixoloji asılılığın ən dəhşətli forması



***Zakir Bayramlı***
***Şair-publisist, AYB və AJB-in üzvü, təhsil işçisi***

*İstəsən güzgütək saf olsun ürək,*
*Sinədən on şeyi atasan gərək.*
*Haram,qeybət,kin, paxıllıq,tamah,*
*Kibir, riya, həsəd, ədavət, kələk.*

**Nizami Gəncəvi**

Zərərli vərdişlərə yiyələnməyin yaşı yoxdur. Onlara istənilən vaxt: uşaqlıq, yeniyetməlik,gənclik, orta yaş və s. yaş dövründə öyrəşmək olar. Bu vərdiş forması vaxtaşırı olaraq təkrarlanan və şüuraltı vasitəsilə baş verməyə meyilli olan qeyri-qanuni davranış formasıdır. Həmin davranış növü vərdiş formasında avtomatik yerinə yetirilə bilər. İnsanın təkrar etdiyi əxlaqi dəyərlərə zidd olan bu cür davranış nümunələri bir müddətdən sonra sinir yollarına həkk olunur. Zərərli vərdişlərin formalaşması prosesi davranışın mütamadi olaraq təkrarlama vasitəsilə avtomatik və ya vərdiş formasına gətirməklə həyata keçirilir.

Fiziki və əqli cəhətdən kamillik zirvəsinə çatan, öz sağlamlığının qayğısına qalan və sağlam həyat tərzi keçirən insalan öz fəaliyyətləri dövrü bir çox faydalı vərdişlərə yiyələnirlər. Bu vərdişlərin siyahısı olduqca genişdir: hər gün axşam vaxtında yatıb, səhər erkən saatlarda oyanmaq, gündəlik səhər idmanla məşğul olmaq, piyada gəzintiyə çıxmaq, iş vaxtını, eləcə də asudə vaxtı səmərəli keçirmək, düzgün və təbii qidalanmaya ciddi fikir vermək, kitab oxumaq , şəxsi gigenik tələbləri gözləmək, ünsiyyət və danışıq mədəniyyətinə əməl etmək və b. Lakin sən demə faydalı vərdişlərlə yanaşı yer üzünün ab-havasını pozan, milyonlarla ailənin həyatına ağır və sağalmaz dərd-bəla gətirən, məyusluq və acı facilər yaradan bir çox zərərli vərdişlər də varmış...

Dünyadakı həyat təcrübəsi sübut edir ki, fiziki və psixi cəhətdən normal olan, sağlam həyat tərzi keçirən hər bir insana istənilən biliyi, təcrübəni, işi, sənəti və ya peşəni öyrətmək mümkündür.

Lakin həyatda real hadisələr həmişə hər kəsin şəxsi istədiyi kimi baş vermir. Bəzən elə olur ki, qeyri- qanuni bir sıra mənfi adətlər, zərərli vərdişlər, pis hərəkətlər və bəd əməllər (xüsusilə siqaretçəkmə, spirtli içkilərə aludəçilik, narkomaniya, qumar oyunlarl, müxtəlif oğurluq, cürbəcür dələduzluq və b.) gizli yollarla bədniyyət ünsürlər tərəfindən zorakı qaydada (aldatma, şirnikləndirmə, şantaj etmə, təzyiq və ya gücgəlmə, lağaqoyma, müxtəlif dələduzluq formasında və s.) həyata təzəcə göz açan, hələ dünyagörüşü olmayan, nadan və təcrübəsiz , mühitdə hələ bərkiməmiş, heç bir çətinliyə öyrəşməmiş, iradəcə zəif insanlara, xüsusilə yeniyetmələrə və gənclərə öyrədilir.

Davamlı təkrar olunduğuna görə əxlaqa və qanuna zidd olan bu vərdişlər həmin hərəkətləri icra edən yeniyetmə və gənc insanların gündəlik həyat tərzinə çevirilir. Yəni həmin zərərli meyl, maraq və vərdişlərin iştirakçısı olan şəxslərin həyat tərzi getdikcə həmin vərdişlərin motivinə uyğun olaraq formalaşır. Qısaca yavaş-yavaş vərdişdən fiziki və psixoloji aslılıq yaranmağa başlayır. Bir neçə vaxtdan sonra köhnədən formalaşmış bu zərərli vərdişləri, eləcə də digər əxlaqa və qanuna zidd hərəkətləri həmin adamların başından çıxarmaq, yaddaşından silmək və b. işləri yerinə yetirmək olduqca çətinləşir.

Çox hallarda bu cəhddə heç bir müsbət nəticəyə nail olmaq mümkün olmur. Çəkilən zəhmət: maarifləndirmə, tərbiyəvi və müalicəvi xarakterli çalışmalar tamamilə hədər gedir. Nə qədər cidd-cəhd göstərilsə də həmin adamlardakı köhnə həyat tərzini dəyişib təzəsi ilə əvəz etmək mümkün olmur ki, olmur.

Muasir dünyamızda iradəcə zəif olan insanlar tərəfindən yerinə yetirilən pis və zərərli vərdişlərin sayı çoxdur. Əvvəlcədən qeyd edim ki, zərərli vərdişlərə öyrəşməyin başlanğıcında qısa vaxt ərzində əldə edilən və ya qazanılan ötəri həzz və ya ləzzət, gələcək illərin iztirab- həyəcanı, məşəqqətləri hesabına başa gəlir və müxtəlif faciəvi sonluqlarla qurtarır. Xüsusilə bu sahədə birinciliyi uzun illər qoruyub saxlayan narkomanlıq özünün uyuşdurucu və məstedici xüsusiyyətləri ilə dünyada yetişməkdə olan gənc nəsli dibi görünməyən uçuruma sürükləyir.



Dünyanı xərçəng xəstəliyi kimi bürüyən bu zərərli vərdişlər xüsusilə bir sıra gənc ailələrin xoşbəxt olmasına mane olur, yenicə qurulmasına baxmayaraq onların göz yaşları içində dağılmasına və pərən-pərən olmasına münbit şərait yaradır. Nəticədə boşanma halları nəticəsində ailədəki uşaqlar başsız qalır. Uşaqlarla bərabər, ailədə yaşayan qadınların, yeniyetmə və gənclərin səhhətində, davranışında, sağlamlığında, psixoloji durumunda, təlim-tərbiyəsində , maddi təminatında və mənəvi-hüquqi məsələlərin həlli prosesində müxtəlif formada çətinliklər və problemlər yaranır.

Zərərli vərdişlərə qurşananları elə ilk gündən mənlik şüurundan kənar, tamah və nadanlıq çeşməsindən qidalanan avara həyat gözləyir. Elə bir həyat ki, onu yaşamağa başlayantək tez bir zamanda pis vərdişlərdən güclü asılılıq baş verməklə yanaşı müxtəlif infeksion xəstəliklər peyda olur və ömürlük arzuolunmaz qonağa çevirilir. Günbəgün səhhətin zəifləməsi, sağlamlığın tədricən itirilməsi, gənclik həyatının heçə endirilməsi halları davam edir. Az sonra isə belə vəziyyətə düçar olmuş adamlarda düşdüyü dərin bataqlıqdan çıxmaq həvəsi tamamilə soyuyur. Üzləşdiyi çətin situasiya ilə barışdığına görə qurşandığı bəladan qurtulmaq, azadlığa çıxmaq arzusu isə tamamilə heçə enir.

Süstlük, biganəlik və bədbəxtçilik ona heç olmasa düşdüyü ziyanın yarısından da olsa qayıtmağa imkan vermir. Beləliklə, həmin nadanların özünü birdəfəlik zərərli vərdişlərin ağuşuna ataraq həyatını yavaş-yavaş onlara qurban verməsi mərhələsi başlayır. Nəticədə tədricən müxtəlif növ faciələrin-özünüməhv prosesinin yetişməsi labüd olur.

Cəmiyyətimizin sağlamlaşdırılması və gələcəkdə daha gözəl və parlaq olması yalnız sağlam gəncliklə bağlıdır. Bunun da birinci dərmanı idmandır. Çünki uşaqlıq və yeniyetməlik illərindən bədən tərbiyəsi və idmanla məşğul olan gənclər həmişə siqaret cəkməkdən və spittli içkilər içməkdən uzaq olurlar. Ona görə ki, idmanla mütəmadi məşğul olan gənclər bütün enerjisini idmana sərf etdikləri üçün onların başqa vərdişləri, xüsusilə pis vərdişləri yerinə yetirməyə nə vaxtı, nə də fiziki enerjisi qalır. Heç sirr deyil ki, bizə həqiqətən həzz vetrən vərdişlər mövcuddur. Çünki zərərli vərdişləri bəzi psixoloqlar hətta beyin xəstəliyi də adlandırırlar. Belə ki, bəzi vərdişlər beyinə həzz siqnalları ötürürlər. Əlbəttə beyindəki həzz nöqtələrini aldatmaq həqiqətdə mümkün olan məsələ deyildir. Bu siqnalları qəbul etməklə insan müvəqqəti olaraq özünü yaxşı hiss edir. Məsələn dırnaqyemə, barmaqları şaqqıldatmaq, narkotik vasitələrdən istifadə və s. Pisixoloqların araşdırmasına görə insanı özünü yaxşı hissetmə anı keçici və aldadıcı xarakter daşıyır. Ona görə ki, ayın görükməyən tərəfi olduğu kimi həmin müvəqqəti- aldadıcı həzzin arxasında gəncləri məhvə - güclü asılılığa aparan uçurum dayanır.

**Pis vərdişləri tərgitmək mümkündür. Lakin bunun üçün güclü iradə, mükəmməl stasionar və ya ambulator müalicə, eləcə də həlim və psixoloğun məsləhətlərinə ciddi qulaq asmaq gərəkdir. Psixoloqların araşdırmasına görə bir neçə pis vərdişi olan insanların həmin vərdişlərin hamısının cəngindən eyni gündə qurtulması qeyri-mümkündür. Bunu nə fiziki, nə psixoloji, nə də tibbi yolla yerinə yetirmək olar. Yalnız bu vərdişləri tədricən hissə-hissə, bəlkə də damla-damla azaltmaq, köhnə pis vərdişi yeni faydalı vərdişlə əvəz etmək vasitəsilə tərgitmək mümkün olar. Bunun üçün pis vərdişi olan xəstələrdə möhkəm səbr, cəsarət və özünəinam lazımdır. Yalnız bu ÖZÜNƏİNAM XİLAS YOLUDUR!**

***Eminquey***

# *Fürsət düşən kimi bir-birini loxlayan azərbaycanlılar*



**Bugün bir xanım yaxınlaşdı ki, taksiyə zəng vurmaq olar? Dedim, olar. Adam yığdı, sifariş elədi, dedi, zəng vursalar deyin burda gözləyirik. Avtobusa minəndə bunların maşına oturduğunu gördüm, dedim, taksi gəlib yəqin.**

**Çatdım metroya. Başım qazandır son günlər, kartı qoydum aparata, pulu yüklədim. Sonra yaxınlaşdım çantamı yoxlatmağa. Əlimi atdım ki, kartı çıxarım, gördüm yoxdu. Yadıma düşdü ki, kartı aparatdan götürməmişəm. Qayıtdım, iki addım dala, kart yoxdu. İnanın, ikicə dəqiqə çəkmədi bu söhbət. İkicə saniyəyə kartı əkişdirdilər.**

**Allahaqqı, hə, cəmi iki saniyədə.**

**Təzədən kart aldım, söhbət kartda deyil, 2 manatdı. Amma o ki deyirsiniz e, bizim adamlar çox ürəyiyumşaq, ay nə bilim, halal-zad. Nə qədər vicdansız olasan ki, kiminsə kartını əkəsən. Barı gördün, götür və çevrənə səslən, çıxmasa sahibi, götür get.**

**Nə isə, bu söhbətin üstünə zəng gəlib taksidən. Mən 10 dəqiqədir gözləyirəm sizi. İzah eləmişəm ki, bəs mən sifariş verməmişəm. Qadın da yanında iki qadınla maşına oturub gedib. Biraz keçib, taksi bir də yığıb. Bir də, bir də. Axırda bloka atmışam. Nəhayət şirkət zəng eləyib ki, sifariş ləğv edildi.**

**Gəl indi yaşa çərləyə-çərləyə...**

## *Şahbaz Xuduoğlu: "Mədəniyyət Nazirliyinin davranışı..."*

**""Təkərli kitab dükanı"nı Bakı Beynəlxalq Kitab sərgisində təqdimatını etmək istəyirik. Mədəniyyət Nazirliyi icazə vermir"**

Adalet.az xəbər verir ki, bunu "Qanun" nəşriyyatının direktoru, məşhur naşir Şahbaz Xuduoğlu deyib. Ş.Xuduoğlu nazirliyin bu cür davranışından təəssüfləndiyini bildirib:

""Təkərli kitab dükanı" sosial layihədir, öz hesabımıza başa gəlib. Kənar bir qəpik dəstək olmayıb. Oxucuların təşəkkürü, uşaqların sevinən baxışlarından başqa heç kimdən heç nə gözləmirik...

Məqsədimiz regionlara, kəndlərə gedib kitabı təbliğ etməkdir. Bu, Vətənimizə, insanımıza, mədəniyyətimizə və dövlətimizə sevgidən irəli gəlir.

Bakı Beynəlxalq Kitab Sərgisində 74$m^2$ yer üçün biz 12 min manat pul ödəmişik. "Təkərli kitab dükanı"nın təqdimatını da salonda yox, həyətdə, parkinq yerində etmək istəyirik.

Amma Mədəniyyət Nazirliyi buna icazə vermir. Bu elə Fatmayidə Mədəniyyət evinin müdirinin davranışına bənzəyir...".

**Vasif Əlihüseyn**

## *HƏMAS liderləri Yaxın Şərq ölkələrində gizlənirlər*

**Fox News bidirir ki, İsrail müdafiə ordusunun Qəzza bölgəsində keçirdiyi yerüstü əməliyyatlardan qaçan HƏMAS liderləri Yaxın Şərq dövlətlərinin ərazilərinfə gizlənirlər.**

İsrailin hərbi kəşfiyyatının əldə etdiyi məlumatlara görə, HƏMAS-ın yüksək çinli liderləri İran, Qətər,Luvan və Türkiyə ərazilərində gizlənirlər. Qeyd olunur ki, radikal hərəkatın bir çox liderləri milyardlarla dollarlıq sərvətə malikdirlər. HƏMAS-ın siyasi bürosunun sədr müavini Əbu Marzukun sərvəti üç milyard dollar, digər yüksək vəzifəli liderlər, Xalid Maşal və İsmayıl Xanının sərvətləri isə dörd milyard dollardan çoxdur.

TSAXAL-ın mətbuat katibi Daniel Xaqari bəyan edib ki, İsrailin qırıcı təyyarələrinin gecə endirdiyi avia zərbələr və keçirilən əməliyyatlar nəticəsində Fələstin hərəkatının bir neçə səhra komandiri məhv edilib.

**Rüstəm Hacıyev**

## *Türkiyədə CHP-yə yeni sədr seçildi*



**Özgür Özel Türkiyənin ana müxalifəti sayılan Cumhuriyyət Xalq Partiyasının (CHP) yeni sədri seçilib.**

Adalet.az xəbər verir ki, o, partiyanın 38-ci qurultayının ikinci turunda 812 səs toplayaraq qalib gəlib.

Onun rəqibi, partiyanın hazırki sədri Kamal Kılıçdaroğlu isə 536 səs toplayıb. Qeyd edək ki, birinci turda Özgür Özel 682, K. Kılıçdaroğlu isə Qurultay nümayəndələrimin 664 səsini toplaya biliblər. Xatırladaq ki, Ö. Özel bundan əvvəl K. Kılıçdaroğlunun namizədliyinə etiraz olaraq CHP-nin Qrup Başqanı vəzifəsindən istefa verib. K. Kılıçdaroğlu CHP-yə 13 il ərzində sədrlik edib, lakin onun son Prezident seçkilərində rəqibi Rəcəb Tayyib Ərdoğana növbəti dəfə məğlub olduğuna görə partiya üzvləri tərəfindən istefası tələb olunurdu.

## Ararat Mirzoyan: "İrəvanla Bakı arasında təklif mübadiləsinin altıncı raundu davam edir"

**"Ermənistan və Azərbaycan sülh müqaviləsi bağlamaq üçün təklif mübadiləsinin altıncı raundunu keçirirlər".**

Bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Milli Assambleyanın 2024-cü il dövlət büdcəsi layihəsi üzrə daimi komissiyalarının iclasında deyib.

Mirzoyan qeyd edib ki, İrəvanın sülh gündəliyinin həyata keçirilməsi istiqamətində kursu davam edir. O qeyd edib ki, Ermənistan Qranadada sülh gündəliyinin həyata keçirilməsi istiqamətində böyük addım atmağın mümkün olacağına ümid edir.

"Qranadada bəyannamə imzalanıb və bu, faktiki olaraq Azərbaycanla gələcək sülh müqaviləsi üçün əsasdır", - deyə Ermənistanın XİN rəhbəri bildirib. O xatırladıb ki, bu sazişin birinci prinsipi tərəflərin ərazi bütövlüyünün qarşılıqlı tanınmasına aiddir: "Ermənistan bu məsələdə maksimum konkretliyi təmin etmək istəyir, ona görə də iki ölkənin əraziləri ilə bağlı konkret rəqəmlər gətirilir. Sazişin ikinci prinsipi iki ölkənin sərhədlərinin delimitasiyası və demarkasiyası ilə bağlıdır. Proses sovet dövrünün ən son və qanuni xəritələri əsasında aparılmalıdır. Bu xəritələr 1974-1978-ci illərdə tərtib edilib. Əsasən, delimitasiya SSRİ-nin süqutu zamanı mövcud olan sərhədlər əsasında aparılmalıdır".

Mirzoyanın sözlərinə görə, bu yanaşma beynəlxalq ictimaiyyət tərəfindən anlayışla qarşılanır və o, Azərbaycan tərəfinin də bunu başa düşdüyünü təxmin etməyə cürət edir.

Üçüncü prinsip regional kommunikasiyaların bloklanmasına aiddir. Xarici işlər naziri bir daha qeyd edib ki, Ermənistan nəinki blokun açılmasının lehinədir, həm də özünü bu kommunikasiyaların açılmasının əsas benefisiarlarından biri hesab edir.

İrəvanın yanaşması isə dəyişməz olaraq qalır: bütün kommunikasiyalar ərazisindən keçdiyi ölkələrin yurisdiksiyasında, bərabərlik və qarşılıqlı əsasda fəaliyyət göstərməlidir.

Bundan əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan bildirib ki, sülh müqaviləsinin hazırlanması çərçivəsində İrəvan və Bakı üç əsas prinsip üzrə razılığa gəliblər.



Əbülfət MƏDƏTOĞLU

# "Bir xatirə dəftərinə bənzəyir ömrüm"

44 günlük zəfər savaşımız bizim 30 il çəkdiyimiz ağrı-acınıbir andaca unutdurdu. Bu Qələbə Vətəndə vətənsiz günlərimizin, qaçqınlığımızın- köçkünlüyümüzün, məzar yerləri tapmaq nisgilimizin tarixin arxivinə verilməsi ilə çiynimizdəki ağır yükü qaldırdı.

Qarabağa gedən ruhların ziyarəti qəbul oldu. O ruhlar bizim 30 illik nisgilimizə hamıdan öncə sevindilər. Çünki onlar şəhidlərin ruhu idi!Vətən üçün, torpaq üçün, millət üçün- bütövlükdə var olmağımız üçün özlərini şəhid edənlərin ruhları idi!

Gəlin etiraf edək ki, biz 2020-ci ilin 8 noyabrında Şuşanın azad edilməsi xəbərini eşidəndə qəddimiz düzəldi. Şuşada dalğalanan bayrağı görəndə başımız göylərə dəydi. Bir millət kimi öz varlığımızı məhz UCALIQDANhər kəsə göstərdik. Dünya gördü ki, biz varıq, var olmuşuq və var olacağıq. Çünki biz , bütövlükdə TÜRK ,günəş zərrəsiyik. Amma həmin tarixə qədər biz əzablı yollar da keçdik




Artıq bəlli statistika var. Torpaqlarımızın işğalı dğvründə, eləcə də onun azadlığı uğurunda gedən döyüşlərdə verdiyimiz şəhidlərin, qazilərimizin sayı da bəllidir. Həmin o şəhidlərin sırasında Azərbaycanın bütün bölgələrini təmsil edən vətən övladları var. Həmin o şəhidlərdən biri də Qədim Nəqşicahanda, yəni Naxçıvanda doğulmuş, həyatının ilk gənclik illərini yaşayan, özünəməxsus istedadı, fərqli xüsusiyyətləri və birdə vətən sevgisi olan İlkin Seyidovdur.

Müqəddəs bir ocaqda, yəni Seyid Mirnəzir ağanın evində dünyaya gələn İlkin düşmənlərin baş qaldırdığı günlərdə özünü irəli atdı. Naxçıvanda Xüsusi Təyinatlıların sırasına qoşuldu və göstərdiyi şücaətlə qısa bir zamanda həm döyüş dostlarının, həm də onu tanıyan hər kəsin hörmətini qazandı.

İlkin Seyidov qısa həyatı dönəmində məktəbdə də, məhəllədə də. xüsusi təyinatlı polis dəstəsinin üzvləri arasında da özünü hər kəsəsevdirə bildi. Ona görə də onun şəhidlik zirvəsinə yüksəlməsi bir əqidənin, bir məsləkin gerçək nəticəsi kimi qəbul olundu. Yəni İlkin özünü həm vətəninin fədaisi, həm də şəhidi kimi görürdü. Bax bu səbəbdən də onun barəsində danışılan xatirələr, qələmə alınan yazılar son dərəcə inandırcı , düşündürücü və İlkinin adına layiqdir.

Bu gün oxuculara təqdim etdiyim ”Bir xatirə dəftərinə bənzəyir ömrüm ” (sənədli povest) kitabı onun həyatının, keçdiyi qısa , həqiqətdə isəböyük ömür yolunun səlnaməsidir. Yazıçı- publisist Fərid Rəhimlinin qələmə aldığı sənədli povestdə hadisələr birbaşa Naxçıvamda cərəyan edir. Yəni müəllif İlkinin doğulduğu evdən, oxuduğu məktəbə, yaşadığı məhəllləyə oradan isə İlkinin döyüş dostlarına qədər yol gedib , onlarla təmas qurub və İlkinin obrazını yaradıbdır.

Kitabı oxuduqca İlkinlə həmsöhbət olur və açıq-aydın görürsən ki, bu cür oğullar məhz Vətən üçün doğulur. Vətəni ucaltmaq üçün dünyaya gəlir!.

Fəridə Rəhimlinin kitabında İlkinin çəkdiyi rəsm əsərləri, eləcə də onun ailə albomundan fotolar həmçinin doğmalarının, dostlarının, valideynlərinin, eləcə də İlkinin adını daşıyan qardaşı oğlu İlkin Seyidzadənin təyarəçi geyimində fotosu da yer alıb.

Kitabda İlkin haqda söylənilənlər müəllif tərəfindən bir ”İlkin nağılı” kimi təsvir olunub. Bu nağılın sonunda onun qəhərəmanlığı göz önündə dayanır. Şükürlər olsun ki, bu qəhərmanlıq böyük zəfərimizin sütunalrından biridir. Bütövlükdə isə hər bir şəhidimiz, hər bir qazimiz qələbimizi bütövləşdirən güclərdir.

Şəhidlərimizin məkanı cənnət, qazilərimizin canı sağ olsun.

# Vətən! - deyən misralar

Məmməd Araz

## Vətən desin!

*Bu gün gərək
Hər anımız Vətən! - desin!
Qılıncımız, qalxanımız
Vətən! - desin
Ölənlərin əvəzinə
Qalanımız Vətən! - desin.*

*Vətən! - desin
Qəlbimizin hər duyğusu,
hər vurğusu
Vətən! - desin.
Fərqi yoxdur, harda olaq,
Zamanımız, məkanımız
Vətən! - desin
Çox yatdıq, çox mürgülədik,
Qoca millət!
Mürgülədik: qoşa-qoşa
Dağlarımız oğurlandı.
Çaylarımız, göllərimiz
oğurlandı.
Düzlərimiz, çöllərimiz
oğurlandı.
Oğurlatdıq!
İndi saysaq saya sığmaz,
Daha nələr, nələr oğurlanıb.
Yer üstündə xəzinələr,
Yer altında dəfinələr
oğurlanıb!
Qoca millət, hər andımız,
Amanımız,
Əgər varsa,
Zərrə qədər imanımız,
İmanımız Vətən! - desin
Hər yaxşımız, yamanımız
Vətən! - desin
Əli kəsik, dili kəsik
Uşaqlar var - hələ dustaq,
Körpə dustaq Vətən! - deyir.
Bu nə külək, bu nə bulud,
Bu nə yağış, bu nə qardı?
Didərginlər üzərində
susub durdu,
Vətən! - dedi,
Mürgülüsən, qoca millət:
Daha möhkəm, daha ötkəm
gəlsin səsin,
Vətən! - desin
Qoca millət, Bu gün gərək
Hər anımız Vətən! - desin.*

Asim Yadigar

## Zəfər yolu

*Soldurub baharını, gətirdik sərt qışını,
Axıdıb bu yerlərdə düşmənin göz yaşını,
Dəmir yumruqla əzdik onun murdar başını.
Bu yol qeyrət, cəsarət, bu yol hünər yoludur,
Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur!*

*Ali Baş Komandanım, yaşa, var ol, yüz yaşa!
Saldığın Zəfər yolu tamaşadır, tamaşa,
Bu yolu tutmalıyıq başdan-başa qumaşa.
Bu yol ata arzusu - bu yol Öndər yoludur,
Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur!*

*Onun hər qarışına qarışıb şəhid qanı,
Bu qanlarla qurtardıq qandan Azərbaycanı.
Oğlum, nəvəm, qardaşım, bu yolu sən də tanı.
Bu yol qorxu bilməyən hünərvərlər yoludur,
Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur!*

*Bu yolda dəfn eylədim içimdəki qorxunu,
Həqiqətə çevirdim əfsanəni, yuxunu,
Sancdı düşmən köksünə igidlərim oxunu.
Bu yol qəlbə rahatlıq gətirən nər yoludur,
Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur!*

*Yamyaşıl meşələrin nəğməsi necə şirin,
Kölgəsi gün görməyir, kölgəsi necə sərin.
Bu zümrüd meşələrin, bu dərin dərələrin
Hər biri xoş müjdələr verən xəbər yoludur,
Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur!*

*Sıldırım qayaları öpürəm gözlərimlə,
Oxşayıram hər izi, cığırı sözlərimlə,
Öyünür, fəxr edirəm dağımla, düzlərimlə.
Daha bu yol nə həsrət, nə də qəhər yoludur,
Bu yol Şuşaya gedir, bu Yol Zəfər yoludur!*

*Otuz illik həsrəti qırx dörd gündə dağıdan,
Ey qəhrəman qazilər, sizə hər an can qurban.
Bu yolda şəhidləri unutmadım bircə an.
Bu yol cəsur, qəhrəman, igid əsgər yoludur,
Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur!*

*Ulu Naxçıvanımın qorxmaz, ər oğulları,
Oxudum qayalarda siz yazan nağılları!
Dağa qalxan maşınlar, sanki durna qatarı
Qalxır Şuşaya sarı, qala-şəhər yoludur,
Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur!*

*Ədalətinə şükür, ey qoca, gidi dünya,
Mən Cıdır düzündəyəm - nə yuxudur, nə röya.
Burdan - Cıdır düzündən səslənərək dünyaya
Deyirəm: - Bu qələbə, zəfər, bu ər yoludur,
Bu yol Şuşaya gəlir, bu yol Zəfər yoludur*

Adilə Nəzər

## Zəfər var!

(Böyük Türk sərkərdəsi Hulusi Akara ithaf)

*Əzəldən günəş -bayraq, səma bizə göy çadır,
Zaman özü şahiddir türkün od nəfəsinə.
Diri Şəhid ruhları qan yaddaşı oyadır,
Tarixin nizə səsi dəyir raket səsinə.*

*Qarşımızı alammaz daha heç bir maneə,
Qaranlıqdan işıqlı səhərlərə səfər var.
Bizə işləyir artıq hər qiymətli saniyə,
Gözləyirik tezliklə qələbə var, zəfər var.*

*Mərddir hər bir əsgərim, mərddir hər bir qardaşım.
Türkün son əməli də ilk verdiyi söz olur..
Sevincimdən sel olub boğur məni göz yaşım,
İki qardaş birləşib, bir yumruqda biz olur.*

*Sağalacaq zamanla torpağın şırımları.
Bundan belə yurdumda yad ocağı alışmaz,
Səbirlə, təmkin ilə keçib aşırımları,
Haqqa üz tutanlarıq,- haqla nahaqq qarışmaz.*

*Qəlbim də qələmim tək güləcəkdir, əminəm,
Daha qandan silkinib gül açıb göyərəcək.
Bir Türk qəhrəmanını qoy gətirim nümunə
-Hər dövlətə Hulusi Akar tək paşa gərək.*

Kəmalə Abiyeva

## Vətən savaşı

*Əsgərim, İgidim, ay oğul balam,
Səninlə yaşayır hər Vətən daşı.
Bacarsam əlində silahın ollam
Vətən savaşıdır, Vətən savaşı.*

*Vətən sevgisini yaşayır torpaq,
sevincə bürünüb gözünün yaşı.
Qələbə ətrinə qovuşur torpaq
Vətən savaşıdır - Vətən savaşır.*

*İlhamla irəli möhtəşəm ordum
Azadlıq havası oldun bu yurdun.
Canınla, qanınla, rəşadətinlə,
Gələcək günlərə yazılır adın.*

*Ali baş komandan yumruğun qalxsın
önündə əyilir düşmənin başı.
Bir damla türk qanı yerdə qalmasın,
Vətən savaşıdır, Vətən savaşı.*

*Əlində ucalan bayraq Vətəndi!
Ayağın altında torpaq Vətəndi!
Bu haqq savaşında müzəffər ordum,
Qüdrətli ədalət -Zəfər sənindi*

Ayaz Arabaçı

## ŞƏHİDİM

*Qeyrətini hər məqamda duyurdun,
Cəbhələrdə qanı qanla yuyurdun,
Bu torpağın, bu vətənin, bu yurdun,
Dar günündə yaraq olan şəhidim.*

*Zəfərlərin başla-canla yazılmış,
Uca namla, uca şanla yazılmış,
Tariximə qızıl qanla yazılmış,
Ən qiymətli varaq olan şəhidim.*

*Zərrə qədər qürurundan enməyən,
Öz andından, öz sözündən dönməyən,
Ürəyinin alovları sönməyən,
Öləndə də çıraq olan şəhidim.*

*Qaşlarının arasından öpürəm,
Tellərinin qarasından öpürəm,
Ürəyinin yarasından öpürəm,
Son nəfəsdə bayraq olan şəhidim.*

*Torpaq üçün, vətən üçün yox bazar,
Bu dastanı sənin kimi kim yazar,
Toy otağı ovuc boyda dar məzar,
Toy libası torpaq olan şəhidim.*

*Heykəlləşdin vətənin bir daşında,
Ömrün fidan, ömrün çiçək yaşında,
Ərənliyin , kişiliyin başında,
Qeyrət olan- papaq olan şəhidim.*

Xanım İsmayılqızı

*Tək bayraq dalğalanır,
Dayanıbdı yüksəkdə.
Təkbaşına dolanır
Ətrafında külək də.
Zirvənin bəzəyidi
Bu bayrağın üç rəngi.
Möhtəşəmlik rəmzidi
Bu qürurlu ahəngi.
Yaşılında dirilik,
Qırmızısında qan var.*

*Göyündə göylər qədər
Böyük bir asiman var.
O, böyük bir millətin
Azadlıq nəfəsidir.
Sancıldığı hər zirvə,
Öz xalqının səsidir.
Baş qoyub, and içməyə,
O, Qurana tən gəlir.
Tək bayrağın ardınca,
Bu Ana Vətən gəlir.*

Əlizadə Nuri

## VƏTƏN

*Vətən təkcə sərhədlərin içində
qalan deyil ki...
Qürbətə uçan quşların
göy üzündə qanrılıb,
Vətən göylərinə baxdığı son baxışları da
Vətənin bir parçasıdı...
Qürbətdə yaşayan insanın
doğma illəri yada düşəndə,
köks ötürüb çəkdiyi ah da Vətəndi!..*

*O Vətən oğlunun
yuxularından axan bulaq suyu da
Vətən həsrətindən oxuyur hər gecə...
Yuxularından axan o bulaq suyu olmasa,
yaşaya bilməzdi ki qurbətdə!
...Hərdən Vətən torpağı kimi
qucaqlayıb sinəsinə sıxdığı
tarının simləri də
Vətən sərhədlərini xatırladır ona...*

Ramiz Qusarçaylı

## Nə gözəl səslənir Şuşalı Vətən!

*Şuşanın içində Şuşa qurulur,
Şuşanın içində Şuşa tikilir,
”Şuşa, sən azadsan” təntənəsində,
Birliyin güçündə Şuşa tikilir,
Xalqın Qarabağa qayıdışında,
Tarixi köçündə Şuşa tikilir,
Yolboyu güllənən bağ yerlərində,
Əkində-biçində Şuşa tikilir.
Hər qaya, hər dağda Şuşa tikilir,
Külli Qarabağda Şuşa tikilir.*

*Öpüb ulduzunu, öpüb ayını
Öpüb hər rəngini çəkir gözünə, -
Göyü, qırmızını, yaşılı Vətən.
Nə gözəl sayrışır Şuşada bayraq,
Nə gözəl səslənir Şuşalı Vətən!*

Əbülfət Mədətoğlu

## Xankəndinə Sancılan BAYRAĞIMA SƏCDƏLƏRLƏ

*Bu payız, ömrümün Baharı oldu,
Gözü aydın olsun torpağın, daşın!..
QƏLƏBƏ!- əbədi vüqarı oldu -
Sildi Qarabağım, gözünün yaşın!..*

*Səksəndi bu yurdun kövrək ürəyi,
Açdıq müjdə ilə nurlu sabahı!
Çıxardıb əynindən işğal köynəyin -
Xanın kəndi oldu İLHAM şəhəri!*

*Axır ki, duruldu yurdun səması -
Dualar sevləndi şəhid adına!
Əsgər oğulların Vətən anası -
Təbəssüm sarıdı yaralarına!*

*Qürura bələndi Vətən büstbütün ,
Ürəyim fərəhdən dalğa yarırdı...
Bayraq da yerinə qayıtdığıyçün -
Sonsuz fəxarətlə dalğalanırdı!!!*

Emin Piri

## Qızım

(Qarabağda və bütün müharibələrdə həlak olan körpələrə ithaf olunur)

*Qızım, görə bilmədim
mənə doğru yerişini.
İndi rəsmlərin
Şəkil-şəkil iməkləyir divarımda.
Qızım, başdaşın özündən uca,
məzarın səndən qoca.
sənsə hələ də körpə...
Həbsxana köşəsində
qəfəs içindəki quş qədər azaddır
mənim sülh arzularım.
Qızım, bütün boş yelləncəklərdə
səni görürəm
görürəm buludsuz səmada bulud kimi,
qaranlıq gecədə günəş kimi.
Qızım, saçlarım darıxır -
yolmağınçün,
yanaqlarım çuxura dönüb
yerini doldurmağa -
o quyular totuş barmaqlarına həsrət
həyətim ayaq izlərinə möhtac.
Bilirəm, uşaqlar ölmür,
böyüklərdən küsür,
küsür bu dünyadan
və eləcə uçur, gedir...
Bağışla,
Bağışla, sənə dəyən gülləri.
Qolundakı metal qırıntısına gülümsə -
bir çimdik bil, böyüklərdən hədiyyə.*

## Ombudsman Aparatında Ayrı-seçkiliyə qarşı mübarizə şöbəsi yaradıla bilər

**Ombudsman Aparatında Ayrı-seçkiliyə qarşı mübarizə şöbəsi yaradıla bilər.**

Adalet.az xəbər verir ki, bu təkliflə Azərbaycan İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva ”Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsində çıxış edib. O bildirib ki, Ombudsman təsisatının fəaliyyətinin gücləndirilməsi, o cümlədən pozulmuş insan hüquqlarının bərpası, habelə insan hüquqlarının pozulmasının qarşısının alınması üzrə həyata keçirilən tədbirlərin genişləndirilməsi məqsədilə qəbul edilmiş qanunvericilik aktları, müvafiq qərarlar, habelə İrqçilik və Dözümsüzlük əleyhinə Avropa Komissiyasının da tövsiyələrində qeyd olunan istiqamətlərdə fəaliyyətin təşkili, ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması və bütün şəxslər üçün bərabər hüquqların təmin edilməsi, bu sahədə problemlərin müəyyən edilməsi və qarşısının alınması məqsədi ilə əlavə resursların təmin edilməsi baxımından Ombudsman Aparatında Ayrı-seçkiliyə qarşı mübarizə şöbəsi yaradılmalıdır. S.Əliyeva əlavə edib ki, eyni zamanda Edinburq Bəyannaməsindən irəli gələn tövsiyələrin ölkədə icrası, həmçinin xarici təcrübəni nəzərə alaraq, Ombudsman Aparatında ”Biznes və insan hüquqları” sektoru təşkil edilməlidir.

## “Əhmədbəyli-Şuşa yolu ölkəmizin avtomobil yolları şəbəkəsinin...”



**”Əhmədbəyli-Şuşa yolu ölkəmizin avtomobil yolları şəbəkəsinin incilərindən olacaq. Zəfər yolu kimi, bu yol da çox maraqlı yenilikləri ilə fərqlənir: çoxsaylı tunellər, viaduklar, körpülər, keçidlər və sair”**

Adalet.az xəbər verir ki, bunu hüquqşunas, nəqliyyat üzrə ekspert Ərşad Hüseynov deyib. Ə.Hüseynov daha sonra bunları əlavə edib: ”Ətrafın ecazkar təbiəti isə başqa aləmdir. Laçın-Şuşa yolundan yeni yoldakı işlərin miqyası lap yaxşı görünür. İşlər bitəndən və yolətrafı ərazilər yaşıllıqlara qərq olandan (süni yaşıllıqlar olmasa, da buraların təbiəti cəmi bir ilə iş görülən hər yeri yaşıllaşdıracaq) sonra yol çox gözəl olacaq”.

**Vasif Əlihüseyn**

# DOSTUMA NƏ ARZULAYIRAM

## Qələm dostum İnqilab İsaqın 70 illiyinə

**20 may 2023-cü il. Göygöl rayonu H.Əliyev adına Mərkəzin geniş, işıqlı salonunda təntənəli tədbir keçirilir. Üç saata yaxın davam edən yığıncaqda rayon rəhbərliyi, Bakıdan gəlmiş tanınmış elm-mədəniyyət adamları, Gürcüstan konsulluğunun nümayəndəsi və yaxın dost-tanışlar toplaşıblar. Toplantının səbəbi tanınmış şair İnqilab İsaqın 70 illik yubiley tədbiridi.**

Çıxış edən yoldaşlar İnqilabın şərəflə yaşadığı 70 illik ömür yolundan və yaradıcılığının müxtəlif məziyyətləri barədə söhbət açırlar. Arada mənə də söz verilir. Vaxt məhdudluğunu nəzərə alaraq bir neçə kəlmədə mən danışıram.

Ömrünün müdriklik dövrünü yaşayan dostumun 70 illik yubiley tədbirində çıxış edən yoldaşlar İnqilab İsaqın şair kimi görünən tərəfindən söhbət açdılar. Mənsə dostumun görünməyən tərəfindən danışmaq istəyirəm.

***

İnqilab İsaq Gəncə ədəbi mühitinin ölkədə və xaricdə ən çox tanınan ədəbi simalarından biridir. Bunu onun rus, Ukrayna, özbək, gürcü, ingilis, fars və türk dillərində çap olunmuş ədəbi nümunələri və yaradıcılığı haqqında tanınmış qələm adamlarının, xüsusən filologiya sahəsində elmi rütbəsi olan yoldaşların yazdıqları sanballı ədəbi-tənqidi məqalələri də təsdiq etməkdədir. İnqilab İsaq Gəncə ədəbi mühitində yaradıcılığı ən çox dəyər verilən qələm sahibidir.

Yeri gəlmişkən bir məsələni vurğulamaq yerinə düşər ki, 2022-ci ilin oktyabr ayının 19-23 tarixində Türkiyənin Sakarya şəhərinin bələdiyyəsinin dəstəyi ilə keçirlən 13-cü Uluslararası Sapançaşeir axşamında xarici ölkələrdən gələn nümayəndələr sırasında Azərbaycanı şair kimi təkcə İnqilab İsaq təmsil edirdi. Bizcə bu İnqilab yaradıcılığına verilən yüksək dəyərdi.

Maraqlıdır ki, İnqilabın şair kimi nüfuzu artdıqca qısqanclığın sayı da çoxalır. Buda təbiidir. Qısqanclıq hissi ilə İnqilab yaradıcılığına yanaşanlara bir sual vermək istəyirəm: ”Necə ola bilir ki, bu qədər tanınmış və nüfuzlu qələm sahibləri İnqilab yaradıcılığını dəyərləndirir, amma siz dəyərləndirmirsiniz? Bu nə ilə bağlıdır?”

Bizcə cavab məlumdur, xırdalamağa ehtiyac yoxdur. Mənəviyyatdan yazanın mənəviyyatı təmiz olmalıdır. Yazdığı ilə xarakteri, əməli ilə sözü üst-üstə düsməyən qələm sahibi haqqında danışmağa dəyməz. Nə isə...Məqsəddən çox da uzaq düşməyək.

İnqilab İsaqın yaradıcılığı haqqında üç geniş və əhatəli məqaləm işıq üzü görüb. Bu kiçik yazıda isə İnqilab yaradıcılığının və şəxsiyyətinin görünən tərəfindən yox, ancaq görünməyən tərəfindən, - pərdə arxasının bəzi məqamlarını işıqlandırmaq fikrindəyəm.

***

İnqilab İsaqla ilk tanışlığımın 53 illik bir tarixi var. Tanışlığımıza səbəb isə hər ikimizin ali məktəb tələbəsi olmağımız olubdur. Qrupumuz ayrı olsa da mühazirə zamanı birgə olurduq. Mühazirəni tamamlayan müəllim ”Mövzu ilə bağlı kimin sualı var?” müraciətinə İnqilabın əlini qaldırıb icazə alaraq verdiyi suallar çox vaxtı tələbə yoldaşların marağına səbəb olar və tənəffüs zamanı yoldaşlar arasında qızğın mübahisə yaradardı. Hər kəs öz fikrini müəyyən arqumentlərə əsaslanaraq sübut etməyə cəhd göstərərdi. İnqilab isə geri çəkilməz və fikrində israrlı olardı. Tələbəliyin ilk aylarından hər bir əsərə fərqli yanaşma mövqeyinə görə İnqilab filologiya fakültəsində nəzər-diqqəti cəlb etdiyinə görə yoldaşlar onunla görüşəndə ”Necəsiniz, gələcəyin böyük şairi?” deyərək əhvalpürsan olanda, İnqilab isə cavabında



”Məndən şair olmaz” deyərək gülərdi. Müsahibinin ”Şair olmasan da, ədəbiyyatşünas və yaxud ədəbi tənqidçi olmağına şübhə yoxdu” fikri qarşısında ”Gələcəyi bilmək olmaz. Ola bilər ki, ədəbiyyatdan uzaq düşdüm. İndidən proqnoz söyləmək çox çətindi. Onu zaman göstərər”. - deyən İnqilabın sifətini bürüyən təbəssüm çətinliklə də olsa diqqətdən yayınmırdı.

Böyük ədəbi simalar olan V.Şekspin, C.Londonun, F.Şillerin,Y.V.Hötenin, Puşkinin, L.Tolstoyun, İ.Turgenyevin, M.Qorkinin, M.Şoloxovun, Mirzə Cəlilin, H.Cavidin və başqalarının yaradıcılıqları haqqında İnqilabın söylədiyi fərqli fikirlərə görə tələbə yoldaslardan dodaq büzüb ”Yox. İnqilab böyük alimdir. Onun fikirləri ilə hökmən razılaşmaq lazımdır” deyərək kinayəli şəkildə dodaqbüzənlər də az deyildi.

Bax, beləcə şən və qayğısız keçən tələbəlik illəri nə vaxt başa çatdısa heç xəbərimiz də olmadı. Bir də onda ”ayıldıq” ki, hərəmiz bir bölgədəyik. İlk vaxtlar bir-birimizlə ara-sıra maraqlansaq da, ömürdən illər keçdikcə özü ilə bərabər, bizə bir soyuqluq və unutqanlıqda gətirdi.

Aradan nə az-nə çox 23 il keçəndən sonra tale elə gətirdi ki, İnqilabla eyni bölgədə yaşayası oldum. Söhbət zamanı öyrəndim ki, görüşmədiyim illər ərzində dostum qəzetdə işləyib, ailə qurub, dörd övlad atasıdır, övladlarına ali təhsil verib, ev tikib və şair-publisist kimi neçə kitabın müəllifidir. Əsas məsələ ondadır ki, bütün bu sadaladıqlarımın hamısını kənardan heç bir dəstək olmadan İnqilab təkbaşına öz zəhməti, alın təri, yuxusuz gecələrin hesabına əldə edibdir. Çətinlikləri nə qədər çox olsa da, zəhmət kürəsində bişən İnqilab möhkəm iradəsi, gərgin zəhməti və inadkarlığı ilə öz ayaqları üstündə durmağı bacarıbdı. Yaxşı ailə başçısı olan İnqilab övladlarına yaxşı təhsil verib və indi də qalan ömrünü nəvələrinə xərcləyir. Qələm adamı kimi bu gün Gəncə ədəbi mühitinin respublikada və xaricdə ən çox tanınan söz sahibidir. İnqilab başqasının arxasınca danışan deyil, sözü varsa üzə deməyi bacaran adamdır. Dost, yoldaş, uğuruna sevinəndir. Bacardığı köməyi etməyə həmişə hazırdı. Əlaqələri çox genişdir. Bəzən söhbət düşəndə deyirlər ki, vəzifəsi, elə diqqət çəkən imkanı yox, təqaüddən başqa gəlir mənbəyi olmayan İnqilabın əlaqələrinin bu qədər geniş və əhatəli olması nə ilə bağlıdır?

Sualın cavabını bəziləri həqiqətən bilmir, digərləri isə özlərini bilməyən kimi göstərirlər. Sualın cavabı çox asan və sadədir. Belə ki, İnqilabın ürəyi qapısı və süfrəsi kimi həmişə qonaq üzünə açıqdır. Gəncəyə yolu düşən az adam olar ki, İnqilabın qapısını açmasın və qonaqpərvər ailəsinin hazırladığı süfrənin ətrafında əyləşib çörək kəsib, çay içməsin.

Milli mentalitetə nəzər salsaq görərik ki, kişiyə yaşadığı cəmiyyətdə hörmət gətirən onun milyonlara sahib olması deyil, qapısının və süfrəsinin qonaq üzünə açıq olması ilə ölçülür. Yaxın keçmişə nəzər salsaq görərik ki, H.Z.Tağıyevlə eyni dövrdə, eyni məkanda neçə-neçə neft milyonçusu yaşayıbdır. Xalqı üçün göstərdiyi səxavət Hacının Azərbaycan tarixində xeyirxah bir insan kimi adının əbədiləşməsinə səbəb olubdur. Hacının müasirləri olan milyonlarla kapital sahiblərinin adları isə çoxları tərəfindən çoxdan unudulubdur. Bu misalı çəkməkdə heç də məqsədimiz o deyil ki, İnqilabı Tağıyevlə müqayisə edək. Xeyir. Məqsəd odur ki, İnqilabın da özünə görə, maddi imkanı çərçivəsində qonaq üçün darıxan qapısı və süfrəsi var. Bax, ona görə də dostumun əlaqələri daha genişdi.

İnqilab şairdir. Tanınmış şairdir. Rayon səviyyəsində keçirilən 70 illik yubiley yığıncağı, başqa bölgələrdə keçirilən görüşlər, nüfuzlu mətbuat səhifələrində ona ayrılmış yubiley səhifələri və haqqında yazılan məqalələr fikrimizin göstəricisi deyilmi?

**Dostumun 70 illik yubileyində ona nə arzulardım? Sağlam, ağrı-acısız uzun ömür, tükənməz yaradıcılıq enerjisi və birdə nəvələrinin xeyir işində qol götürüb oynamağı..**

**Fazil SƏNAN**

# Azərbaycançılıq ideyasının təbliği – "Heydər Əliyev İli"

№ 43 (2367) 8 noyabr 2023-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# DÜNYANIN ƏN GÜCLÜ SİYASİ LİDERİ – HEYDƏR ƏLİYEV!

**Dünyada çox tanınmış və böyük siyasətçilər olub. Onların adını çəksək, uzun bir siyahı alınar. Amma hamı yaxşı bilir ki, zamanından və məkanından asılı olmayaraq hər dövrün öz böyük siyasətçiləri, tarixi şəxsiyyətləri və millətini azadlığa çıxaran siyasətçilər olub. Təbii ki, həmin siyasətçilərin adı tarixin qızıl səhifəsinə yazılıb. Ancaq elə siyasətçilər də olub ki, onlar Yer üzünü qana bələyiblər. Aydındır ki, həmin adamların da adı tarixin "qara səhifəsinə" yazılıb.**

Ümumiyyətlə, hər bir böyük şəxsiyyətə və siyasi liderə çox vaxt vaxtında dəyər verilməyib və müəyyən zaman keçəndən sonra onların bir daha böyük şəxsiyyət olduğu, tarixdə silinməz izlər qoyduğu öz təsdiqini tapıb.

Belə böyük dünya şöhrətli siyasətçilərdən biri də Ulu Öndər Heydər Əliyevdir.

O, Heydər Əliyev ki, Sovet İttifaqının vaxtında Siyasi Büronun üzvü olub, öz uzaqgörən, müdrik siyasətilə digərlərindən fərqlənib. Əlbəttə, həmin dövrdə başqa millətin nümayəndəsinin Siyasi Büronun üzvü olması elə də asan məsələ deyildi. Çünki rus şovinizmi, qısqanclıq və paxıllıq imkan vermirdi ki, bu böyük siyasətçilər öz layiqli yerlərini tutsun.

Lakin təziyqlərə və təsirlərə baxmayaraq, Heydər Əliyev Kremldə doğan bir Günəşə bənzədi və işığı, nuru ilə nəinki öz millətimizi, həm də başqa millətlərin həyatını işıqlandırdı.

Böyük bir şəxsiyyətin Siyasi Büroda olması həmin Büroda fəaliyyət göstərən bir neçə adamı, o cümlədən Romanovu, Qorbaçovu çox qıcıqlandırırdı, hər bir bəhanə ilə onu o kürsüdən uzaqlaşdırmaq istəyirdilər. Amma Heydər Əliyev elə böyük siyasi şəxsiyyət idi ki, heç bir qüvvə onu tutduğu mövqedən uzaqlaşdıra bilməzdi.

Sadəcə, özü hər şeyə etiraz edərək, haqsızlığa, ədalətsizliyə dözməyərək Kremldən getdi. Çünki Kremldəkilər qorxurdular ki, o, Sovet İttifaqıı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi ola bilər. Əgər Heydər Əliyev o vəzifəyə seçilsəyi Sovet İttifaqı dağılmazdı və ölkələr bərbad günə qalmazdı.

Onsuz da Ulu Öndər Azərbaycana qayıdandan sonra öz xalqının firavanlığı, dirçəlişi və inkişafı naminə bütün əziyyətlərə, çətinliklərə dözdü. Çünki Heydər Əliyev Azərbaycan xalqını çox sevirdi, Azərbaycan xalqı da Ulu Öndəri çox istəyirdi. O, xalqın ən ağır günündə millətin tələbiylə hakimiyyətə gətirildi.

Ona görə gətirildi ki, ölkədə xaos, özbaşınalıq, dərəbəylik baş alıb gedirdi. Üstəlik də, erməni işğalçıları və onların havadarları tərəfindən torpaqlarımızın 20 faizi işğal olunmuşdu. Ölkədə vəziyyət həddindən artıq kritik və çətin idi.

Belə bir dönəmdə hakimiyyətə gəlmək, xalqı idarə etmək və dövlətçiliyimizi idarə etmək elə də asan məsələ deyildi.

Bununla yanaşı, işğal olunmuş torpaqlarımızdan bir milyona yaxın məcburi köçkün və qaçqın yurdsuz, yuvasız qalmışdı. Millətin ən ağır, ən çətin, ən məşəqqətli günüydü desək, yanılmarıq. Çünki bir mliyona yaxın qaçqın və didərgin yaşamaq üçün yer axtarırdı. Onları yerləşdirmək, onları qidalandıırmaq və işlə təmin eləmək çox çətin bir məsələ idi.



Təbii ki, millətin atası Heydər Əliyev xalqın ağır günündə sinəsini qabağa verdi, onları bağırna basdı, çətin vəziyyətdən çıxmaqlarına və yaşamaqlarına arxa durdu.

Millət yaxşı bilirdi ki, bu xalqı çətin durumdan Heydər Əliyev xilas edə bilər. Elə ona görə də xalq Ulu Öndəri tələb edirdi.

Həm daxili, həm də xarici qüvvələr ölkədə sabitliyi pozmağa çalışır, iqtisadi sobataj yaradır, bir sözlə, Ulu Öndərin fəaliyyətinə maneçilik törətmək istəyirdilər. Ancaq Heydər Əliyevin apardığı uzaqgörən və məqsədyönlü siyasət nəticəsində bir neçə aydan sonra, ölkədə sabitlik bərpa olundu, ictimai asayiş təmin edildi, vətəndaşların və insnaların təhlükəsizliyi hüquq-mühafizə orqanları tərəfindən qorundu. Heydər Əliyev hakimiyyətə gələndə ölkədə vətəndaş müharibəsi başlamışdı və müəyyən qüvvələr bu müharibəni daha da alovlandırmağa çalışırdılar.

Lakin Heydər Əliyevin siyasi gücü və möhkəm iradəsi hesabına bu vətəndaş müharibəsinin qarşısı alındı, qardaş qırğınına yol verilmədi. Bir sözlə, bir çoxları yanan ocağın üstünə su əvəzinə benzin tökdülər, Ulu Öndər də onun qarşısını ağıllı və müdrik siyasəti ilə almağı bacardı. Üstəlik də, Xalq Cəbhəsinin vaxtında qonşu ölkələrlə, Rusiya ilə münasibətlər korlanmışdı. Amma Heyər Əliyev bu çətin məsələləri də qısa zaman kəsiyində yoluna qoydu, Rusiya və digər ölkələrlə siyasi, iqtisadi və mədəni əlaqələri yenidən qurdu.

Bir çoxları elə təsəvvür edirlər ki, Azərbaycan gənc, müstəqil dövlət olduğuna görə öz ərazi bütövlüyünü qoruya bilməyəcək və işğal altında olan torpaqlarını azad etməyi bacarmayacaq.

Ulu Öndər Heydər Əliyev bir daha dünyaya sübut etdi ki, müstəqil Azərbacyan dövləti siaysi, iqtisadi və hərbi cəhətdən qısa zamanda möhkəmlənməyi bacardı və 1994-cü ilin yanvarın əvvəllərində Füzulinin işğal olunmuş 22 yaşayış məntəqəsini və Horadiz şəhərini erməni işğalından azad etdi.

Həmin yurdda Azərbaycan bayrağı yüksəldildi və bir neçə ilin ərzində Füzulinin işğaldan azad olunmuş kəndləri və Horadiz şəhəri yenidən tikilərək, insanların istifadəsinə verildi. Həmin yerlərə kimlərin indi yolu düşsə, görərlər ki, Heydər Əliyev 90-cı illərin axırlarında Füzulidə nə qədər böyük möhtəşəm abadlıq və quruculuq işləri görüb.

Ulu Öndər həmişə dövlətçiliyimizi və müstəqilliyimizi diqqət mərkəzində saxlayıb. Heydər Əliyev müstəqilliyimizdən söz düşərkən demişdir: "Hər birimizin qəlbini sonsuz qürur duyğuları ilə döyündürən milli dövlətçilik atributlarımızı, türklüyün zəngin maddi və mənəvi dünyasını nümayiş etdirən tarixi abidələrimizi, ümumbəşəri dəyərlərimizi maneəsiz inkişaf etdirmək üçün hər cür şərait yaranmışdır". Təbii ki, Ulu Öndərin bu fikirləri zaman-zaman həyata keçdi. Bizim dövlətçiliyimizlə bağlı, maddi və mənəvi dəyərlərimizlə bağlı bütün nə vardısa, hamısı dünyaya çatdırıldı və dünya da bildi ki, Azərbaycan müstəqil dövlətdir, onun zəngin maddi və mənəvi dünyası var və bu dünya digər xalqlara da bəşərilik, insanpərvərlik idleyaları təbliğ edir.

**Heydər Əliyevin uzaqgörən siyasəti ölkəmizin daha da çiçəklənməsinə və inkişaf etməsinə böyük təkan verdi. Ulu Öndərin səsləndirdiyi bir fikir yadımıza düşür: "Xoşbəxtik ki, nəhayət, XX əsrin sonunda Azərbaycan öz milli azadlığını, dövlət müstəqilliyini əldə edib və öz təbii sərvətlərindən nə cür, hansı yolla istifadə olunmasını özü müəyyən edir". Ulu Öndərin bu fikirəlri bir daha təsdiq edir ki, heç bir xarici dövlət bizim razılığımız olmadan təbii sərvətimizdən istifadə edə bilməz. Çünki Azərbacyan qüdrətli və müstəqil bir dövlətdir və müstəqil dövlət müstəqil siyasət yeridir və dünya da onunla razılaşır.**

**FAİQ QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# HEYDƏR ƏLİYEV: "SİZİ ÖZ BALAM KİMİ SEVİRƏM VƏ SİZİ ÖZ BALAM HESAB EDİRƏM..."



***İbrahim Yusifoğlu.***
***AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı,***
***Azərbaycan Respublikasının Təhsil Əlaçısı***

**Hər bir il tarixdə öz adı ilə qalır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2023-cü il, "Heydər Əliyev ili" elan edilmişdir.**

Zəmanəmizin böyük və yenilməz dövlət xadimi, siyasətçi və mütəfəkkiri, görkəmli diplomatı ümumilli lider Heydər Əlirza oğlu Əliyevin parlaq həyatı uşaqların, gənclərin və yeniyetmələrin tərbiyəsində və yetişməsində böyük rol oynamışdır.

Ulu Öndərin həyat və fəaliyyətinin nümunəsində uşaq və gənclər Vətənə sədaqət və məhəbbət, öz millətini sevmək və ucaltmaq, Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirmək, respublikanın müstəqlillik prinsiplərinə sadiq qalmaq ruhunda tərbiyə olunurlar.

Xalqımızın başına gətirilən minbir bəlalar, onun qan yaddaşına əbədi həkk olunan 20 Yanvar, Xocalı soyqırımı hər birimizin qəlbini dərindən göynədir. Günahsız və məsum körpələri vəhşilərin süngüsündə görmək qədər dəhşətli hal ola bilməz. Belə bir anımızda, dar çağımızda bütün el-oba kimi uşaqların da harayına, imdadına Heydər babamız yetişdi. Müdriklərdən biri çox haqlı olaraq qeyd edibdir ki: "Dünyanın bütün ağrıları qeyri-adi adamların çiyinləri üstündədir. Qeyri-adilər olmasaydı dünya nə qədər adi olardı. Belə yaşamağa dəyərdimi ...". Doğurdan da, Ulu Heydər Əliyev qeyri-adi bir qüvvəyə malik insan kimi Vətən torpağının bir hissəsinin düşmən tapdağı altında inlədiyi bir vaxtda körpələrin fəryadına həyan durdu, onları qanadları altına aldı, xoşbəxt günlərə çatdırdı.

Dünyaya gələn hər bir uşaq ailəyə sevinc, fərəh gətirir. Onların qığıltısı ən əziz nəğmə kimi sevilir. Uşaqları sevən, onların parlaq sabahları üçün heç bir səyi əsirgəməyən ümumilli liderimiz Heydər Əliyev qeyd edirdi ki, uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi isə sağlam, vətənə məhəbbət ruhunda böyütməliyik: "Azərbaycan xalqının milli ənənələrindən biri də ondan ibarətdir ki, uşağa diqqət, qayğı həmişə hər bir ailənin, hər bir insanın əsas vəzifəsi, mənəviyyatımızın əsas hissəsi olubdur. Təsadüfi deyildir ki, əsrlərdən-əsrlərə Azərbaycanda insanlar istəyiblər ki, onların çox uşağı olsun. Ailələr çoxuşaqlı olublar. Ata-analar uşaqlarını qorumağı, saxlamağı, böyüdüb tərbiyə etməyi öz həyatının mənası və məqsədi hesab ediblər. Bu, əcdadlarımızdan, ulu babalarımızdan bizə qalan ənənədir, nəsihətdir, irsdir. Biz də bu ənənəyə sadiqik. Bizim borcumuz bu ənənələri dərinləşdirmək , genişləndirmək, daha da inkişaf etdirməkdən ibarətdir."

Azərbaycana rəhbərlik etdiyi dövrlərdə Ulu Öndərimiz bütün sahələrə ciddi diqqət yetirdiyi kimi, uşaqları da qəlbən sevmiş, onların xoşbəxt sabahlarına işıqlı yollar açmışdır. Axı, böyük şəxsiyyətin məhəbbəti də böyük olur.

Bəzən düşünürsən ki, dahi şəxsiyyət Heydər Əliyev niyə uşaqları bu qədər çox istəyib, onları dünyalar qədər sevib. Yada tanınmış yazıçı Ekzüperinin dahiyanə fikirləri düşür: "... Hamı öz uşaqlığından gəlir".

Heydər Əliyev də dünyaya çoxuşaqlı, öz halal zəhməti ilə övlad böyüdən bir ailədə dünyaya gəlib, valideyn öyüd nəsihəti alıb, ata çörəyi yeyibdir. Bu saflığın, bu halallığın nəticəsidir ki, ata-ana arzusunu həqiqətə çevirib., onların ümidlərini doğruldub, dünyanın tanınmış siyasi xadimi olubdur.

"Şərqin parlaq ulduzu" adlandırılan Heydər Əliyev uşaqlıq illərindən aldığı təlim-tərbiyənin, əməyə vurğunluğunun sayəsində respublikamıza rəhbərliyi dövrünün hər iki mərhələsində özünü əsl vətəndaş, millət, xalq, Vətən mücahidi kimi təsdiqləmişdir. Heydər Əliyev Azərbaycanda uşaqların qayğısız böyüməsi, onların sağlam vətəndaş kimi yetişmələrinə hərtərəfli diqqət göstərilməsi, qorxulu və yoluxucu uşaq xəstəliklərinin kökünün kəsilməsi, atılmış, sahibsiz uşaqlara dövlət himayəsinin artırılması, uşaq xəstəxanaları, internat məktəbləri şəbəkəsinin genişləndirilməsi, bağçalar, məktəblər tikilməsi, yaradıcı, istedadlı uşaqların qayğı ilə əhatə olunması üçün dövlət səviyyəsində saysız-hesabsız tədbirlər həyata keçirilmişdir: "Biz sülh istəyirik. Biz bütün dünyada sülh istəyirik. Bizim regionda sülh istəyirik. Bütün qonşu dövlətlərlə sülh, mehriban münasibətlər istəyirik", - deyən dahi rəhbər ən çox uşaqların, gənclərin həyatı naminə bütün dünyanı sülhə səsləyirdi.

Xalqın təkidli tələbləri ilə ikinci dəfə hakimiyyətə qayıdandan sonra dahi rəhbərin ciddi səyi və siyası təcrübəsi nəticəsində əldə edilən atəşkəs sazişi yüzlərlə günahsız uşaqları ölümdən, yurdsuz-yuvasız qalmaqdan, atasız-anasız böyüməkdən, şikəst olmaqdan xilas etdi. Elə buna görə də uşaqlar Heydər babalarını çox sevir, özlərini "Heydər babanın nəvələri" adlandırırlar.

Yaradıcılıq qabiliyyəti olan uşaqlar öz şeirlərində, rəsm əsərlərində, nəğmələrində Heydər babanı vəsf edir, ona olan dərin məhəbbətlərini bildirirdilər. Nəvəsi Leyla Əliyevanın qələmə aldığı "Babam Heydərə" şerində böyük öndərə məhəbbətini aşağıdakı kimi bildirir:

***Heydər baba, yaşa, yaşa,***
***Millətinlə sən baş-başa.***
***Maneələr dağ olsa da,***
***O dağları aşa-aşa,***
***Sevinirəm, babam sənsən.***
***El babası, babam sənsən,***
***Vətənim sən, obam sənsən!***

Heydər Əliyevin körpə balalara, onların sabahına inamı sonsuz və qəti olmuşdur: "Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə millətimizin, ölkəmizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır. Ona görə də bu, bizim müqəddəs borcumuzdur". Bu müdrik sözlərin sahibi Ulu Öndər öz müqəddəs borcunu yerinə yetirdi., uşaqları yersiz bəlalardan, müharibələrdən, ölümlərdən xilas etdi və respublikamızın hər bir guşəsindki körpə balalar bu borcun sayəsində azad, xoşbəxt yaşayırlar.

Məhz buna görə də ölkəmizin hər yerində uşaqlar Heydər Əliyevin doğum günündə keçirilmiş məktəblilərin ənənəvi müəllif şeirləri müsaqibəsində oxunan yazılarda fidan balaların dahi rəhbərə olan məhəbbətləri bulaq suyu kimi saf və duru olmuşdu. Müsabiqədə birinci yer tutmuş məktəbli Özgün Əsgərova "Xilaskar Öndərimsən" şerində deyir:

***Vətən namus, qeyrətin,***
***Ucalıbdır şöhrətin,***
***Səni sevir millətin,***
***Babamsan, Heydərimsən,***
***Xilaskar Öndərimsən.***

Bu gün məktəbli balalarımız saysız hesabsız söz çələngində respublikamızın dünya şöhrətli ümumilli liderin həyat akkordlarının gözəl təsvirini verən ürək sözləri əks olunmuşdur.

Azərbaycan dövlət müstəqilliyinin əbədi olacağına, Azərbaycanın bugünkü gənc nəslinin gələcək Azərbaycanın torpaqlarını düşmənlərdən təmizləyəcəyinə, daha da yüksəklərə qaldıracağına inanan ümumilli liderimiz öz sevgisini uşaqlara belə çatdırmışdır: "Ümumiyyətlə, uşaqları görəndə hər bir yaşlı insan, yaxud ata-ana, valideyn sevinir. Çünki uşaqlar bizim sevincimizdir, həyatımızın mənasıdır, uşaqlar bizim gələcəyimizdir. Hər bir insan üçün dünyada uşaqlardan istəkli heç bir şey ola bilməz. Mən də həyatımda daima uşaqları sevmişəm. Öz balalarımı da sevirəm. Amma sizin hamınız mənim balalarımsınız, sizi öz balam kimi sevirəm və sizi öz balam hesab edirəm". Bəli, Ulu öndərin arzuları çin oldu. Onun ümid bəslədiyi sevimli balaları Vətənə, Vətən torpağına məhəbbətlə böyüdülər. Onlar əziz babalarının sevimlisi, qəlbən inandığı İlham Əliyevin ətrafında sıx birləşərək "Dəmir yumruğa" çevrildilər. Gözəl Qarabağımızı işğal edən erməni vəhşilərini 44 günə məhv etdilər... Və sonra bu oğullar Qarabağda qalmış erməni tör-töküntülərini, müqəddəs Xankəndindən, Xocalıdan təmizlədilər. Bütün bu qələbəni dahi rəhbərin qoruduğu, yetişdirdiyi o kövrək balalar möhtəşəm Ali Baş komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirdilər. Qarabağ əbədi olaraq Azərbaycanın oldu.

Bu gün uşaq evlərinin, bağçaların, məktəblərinin günəşə açılan geniş və işıqlı pəncərəsindən xoşbəxt uşaqların şən mahnıları göylərə yüksəlir:

***Gülüstana dönübdü,***
***Yurdumuzda el-oba,***
***Bu möhtəşəm dövlətin,***
***Memarı Heydər baba!***

***Heydər baba, həyatda,***
***Bu gün, sabaha da varıq.***
***Firəvan günlər üçün,***
***Biz sənə minnətdarıq.***

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Astanada sərgi təşkil edib

**Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının 10-cu yubiley Zirvə görüşü çərçivəsində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən "Yıldız Sarayı Foto Kolleksiyasında XIX Əsr Türk Dünyasının Mədəni İrsi" adlı sərgi təşkil olunub.**

Sərgidə Osmanlı İmperiyasının nadir incilərindən olan Yıldız Sarayının arxivindən seçilmiş, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan, Türkmənistan və Macarıstanın maddi-mənəvi irs nümunələrini əks etdirən fotoşəkillər nümayiş olunub.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva sərgini açıq elan edərək, təşkilat tərəfindən bu layihənin ilk dəfə cari ilin yanvar ayında Türkiyə Respublikasının 100 illiyi çərçivəsində İstanbul şəhərində həyata keçirildiyini bildirib. O, Milli Saraylar Dolmabahçe İncəsənət Qalereyasında təşkil olunmuş sərgidə Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın xüsusi təbrik məktubunun oxunduğunu vurğulayıb.

Günay Əfəndiyeva sərginin Türk Dövlətləri Təşkilatının 10-cu yubiley Zirvə görüşü ərəfəsində Astanada keçirilməsinin rəmzi məna daşıdığını bildirərək, layihənin Türk ölkələrinin keçmişindən bugününə uzanan körpü rolunu oynadığını bildirib. Fondun prezidenti Türk Dövlət Başçılarının Zirvə toplantısının onilliyini müasir dövrdə sarsılmaz qardaşlığın bariz nümunəsi kimi qiymətləndirib.

Günay Əfəndiyeva layihənin Türk Dünyasının ümumi irsini, memarlığını, milli geyimlərini, adət-ənənələrini və bir çox digər elementlərini ehtiva etməsindən bəhs edib. O bildirib ki, sərgi eyni zamanda bu il Türk Dünyasında qeyd olunan möhtəşəm yubileylərə, o cümlədən Azərbaycanın ümummilli lideri ulu öndər Heydər Əliyevin 100 illiyinə, Sultan Beybarsın 800 illiyinə, Xoca Əhməd Yasəvinin 830 illiyinə, görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun 95 illiyinə həsr olunur. Fondun prezidenti tədbirin həmçinin, Qarabağı Türk Dünyasına qaytaran Azərbaycanın, bir əsri şərəflə tamamlayan Türkiyə Cümhuriyyətinin bütün Türk Dünyasına yaşatdıqları qüruru simvolizə etdiyini vurğulayıb.



Sərginin açılışında Azərbaycan Respublikasının Xarici işlər naziri Ceyhun Bayramov, Qazaxıstan Respublikasının Baş nazirinin müavini-Xarici işlər naziri Murat Nurtleu, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Qazaxıstan Respublikası Prezidentinin Beynəlxalq məsələlər üzrə köməkçi Yerjan Kazıxan, Qazaxıstan Respublikasının Mədəniyyət və İnformasiya naziri Aida Balayeva, Türk Dövlətləri Təşkilatının sədri Kubanıçbek Omuraliyev, Türk Akademiyasının prezidenti Şahin Mustafayev, Türk İnvestisiya Fondunun prezidenti Bağdad Amreyev, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının Azərbaycan nümayəndəsi Həsən Həsənov və digər rəsmi şəxslər iştirak edib.

Sonda tədbir iştirakçıları Türk xalqlarının köklü tarixini və mədəniyyətini özündə ehtiva edən foto şəkillərdən ibarət sərgiyə baxıblar.

# Pablo Nerudanın ölüm səbəbi

**Beynəlxalq ekspertlər qrupu məşhur Çili şairi, Nobel mükafatı laureatı Pablo Nerudanın (1904-1973) təbii səbəblərdən ölməməsi versiyasının təsdiqini tapıblar. Bunun necə məlum olması haqda yazıçının qardaşı oğlu Rodolfo Reyes İspaniyanın EFE İnformasiya Agentliyinə danışıb.**

R.Reyesin sözlərinə görə, ekspertlər 2017-ci ildə şairin qalıqlarında aşkar edilmiş klostridium botulinum bakteriyasını təhlil edərkən onun endogen mənşəli olduğu qənaətinə gəliblər. Bu isə, Rodolfo Reyesin fikrincə, Nerudanın 1973-cü ildə Çili çevrilişindən az sonra zəhərləndiyi fərziyyəsini təsdiqləyir. Şairin qardaşı oğlu ekspertiza rəylərini oxuduğunu bildirib. Nerudanın sümüklərində bakteriya aşkar edildikdən sonra əvvəlki altı il ərzində onun bədənində virusun olub-olmadığı, yoxsa ona daxil olduğu müəyyən edilməmiş hesab olunurdu. İndi isə, Reyesin qənaətincə, əmisinin bədəninə hansı yollasa (mümkündür ki, iynə yolu ilə) virusun yeridildiyi təsdiqini tapır.

Çox güman ki, ekspertlərin rəyi yaxın vaxtlarda Pablo Nerudanın ölümünə cavabdeh olan hakimə veriləcək. Məhkəmə sübutların etibarlılığını qiymətləndirməli və şairin ölümünün üçüncü şəxslər tərəfindən təhrik edilib-edilməməsinə dair qərar çıxarmalıdır. Amma hökmün çıxarılması üçün ekspertlərin məlumatının vacib olmadığı vurğulanır.

Xatırladaq ki, Nobel mükafatı laureatı Pablo Neruda 1973-cü il sentyabrın 23-də Santyaqodakı San Mariya klinikasında vəfat edib. Bu, devrilmiş prezident Salvador Alyendenin həlak olmasından 12 gün sonra baş verib. Artıq 40 ildir ki, şairin ölümünə prostat xərçənginin səbəb olduğu bildirilir. Yalnız uzun müddətdən sonra Nerudanın keçmiş sürücüsü Manuel Araya şairin zəhərləndiyini açıqlayıb. Bu əsasda Çili Kommunist Partiyası məhkəməyə müraciət edib. İndiyə kimi görkəmli ədəbiyyat xadiminin ölüm şəraitini öyrənmək üçün artıq üçüncü komissiya yaradılıb. 2013-cü ildə ilk komissiya prostat xərçəngi versiyasını təsdiqləyib. İkinci alim qrupu Nerudanın dişində bakteriya aşkar edib. Üçüncü qrup isə hazırda ən güclü zəhərlərdən biri olan və buna görə də bioloji silah kimi istifadə edilən bakteriyanın mənşəyinin aydınlaşdırılması ilə məşğuldur. Zəhər bədənə daxil olduqdan sonra sinir sisteminə təsir etməklə insanı öldürə bilir. Bakteriya korlanmış konservlərdə inkişaf edir, həmçinin çirklənmiş torpaqda, suda və yetişdirilən tərəvəzlərin tərkibində olur. Hətta yaralar vasitəsilə də orqanizmə bakteriyaların daxil olması halları baş verir.



**Rodolfo Reyes müsahibəsində bildirib ki, Danimarka və Kanada laboratoriyalarının məhkəmə-tibbi testləri Pablo Nerudanın qalıqlarında insan həyatı ilə uyğun gəlməyən Cloristridium botulinum bakteriyasının olduğunu üzə çıxarıb.**

**Hazırladı:**
**Ağaddin BABAYEV**

## “Əxlaqlı şou da, intellektual və xəbər şousu da hazırlamaq mümkündür”



**”Müasir dövrdə malalayanlara yox, əlini daşın altına qoyub Dövlətinə və Xalqına xidmət edənlərə ehtiyac var!”**

Adalet.az xəbər verir ki, bu sözləri aparıcı Murad Əzimzadə sosial şəbəkə hesabında yazıb. O, TV və TV-lərdən narazı ziyalılarla bağlı fikir bildirib. ”Ziyalılar TV-ləri tənqid edirlər. Haqlıdırlarmı? Bəli haqlıdırlar!

TV-lər ziyalıların tənqidlərinə qarşı özlərini müdafiə edirlər. Haqlıdırlarmı? Həm hə, həm yox! TV-lər ona görə, haqlıdırlar ki, intellektual və çox ciddi formatlar reytinq vermir, istənilən gəliri gətirmir!

Belə olan halda tvlər ayın sonu və ya əvvəli əməkdaşlara maaş vermək üçün tələb-təklif prinsipi ilə hərəkət etməyə məcbur qalırlar! Bu səbəbdəndir ki, şou formatlı proqramlar artır! Amma!

TV-lər ona görə, haqsızdırlar ki, xalqın istədiyi şounu müəyyən əxlaq çərçivəsində, yaradıcı təxəyüllə yox, qurşaqdan aşağı, rəzil durumda təqdim edirlər!

Məsələn: uzun illər TV-də ”Mərc şou”, ”Yeriniz məlum”, ”Tanıdım səni”, ”Yeni ulduz”, ”Azəri star”, ”Ailələr və Talelər”, ”GünəBaxan”, ”Musiqili meydan”, ”Sizin saat” və s. kimi layihələr yayımlanıb və bu layihələr əxlaq çərçivələrini aşmayıblar!

Deməli əxlaqlı şou da, intellektual şou və xəbər şousu da hazırlamaq mümkündür! Gərək TV-lər yaradıcı dayazlıqdan yaranan keyfiyyətsizliyi, ”bizə gəlir lazımdır, xalq bunu istəyir deyə belə edirik” - bəhanəsi ilə malalamasın!

Müasir dövrdə malalayanlara yox, əlini daşın altına qoyub Dövlətinə və Xalqına xidmət edənlərə ehtiyac var!”.

**Emin**

## Ermənilərin 1928-ci ildə çəkdikləri film Nyu-Yorkda nümayiş olunacaq - Bu gün...




**Nyu-Yorkda Müasir İncəsənət Muzeyində Hamo Beknazaryanın ”Xaz Puş” filmi nümayiş olunacaq.**

Hamo Beknazaryanın 1928-ci ildə çəkilmiş ”Xaz Puş” filmi noyabrın 3-ü və 13-də Nyu Yorkdakı Müasir İncəsənət Muzeyində (MoMA) 35 mm-lik film variantında nümayiş etdiriləcək.

Adalet.az xəbər verir ki, bu barədə Ermənistan Milli Kino Mərkəzi məlumat yayıb.

MoMA ilə əməkdaşlıq nəticəsində kinomərkəz öz arxivində saxlanılan kino lentini sərgi məqsədilə muzeyə təqdim edib. Xaspuş (Khas-Puş), Raffu və Vrtanes Papazyanların əsərləri əsasında 1927-ci ildə Hayfilm Kinostudiyasının çəkdiyi səssiz bədii filmdir . 1891 il də Tehranda kəndlilər və sənətkarların üsyanı haqqında çəkilib.Sırf İran üsul-idarəsini tənqid edir.

Qeyd edək ki, ”Xaz Puş” dünyanın nüfuzlu muzeylərindən birində nümayiş etdirilən ikinci erməni filmidir.

**Əntiqə Rəşid**

## Əslində indiki Günəş şüaları buz dövründən bəri yol gəlir



**Yerə düşən gün işıqları 30 000 il yaşındadır. Adalet.az xəbər verir ki, bu barədə ”Yaşıl elm” məlumat paylaşıb.**

Belə ki, gün işığı Günəşin mərkəzində meydana gələn Hidrogenin Heliuma çevrilməsi reaksiyaları nəticəsində yaranır. Ancaq Günəş o qədər yüksək bir sıxlığa sahibdir ki, mərkəzdə yaranan gün işığının onun səthinə çatması üçün özünə bir yol açması lazımdır. Buna səbəb fotonların Günəşin mərkəzindən səthinə gedən yolda fərqli maneələrə rast gələrək istiqamətinin dəyişməsidir.

Məlumatda qeyd olunur ki, əgər günəş şüaları, Günəşin mərkəzindən, önünə heç bir maneə çıxmadan düz bir xətt boyunca bizə doğru irəliləyə bilsəydilər, səthə çatması cəmi 2 saniyə çəkərdi. Ancaq gün işığı o qədər məşəqqətli və ziqzaqlı bir yol izləmək məcburiyyətində qalır ki, mərkəzdən səthə çatana qədər çox uzun müddət keçir. Ona görə də, hər bir foton, Günəşin daxilində yarandıqdan sonra, təxminən 30 000 illik bir zaman dilimi ərzində gəlib Yerə çata bilir.

Qısası, bu gün bizim dünyamızı işıqlandıran Günəş şüaları əslində Buz dövründən bəri səyahət edirlər.

**Emin**

# Əntiqə Rəşidin ilk kitabı çapdan çıxdı: “Ömrümün köç günlüyü”

**Deməli, bu ilin aprelində Millət vəkili, yazıçı Aqil Abbasın ”Çay qırağında bitib, susuz qalan ağacların sağlığına” romanının təqdimat mərasimi keçirilirdi. Mərasimi işıqlandırmaq mənə də nəsib olmuşdu. Məqalənin girişində yazmışdım ki, tədbir deməyək, tədbir deyiləndə bir az rəsmiyyət gəlir ağıla, bir az quruluq tökülür sözlərdən, iştirakçıların uz- gözündən:” Yox, tədbir deməyə adamın dili gəlmir! Əməlli,- başlı bir xeyir iş, xeyirli məclis!**

Elə bil çoxdan bir -birini görməyən yaxınlar, qohumlar bir yerə yığışmışdı. Nətər eldə- obada bir əzizinin xeyir işi, toy mərasimi olur, hamı sevinə-gulə yığılır ha o əzizin evinə.. eynən heylə!” Bu gün həsrətlə çapını gözlədiyim ”Ömrümün köç




günlüyü” ilk kitabım artıq əlimdədi və indi başa düşdüm ki, adamın ki-



tabının çapdan çıxması elə-belə sıradan bir şey deyil, əsl toy-şənlik abu-havasıdır. İlk təbrik edən də elə Aqil müəllim oldu! Bir -birinin xeyir işinə sevinən iki adam!

Ümid edirəm ki, Aqil Abbasın təbriki düşərli olacaq, həm onun kitabları qədər kitablarım işıq üzü görəcək, həm də, oxucularım onun oxucular qədər çox olacaq!

Qeyd edim ki, ”Ömrümün köç günlüyü” kitabım 2020-ci ilə qədər - Vətən müharibəsinə qədər yazdığım məqalə və bədii əsərlərdən ibarətdir. Qarabağ mənim yaralı yerim olduğu üçün məqalələrim demək olar ki, Qarabağ mövzusuna həsr olunub. ”Ecoprint” mətbəəsində 500 tirajla çapdan çıxan kitab 326 səhifədən ibarətdir. Oxuyun qiymət verin, əziz, dəyərli oxucular!

**Əntiqə Rəşid**

# Ağdamda Azərbaycan teatrının 150 illik yubileyi - «Naməlum Axundzadə» tamaşası

**Azərbaycan teatrı xalqımızın mədəni sərvətidir. Həmin sərvətin qorunması və inkişaf etdirilməsi Azərbaycan dövlətinin mədəniyyət siyasətinin əsas prioritetlərindən biridir.**

Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayaraq Mədəniyyət Nazirliyinə Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirilməsinə göstəriş verdi.

Məlumdur ki, Azərbaycan teatrı XIX əsrin taleyüklü ictimai-siyasi hadisələri fonunda köklü dəyişikliklər baş verərkən böyük maarifçi Mirzə Fətəli Axundzadənin ədəbiyyatımıza dram janrını gətirdiyi və xalq teatrının peşəkar milli teatra çevrildiyi bir vaxtda təşəkkül tapmışdır.

Həmin dövrdə ziyalılarımızın Bakı, Şuşa, Şəki, Lənkəran, Naxçıvan, Tiflis və İrəvanda təşkil etdikləri tamaşalar bu şəhərlərin mədəni həyatında mühüm rol oynamışdır. Bununla əlaqədar mədəniyyət nazirliyinin keçirdiyi layihələr silsiləsindən birisi Ağdam dövlət dram teatrında baş tutub.

”Yuğ” Teatrının quruluşçu rejissoru Gümrah Ömər Ağdam teatrının kollektivi ilə ”Postdramatik teatr” nəzəriyyəsi və metodikası haqqında ustad dərslər keçmiş və nəticədə Axundzadə ədəbi yaradıcılığı əsasında ”Naməlum Axundzadə” mistik komediyasına quruluş vermişdir.

4 noyabr tarixində layihənin nəticəsi Ağdam tamaşaçıları qarşısında oynanılmışdır. Yeni üslubda hazırlanmış tamaşa böyük maraqla qarşılanmışdır.

Tamaşada teatrın aktyorları, Elşən Cavadov, Nuranə Əliyeva, Fərhad Fərhadzadə, əməkdar artist Aidə Qasımova, Elmir Hümbətov, Xəyalə Xudatova, Hakim Cəfərli və Zərifə Ağayeva maraqlı rollar oynamışdılar. Tamaşanın səhnə dizaynı Qönçə Həzizadə, rejissor asistenti Ceyhun Yusifov, musiqi tərtibatı Azər Şükürova məxsus idi.

**Qeyd edək ki, Ağdam Dövlət Dram Teatrı Qarabağ bölgəsinin ən qədim tarixə malik teatrıdır. 1902-ci ildə böyük ədibimiz Əbdürrəhim bəy Haqverdiyev və yerli ziyalıların köməkliyi ilə dram dərnəkləri təşkil edilib. İlk tamaşa isə 1910-cu ildə Ə.B.Haqverdiyevin ”Dağılan tifaq” və Mirzə Fətəli Axundovun ”Sərgüzəşti-vəziri-xani-Lənkəran” əsərləri teatrın səhnəsində oynanılıb. 1923-cü ildə isə teatra Dövlət Teatrı statusu verilib. Həmin tarixə əsasən də bu il həm də Ağdam teatrının 100 illik yubileyidir.**

**Əntiqə Rəşid**

# Sözüm ifaçılaradır: İnsafınız olsun, sözləri düzgün oxuyun!..

**Bu cəhətdən ”Nar ağacı, nar çiçəyi” ən çox əzab çəkən mahnılardan biridir. Hələlik bu sözü qoyub, keçim o birinə. Televiziya verilişlərinin birində aparıcı böyük ustad Rəşid Behbudovdan soruşdu ki, Siz bir mahnının üzərində neçə gün işləyirsiniz?**

Rəşid müəllim özünə məxsus bir ciddiyyətlə, həm də qınayıcı tərzdə dedi: ”Gün nədir, sən aylardan danış. Mən bir mahnının üzərində azı 5-6 ay işləyirəm. Ürəyimə yatan mahnı olmasa qətiyyən oxumaram. Oxumaq istədiyim mahnını isə loru dildə desəm, tam bişirib hazır vəziyyətə gətirməmiş ortalığa çıxarmaram”.

Mən indi o böyük sənətkarın həmin sözlərini yada salanda fikirləşirəm ki, vaxtilə Rəşid Behbudova verilən o sualı indiki bəzi ifaçılara versək, yəqin ki, cavabları belə olar: ”5-6 gün çoxdur, 5-6 saat da bəs edər”...

Beləliklə təsəvvürümdə ani bir müqayisə aparıb təəssüflə düşünürəm: 5-6 saata yazılan, daha dəqiq desək, qəlbin, ürəyin xəbəri olmayan, yalnız boğazdan yuxarı ”ərsəyə” gələn dırnaqarası mahnılardan nə gözləmək olar?! İndi qayıdıram əvvəlki sözümə-”Nar ağacı, nar çiçəyi” mahnısının üzərinə. Həmin mahnının sözlərini Xalq şairi Nəbi Xəzri 1959-cu ildə yazıb. Bir müddət keçəndən sonra istedadlı aşıq Hacalı Hacıyev həmin şeirə ”Nar ağacı, nar çiçəyi” adlı gözəl bir mahnı qoşub və öz bənzərsiz ifası ilə bu məşhur mahnını möhürləyib. 60-cı illərin əvvələrində lentə alınmış və o vaxtdan Azərbaycan radiosunun ”Qızıl fond”unda saxlanılan bu mahnı 60 ilə yaxındər ki, ifa olunur. Mahnı lirik və ürəyəyatımlı, düşündürücü və ritmik olduğuna görədir ki, onun ifaçıları da, dinləyiciləri də çoxdur. Elə bir toy məclisi, el şənliyi yoxdur ki, rəhmətlik aşıq Hacalının bu mahnısı orada səslənməsin.

Bütün bunları deməkdə sözümün canı var: Vaxtilə əsl ustalıqla ərsəyə gətirilmiş bu mahnı, eləcə də digər bir çox mahnılar indi dinləyicilərə, tamaşaçılara necə təqdim olunur? Haqlı sualdır. Amma çox hayıf ki, cavabı təəssüf doğuran sualdır. Ümumiyyətlə, təhriflər hesabına həm mahnıların sözlərinə, həm də mahnıların özünə ciddi zərbələr dəyir. ”Nar ağacı, nar çiçəyi” mahnısında olduğu kimi. Tək bu mahnı deyil, çoxlarını misal gətirmək olar. Şairin yazdığı sözlər qalır bir tərəfdə, bir çox ifaçılar şeirin mətnini, o cümlədən ayrı-ayrı misralarını və sözlərini təhrif edə-edə oxuyur, düz və ya səhv oxuduqlarının fərqinə varmırlar.

Məsələn, ” Nar ağacı...” şeirinin nəqarat yerlərində belə yazılıb:

***Nar ağacı, nar çiçəyi,***
***Bir ulduzdur hər çiçəyi.***

***Nar ağacı, nar çiçəyi,***
***Döyüb tufan-qar çiçəyi.***

***Nar ağacı, nar çiçəyi,***
***Hələ yenə var çiçəyi.***

Əksər ifaçılar, xanəndə və müğənnilər isə nəqaratın 2-ci misrasını ucdantutma səhv olaraq belə oxuyurlar:

***Nar ağacı, nar çiçəyi,***
***Nə gözəldir yar göyçəyi (?)***

Hətta ifa zamanı, necə deyərlər, ara qarışıb məzhəb itəndə, ağız deyəni qulaq eşitməyəndə, tünlük yarananda basırığa salıb ”Nar ağacı” əvəzinə ”yar ağacı, yar çiçəyi”, hətta ”qar ağacı, qar çiçəyi” deyənlər də olur. Buna deyərlər ağzına gələni oxumaq.

İfa zamanı tək nəqarat deyil, şeirin ayrı-ayrı sözləri də təhrif olunur. Diqqət vermisinizsə, ulduza narın çiçəyi oxşayır, ləçəyi oxşamır. Bəzi ifaçılar isə ulduza narın çiçəyini yox, ləçəyini oxşadırlar. Tək bu deyil, başqa məqamlar da var. Məsələn, şeirdə belədir:

***Yenə qumlu sahil, yenə sərin bağ,***
***Yenə yolum düşdü meynəliklərə.***

Bir çox ifaçılar isə ”sərin bağ” əvəzinə ”sərin çöl”, ”meynəliklərə” əvəzinə ”meyvəliklərə” kimi oxumaqla sözləri qarışıq salırlar. Axı, ”meynəlik” üzümlüklərə aid olan sözdür.

”İrəvanda xal qalmadı” ən çox sevilən və ifa olunan xalq mahnılarımızdan biridir. Bu gözəl mahnı ustad Xan Şuşinskidən bizə yadigar qalıb. Xan öz ifası ilə bu möhtəşəm mahnının həm bünövrəsini qoyub, həm də möhürünü vurub. Xanın yaratdığı bu mahnı duet şəklində də çox maraqlıdır.

***Oğlan qıza deyir:***
***İrəvanda xal qalmadı ,***
***Daha məndə hal qalmadı.***
***O xal nə xaldı, qoşa düzdürmüsən?***
***Qız cavab verir:***
***Xal mənim, yar mənim, ixtiyar mənim,***
***Xalxa nə borcdur qoşa düzdürmüşəm.***
***Yarım deyibdir, qoşa düzdürmüşəm...***

Maraqlı duet beləcə davam edir.

Çox təəssüf ki, bəzi xanəndə və müğənnilərin ifasında həmin mahnının mətni və sözləri demək olar ki, əvvəldən axıra təhrif olunur. Necə deyərlər, xalı düzdürənlə, xalı düzən qalır bir qıraqda, bəzi ifaçılar isə xalları öz istədikləri kimi, hara gəldi, necə gəldi düzürlər.

Məsələn, oxuyanların biri deyir ”ora”düzdürmüşəm, biri deyir ”bura” düzdürmüşəm.

Beləliklə səhv oxuduqları mahnını beləcə hay-küylə başa vururlar. Biz bunu toy məclislərində də, çox təəssüf ki, hətta bəzən efirdə və ekranda da görürük. Harada olur olsun sənət dəqiq olmalı, yalnız peşəkarlığa və istedada söykənməli, insanlarda yüksək zövq yaratmalıdır.

Uzun illərdən bəri oxunan ”Kimdən öyrəndin” mahnısı var. Bu da ən çox ifa edilən ritmik mahnılardandır. Təəssüf ki, bu mahnını da bəziləri təhrif edə-edə (yəni kimin ağzına nə gəldi, necə gəldi, o cürə də oxuyur) ifa edirlər.

***Mahnıda belə bir bənd var:***
***Mən sevmişəm Zərnişanı,***
***Onda var gülün nişanı.***
***Sağ əlinlə bənövşəni***
***Üzməyi kimdən öyrəndin?***

Həmin bənddəki 3-cü misra əslində belə oxunmalıdır: ”Kol dibindən bənövşəni üzməyi kimdən öyrəndin?” Burada məqsəd kövrək, zərif olan bənövşəni kol dibindən dərməkdir. Əlin sağ və ya sol olmasının mətləbə dəxli yoxdur.

Mərhum şairimiz Famil Mehdinin ”Min hava çalınır könül tarında” misrası ilə başlanan şeirini təxminən 40-45 il əvvəl ilk dəfə ustad xanəndə, Xalq artisti professor Arif Babayevin ”Şur təsnifi” nin əvvəlində oxuduğu çox təsirli bir muğamda eşitmişəm və böyük zövq almışam. O səsin, o sözün gözəllikləri hələ də qulağımdan getməyib. Arif müəllimin bənzərsiz olan ifası şair sözünün möhtəşəmliyini qat-qat artırıb. Yaxşı cəhət bir də odur ki, Arif müəllim ifa zamanı həmin şeirin sözlərini əvvəldən axıra, olduğu kimi, yəni necə yazılıbsa elə də oxuyub.

Təəssüf ki, bəzi ifaçılar isə həmin şeirdə 1-ci bəndin 3-cü misrasındakı ”Fəsillər ötüşür” sözlərini ”Fəsillər görüşür”, ”Fəsillər görünür” kimi oxumaqla yanlışlığa yol verirlər.

Şeirin sönuncu bəndi belədir:

***Familəm, həmişə yanmaqdır peşəm,***
***Can deyən gözələ canan demişəm,***
***Bu yolda sevic də, qəm də yemişəm,***
***Heç zaman demərəm tamarzıyam mən.***

Təəssüf ki, bəzi ifaçılar həmin bənddəki ”yanmaqdır” sözünü” ”yazmaq”, ”heç zaman” sözünü ”bir daha” sözləri ilə əvəz etməklə şeirin məzmununa xələl gətirirlər. Belə misalların sayı çoxdur. Mən bu yazıda onlardan bir neçəsinə toxundum.

Bir təklifim var:

”Sarı bülbül” mahnısını ilk gündən bu sözlərlə eşitmişik:

***Vətən bağı al-əlvandır,***
***Yox üstündə xarı bülbül.***
***Oxudun, əqlim apardın,***
***Səsin gəlsin, sarı bülbül.***

Yaxşı olar ki, qədim və gözəl Qarabağın rəmzi sayılan Xarıbülbül yaddaşımızda daim möhkəmlənsin və əbədiləşsin deyə, bu mahnıda onu daha qabarıq şəkildə əks etdirək. Ona görə də mən təklif edərdim ki, ”Sarı bülbül” mahnısının ilk bəndindəki sözlər belə oxunsun:

***Vətən bağı al-əlvandır,***
***Nə gözəldir Xarıbülbül!***
***Oxudun, qəlbim açıldı,***
***Səsin gəlsin, sarı bülbül!***

Yəni ”Yox üstündə ( bəzən səhv olaraq ”yox içində” kimi də oxuyurlar) xarıbülbül”əvəzinə ”Nə gözəldir Xarıbülbül”, eləcə də ”oxudun əqlim apardın” əvəzinə ”Oxudun, qəlbim açıldı” kimi oxunsa məncə mahnı daha yaxşı, daha mənalı və məzmunlu səslənər.

İfaçı hər zaman məsuliyyət hiss etməlidir. İstər musiqinin bəstəsi, quruluşu, ahəngi olsun, istərsə də sözləri. Hər birinə diqqətlə yanaşılmalıdır.

Unudulmaz bəstəkar, onlarla gözəl mahnıların müəllifi Səid Rüstəmov ötən əsrin 30-cu illərində və ondan sonrakı dövrdə də Azərbaycan xalq mahnılarının notlu və notsuz variantlarını işləyib hazırlayaraq iki kitabda nəşr etdirmişdir. O kitabları müntəzəm olaraq açıb oxumaq lazımdır...

...Musiqi meydanı əsl sınaq yeridir. Bu sınaq meydanında yalnız öz istedadına, öz peşəkarlığına, öz səsinə və nümunəvi davranışlarına güvənənlər, səhnə mədəniyyətinə əməl edənlər ”at oynada” bilərlər.

Biz toy məclislərində, el şənliklərində, ekran və efirlərdə əsl sənəti və sənətkarlığı nümayiş etdirən xanəndə və müğənnilərlə yanaşı, çox təəssüf ki, zəif ifaçıları da görürük. Onların arasında təsadüfü ”ifaçılara” da rast gəlmək olur. Amma nə yaxşı ki, elin gözü tərəzidir. Yaxşını pisdən seçməyi bacarır. Çox istərdik ki, ekran və efirlərimiz, toy məclislərimiz, el şənliklərimiz dırnaqarası ifaçıları, dinləyicidə, tamaşaçıda əsəb yaradan, zövqləri korlayan, şit, mənasız, məzmunsuz söz yığını ilə yüklənmiş mahnıları yaxına buraxmasınlar. Onu da deyək ki, yalnız mikrofonla, fonoqramla ”nəfəs alan”, bunları özü üçün, necə deyərlər, ”oksigen aparatı” hesab eləyən ifaçılardan sənətkar olmaz. Kimin kim olduğu ən çox canlı ifalarda görünür. Tələbkar tamaşaçının, dinləyicinin kinayə ilə dediyi: ”Mikrofonla, fonoqramla elə nənəm də oxuyar” sözləri təsadüfü yaranmayıb. Odur ki, özünə ”sənətkar” deyib, mikrofondan, fonoqramdan ikiəlli yapışanlar bu eyhamdan, bu kinayəli sözdən nəticə çıxarsalar yaxşı olar.

Onu da deyim ki, toylarda, məclislərdə, ekran və efirlərdə canlı ifa nümunələrimiz çoxdur. Amma biz istərdik ki, hamısı belə olsun...

Düşüncələrimin bu anlarında maraqlı bir söz yadıma düşdü: Mikrofonun təzə yaranan vaxtlarıymış. Bir gün cavan sənət yoldaşlarından biri sevinə-sevinə aşıq Şakir Hacıyevə yaxınlaşıb deyir: ”Ustad, sənə bir şad xəbər verim.” Şakir maraqla soruşur: ”Nədi o şad xəbər?”

Cavan sənət yoldaşı deyir: ”Eşitmişəm lap təzəlikcən yaxşı bir aparat çıxıb, bir balaca ağzına yaxınlaşdıranda səsi xeyli artırır, gücləndirir”.

Şakir acı-acı gülümsəyir, başını yelləyib deyir:

”Bunun harası şad xəbər oldu? Day deynən ki, əsl sənətin evi yıxıldı də...”

Aşıq Şakirin nigarançılığı əbəs deyildi. Necə ki, bir vaxtlar Qoş Koroğlu demişdi:

”Tüfəng çıxdı, mərdlik getdi, ay-haray!...”

Yaxşı olar ki, bu deyilənlərdən hər kəs öz payını götürsün və nəticə çıxarsın....

...Çox istərdim ki, mənim bu yazım müzakirə mövzusuna çevrilsin.

**Tofiq Abdullayev**
**AJB-nin üzvü**

# FUTBOL OYUNUNUN YARANMASINDAN 160 İL ÖTÜR

**Futbolun neçə yaşı var? Tarixi və adəbi mənbələr hələ IV-V əsrlərdə müxtəlif ölkələrdə topla oyunun mövcudluğu barədə məlumat verirlər. Çİn, Misir, İtaliya və başqa qədim dövlətlərdə əsgərlərin fiziki hazırlığını möhkəmləndirmək üçün topla oyunlardan istifadə edirdilər. Maraqlıdır ki, Nizami Gəncəvinin əsərlərində də qəhrəmanların topla oynadığını əks etdirən səhifələr var. Amma, təbii ki, həmin oyunları bugünkü futbolla müqayisə etmək münkün deyil.**

Müasir futbolun Vətəni və dəqiq yaranma tarixi məlumdur:

İngiltərə 26-oktyabr 1863-cü il.Həmin gün Londonda ilk futbol assosiasiyası yaradılıb, oyunun 13 qaydası təsdiq edilib.

1863-cü il oktyabrın axırlarında Londonda top oyunu həvəskarları toplaşırlar. Onların arasında mübahisə gedir: Futbolu yalnız ”ayaqla” oynasınlar, yoxsa ”ayaqla-əllə”? ”Yalnız ayaqla” oyun tərəfdarları öz ittifaqlarını yaradırlar. Bu ittifaq da oyunun ilk qaydalarını işləyib hazırlayır. Həmin qaydalar heç də mükəmməl deyildi və bir neçə on illiklər ırzində onlara əlavələr oldu, dəyişikliklər edildi. Hakim meydana fit ilə yalnız 1878-ci ildə çıxmışdır. Həmin vaxta qədər hakim meydandan kənarda otururdu və oyunçular ona müraciət etdikdə, onların mübahisələrini həll edirdi.On bir metrlik cərimə zərbəsi (penalti) 1891-ci ildən oyunun qaydalarına daxil edilmişdir. 1926-cı ildən isə birbaşa küncdən zərbə ilə vurulan qolları da hesaba almağa başlamışlar.

İndi futbol ən populyar idman növlərindən biridir. Təkcə Avropada milyonlarla futbolçu, on minlərlə futbol hakimi var. ”Ruo-De-La-



neyro şəhərindəki (Braziliya) ”Marakana” stadionu 220 min tamaşaçı tutur.

Futbolun iki cəhəti var. O, maraqlı faydalı atletik oyundur, həm də çox cəlbedici tamaşadır. Futbol meydançasının uzunluğu 90-110 metr, eni 60-75 metr olan düzbucaqlı şəklindədir.

Qısa tərəflərin ortasında bir-biri ilə üzbəüz iki qapı olur, dəri topu da bu qapılara vurmaq lazımdır. Bu topun çevrəsi 68-71 sm (uşaqlar üçün 64-65 sm) və çəkisi 396-453 qram (uşaqlar üçün 350-400 qram) olur.

Futbolu iki komanda oynayır. Hər komandada 11 oyunçu olur. Bunlardan biri qapıçı öz komandasının qapısını qoruyur. Oyunçular qısa tuman , getr və xüsusi ayaqqabı-buts geyinirlər. Butsların altında hündürlüyü 1,5 sm olan rezin və ya dəri çıxıntılar olur.

Futbol meydanında komandalar arasında mübarizə 90 dəqiqə(iki taym, hər biri 45 dəqiqə) davam edir. Futbol qapısı 18 kv metrdir. Eni 7m 32sm, hündürlüyü isə 2 metr 44 sm-dir. Futbol 4 cür hazırlıq: fiziki, texniki, taktiki iradə hazırlığı tələb edir. Bu o deməkdir ki, yalnız hərtərəfli hazılığı olanlar futbolçu sayıla bilər.

Futbol üzrə Dünya, Avropa, Cənubi Amerika, Asiya çempionatları, Afrika millətləri, Qitələrarası və Libertadores kubokları yarışları keçirilir.

Futbol bir tamaşa kimi böyük şöhrət tapmış, məşhurlaşmışdır. Bu oyunda fiziki və zehni yaradıcılıq, idman ustalığı, mübarizə kəskinliyi, hərəkətlərin gözəllik və ifadəçiliyi, təsirliliyi təcəssüm olunur. Həm də tamaşa kimi kütləvi xarakter daşıyır. Ona eyni vaxtda on minlərlə adam baxa bilir.

Futbol gözəl, maraqlı, yüksək texnika və ustalıq tələb edən oyundur.Yüksək texnikası, idman ustalığı, yaradıcılıq qabiliyyəti olan futbolçularvə komandalar elə oyun nümayiş etdirirlər ki, baxmaqdan doymursan.

Milyonlarla futbol həvəskarlarından kim O.Fedetov, A. Şesternyov, R.Dasayev, İ.Netto, İ. Çislenko, E.StrelsovV.Qazzayev, O.Krasnitski, E.Malofeyev, N.Dementyev, B.Bobrov, S.Salnikov, A.Xamiş, L.Yaşin, Ə.Məmmədov, Y.Kuznetsov (SSRİ), Bene, Mesey, Albert, Farkaş (Macarıstan), İ.Aspazuxov, A.Dermençiyev, (Bolqarıstan), Edson Arantes do Nasimento (Pele), Qarrinça, Didi, Jairzinyo, Tostao, R.Karlos,A.Romario, K.Roberto, Ronaldo, Ronaldinyo (Braziliya), Fakketi, Suares, Matsola, P, Rossi, Buton, A.Delpiero, R.Maldini, R.Badjio, F.Totti, (İtaliya), Qonden, Z.Zidan, F.Bartes, P.Anri, F.Alberi, S.Nəsri, (Fransa), A.Metyuz, Bobbi Çarlton, B.Mur, D.Bekhem, Q.Lineger, B.Robson, S=S.Perr, U.Runi, M.Oven, L.Ferdinant, D.Varne, (İngiltərə), Masopust, (Çexoslovakiya), Caiç, (Yuqoslaviya), Eysebio, Auqusto, L.Fuqo, K.Ronaldo, V.Vaya, N.Qomes, (Portuqaliya), Bekenbauer, E.Vandersar, M. Sketelenburq, D.Edqar, Müller, Kan, Papen, K.Allars, (Almaniya), R.Van pers, Kruif, R.Qullit, Van Basyen, (Hollandiya), E.Butrogenyo, Q.Qonsales, İ.Kasilyas, X.İniesta, V.Valdes, K.Ryol, (İspaniya), Dieqo Armando Maradona, Kempes, Lionel Messi, Q.Batistuta, (Argentina),B.Payçadze, S.Metriveli, M.Mesxi, D.Kipiani, M.Xursilava, O.Qabeliya, A.Çivadze, (Gürcüstan), O.Blaxin, A.Mixayliçenko, A.Demyanenko, L.Buryak, İ.Belanov, (Ukrayna), A.Banişevski, K.Tuayev, V.Hacıyev, S.Kramarenko, A.Babayev, Y.Babayev, T.Axundov, (Azərbaycan) və başqaları kimi dünya məşhurlarını tanımır, onların oyunundan təkrar olunmaz estetik zövq, böyük həzz almamışdır.

Futbol oyununun qəribə bir xüsusiyyəti də var. O, güc, fiziki hazırlıq, mərdlik, dözümlülük, yüksək idman bacarığı ilə yanaşı, həm də incəlik, ustalıq, böyük texnika tələb edir. Futbol kobud atletizimdən, zorakılıqdan, qaba hərəkətlərdən uzaqdır.

SSRİ Radio Verilişləri Komitəsinin sifarişi ilə 1946-cı ildə futbol marşı yazmaq üçün bəstəkarlar arasında keçirilən müsabiqədə məşhur rus bəstəkarı Matvey Blanderin qalib gəldiyi, unudulmaz futbol marşı bütün azərkeşlərin və futbolsevərlərin nu günədək dillər əzbəri olaraq qalır.

**Futbol oyunu dünyada yeganə idman növüdür ki, o qədər maraqlıdır ki, 105-68 metr olan düzbucaqlı meydan böyük bir səhnəyə bənzəyir. Yüksək tamaşaçı tutumu olan stadionlara Avropa və Dünya çempionatlarına baxmaq üçün başqa ölkələrdən kimliyindən asılı olmayaraq hətta, tamaşaçılar arasında olan ölkə prezidentləri də uzaq məsafələr qət edərək bu əvəzolunmaz futbol oyunlarına tamaşa etmək üçün gəlir, çox böyük həvəslə baxır və öz komandalarına azarkeşlik edirlər.**

**Əbülqasım Novruzov**
**Şuşa Uşaq Gənclər İdman - Şahmat Məktəbinin futbol üzrə baş məşqçisi**

Əbülfət Mədətoğlu ailə üzvləri ilə birlikdə seyid
**Mirələm İbrahimlinin**
vəfatından kədərləndiklərini bildirir, mərhumun doğmalarına dərin hüznlə başsağılığı verirlər.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100



Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az



Tiraj: 1500
Sifariş: 154
Çapa imzalanmışdır: 07.11.2023